**SURXAY SUBU**

# *Ulduzlaşan qəhrəman*

**"Elm və təhsil"**
**Bakı - 2025**

**Surxay Subu (Surxay Rafiq oğlu Babayev)**
**Vətən oğlu.  Bakı, "Elm və təhsil", 2025, 148 səh.**

**ISBN  978-9952-37-417-9**

**©  Surxay Subu,  2025**

# MÜƏLLİFDƏN ÖN SÖZ

***Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş "Ulduzlaşan Qəhrəman"romanını yazmaq xeyli düşüncələrimin məhsulu oldu.İnternet vasitəsi ilə qəhrəmanımın həyat şəcərəsini qardaşı Nofəlin,anası Dursun xanımın müxtəlif internet saytlarında müsahibələrindən öyrəndim.Televiziya aparıcılarının Natiqə qarşı vuruşmuş erməni səhra komandiri Vitali Balasanyanın dəstə üzvlərindən müxtəlif regionlarda məskunlaşmış üzvləri ilə aparılan sorğu-suallara diqqətlə nəzər yetirdim.Müsahibəsi alınan erməni döyüşçülərindən Rusiyada yaşayanın "doğrayıblar" ifadəsi bu gün də məni rahat buraxmasada,bu qaniçən millətçilərin Xocalıları bəribiyabanda qətlə yetirmələri məndə bu erməni ifadəsinə şübhə yeri qoymadı.Əgər ermənilərin qatı millətçisi "ziyalı" Z.Balayan körpə qızcığazın dəri soyulmasından həzz almağı əsərində tirajlayırsa daha bu qaniçən millətin hansı "humanizmindən" danışmaq olar.Özünü tülkülüyə vurub öz cavanlığını belə inkar edən,eyni zamanda şəkildəki birgə olduğu əsir türk balası Natiqi tanımadığını bildirən düşmən koman-***

*dirinin ifadəsi,bu günkü uydurma "Generalın"çox hiyləgər və məkirli olmağından xəbər vermirmi?! Vito adlanan bu cinayəkarın şəkilə baxarkən onun sifət cizgilərinə və vicdansız baxışlarına diqqət edib yalançılığını düşdüyüm psixoloji vəziyyətlə ayırd etdim.Qəramanın qardaşı Nofəlin Natiqi sevən qızın hələ də ailə qurmamasını bildirməsi və adını çəkməməsi ondan xəbər verirdi ki, Azərbaycan xanımının Natiqə olan pak məhəbbəti, məhəbbət simvolu olan Leylilərdən,Əslilərdən heç də geri qalmır.Məni vəcdə gətirən bu pak və əbədi məhəbbət imkan verdi ki,mən əsərimdə məhəbbət səhnəsini yaradım.Məhəbbət səhnəsinin baş qəhrəmanlarından biri Natiqdirsə,digəri şərti olaraq adlandırdığım Sürəyyadır.Əsərdə Xocalı məktəb direktoru Cəfər müəllimin baş vermiş məlum hadisələrdə iştirakı və sonrakı münasibəti də öz əksini tapmışdır.Əsərin ən faciəli hissəsi qəhrəmanımıza verilən işgəncələrlə bağlıdır.Bu işgəncə səhnələrini mən cəllad və qaniçən Vitali Balasanyanın əvvəlcədən dediyim kimi, sifət cizgilərindən və baxışlarından aydınlaşdırmışdım.Natiqin iyirmi iki Xocalı əsirinin güllələnəcəyini qəbul etməyib təslim olmağı onun qeyrətli türk balası olaraq xalqına,vətəninə,torpağına olan sevgisindən doğur.İşgəncələrə olan dözümü ilə erməni qaniçənlərini mənən sındırır.Məhz Natiq qəhrəmanlığı qarşısında acizləşən Vito kimi cinayətkarlar yeganə çıxış yolunu türk balasını qətl etməkdə və bu qətlin izini itirməkdə görürlər.An-*

***caq,bu qatillər bir şeyi unudurlar.Türk ölmür,ulduzlaşır!Məhz bu ulduzlaşmağın nəticəsidir ki,qəhrəmanlığa önəm verən hörmətli prezidentimiz İ.Əliyev cənabları onun sinəsini vətənimizin ali mükafatı olan səkgizgüşəli ulduzla bəzədi.Natiq qəhrəmanlığı fövqəlbəşər qəhrəmanlıqdır.O, həm göylərin ,həm də ana torpağımızın ULDUZUDUR.***

***Əlbəətə ki,əsərin əvvəlindən sonuna qədər cərəyan edən bütün hadisələr müəllif təxəyyülünün məhsuludur.***

# ULDUZLAŞAN QƏHRƏMAN

Hər iki tərəfdən yamyaşıl dağlarla əhatə olunmuş çox da böyük olmayan kiçik Qaramurad kəndində Səlim kişinin ailəsi xoş günlər keçirərək şad xürrəm yaşayırdılar. Ailədə olan hörmət və izzət, qardaş- bacıların tərbiyəsi kənd camaatının nəzərində yüksək diqqətə layiq idi. Yeddi yüzə qədər əhalisi olan Qaramurad kəndinin əsas yaşam məşğuliyyəti əkinçilik və maldarlıq olurdu. Səlim kişinin də əsas məşğuliyyəti bağ-bostan və heyvandarlıq idi. Balaca Nofəlin valideyinlərinə kömək etmək həvəsi Səlim ailəsini sevindirərdi. Bu yaşam və halətlə Səlim kişinin ailəsində bir oğlan uşağı da dünyaya göz açdı. Hər tərəfi ağappaq qarla örtülmüş soyuq yanvar ayının əvvəli idi. Ağbəniz, gülər gözlü körpə elə ilk anlardan ailənin sevimlisi olmuşdu. Əl-qol atması və sanki valideyinlərinə nə isə başa salmaq üçün dodaqları ilə çıxardığı qəribə səslərlə hamını güldürərdi. Uşağın bu hərəkətləri Səlim kişini məftun edərdi. Adqoyma vaxtı Səlim kişi uşağa Natiq adını qoydu. Dursun ananın baxışlarından anladı ki, ad ona qəribə gəlir. Fürsəti fövtə verməyib can sirdaşını başa saldı ki, uşaq müxtəlif səsləri dodaqlarının hərəkəti ilə elə nizamlayır ki, sanki cümlələr qurub natiqlik etmək istəyir. Səlim kişinin anlatmaları hamının ürəyincə olduğundan

körpə Natiq olaraq böyüməyə başladı. Natiq ayaq tutub yeriyəndə artıq böyük qardaşı Nofəllə gizlənpaç oynayaraq tez-tez gözdən itərdi. Səlim kişi belə anlarda dili dolaşa-dolaşa Nofəl-Natiq deyib səslənərək onları haraylardı. Nofəl ata səsinə hay verib üzə çıxsa da, Natiq xeyli vaxt gizlində qalıb Səlim kişini təşvişə salardı. Birdə görərdin balaca Natiq peyda olub qəhrəman kimi əlini qaldıraraq gizlənpaçda mən uddum deyib məğrurlaşardı. Nofəl məktəbə gedəndə və yaxud dərslərini hazırlayanda Natiq çox darıxardı. Axşamlar Nofəli dərs oxumağa imkan verməz və cürbəcür oyunlarla onun diqqətini özünə cəlb edərdi. Məktəb yaşına hələ qədəm qoymayan Natiq öz şirinliyi və bəzən də inadkarlığı ilə xeyli özündən böyük olan qardaşı Nofəli yoldan çıxardar və iki qardaş kənddən bir az aralıda şırıltısı ilə qulaqlarda musiqi çalan Qaramurad çayına çimməyə gedərdilər. Qardaşlar kənd uşaqları ilə bahəm bir gölməçə düzəldib çimişərdilər. Natiq yenə də fokuslarından əl çəkməzdi. Gah gölməçədə mayallaq aşar, yaxud kənd uşaqları ilə mərcləşib su altında uzun vaxt qalmaqla qardaşı Nofəli də heyrətləndirərdi. Natiq bəzən böyük qardaşı Nofəli, atası Səlim kişini suallara tutardı. Ay, günəş, ulduzlar haqqında elə suallar yağdırardı ki, Nofəl də, Səlim kişi də onu təəccüblə seyr edərdilər. Balaca Natiqi ən çox sayrışan ulduzlar maraqlandırardı. Ulduzların sıralanmış düzəni, yaxud tək-tənha olanlar, bəzən də ulduzun birdən yoxa çıxması onda maraq yara-

dardı. Bir gün atası Səlim kişi ilə bağı belləyən Natiq xəyala dalmışlar kimi torpağı hətərən-petərən belləyəndə atası təccübləndi. Ay bala, Natiq nə olub belə xəyallanmısan? -deyə soruşdu. Natiq sifətində bir alim pafosu yaradanlar kimi sualını yağdırdı. Ata necə olub ki, kəndimizi Qaramurad adlandırıblar? Hə belə de, sən bunun üçün xəyallanmısan. O daşı diyirlət bəri və otur ki, məndə sənə rahatca kəndimizin yaranmasını ərz edə bilim. Bir vaxt babalarımız bu barədə bizə danışıblar. İndi məndə sənin üçün danışım. Elə bu dəm Nofəl peyda oldu. Səlim kişi Nofəli də oturmağa dəvət edib kəndin yaranması haqqında danışmağa qərarlı oldu. Keçən əsr demək istəyirdi ki, artıq böyüyüb on beş yaşa çatmış Nofələ sualla müraciət etdi. Ay bala, Nofəl de görüm bir əsrdə nə qədər il var? Nofəl atasının sualını cavablandırmaq üçün üzünü göyə tutub gözlərini yumaraq barmaqlarını daxilən saymağa başladı. Handan-hana atasına gözünü zilləyib dedi:-ay papa müəllimimiz öyrədib ki, bir əsrdə yüz il, yarım əsrdə əlli il olur. Ay sağ ol oğlum.  Müəlliminə də min alqış, sənə də. Əsrin illərini bilirsinizsə, deməli kəndimizin yaranma tarixini də bilmiş olacaqsınız. İndi qulağınız məndə olsun, mənim ağıllı balalarım. Keçən əsrin, yəni on doqquzuncu əsrin əvvəllərində, daha doğrusu 1826-1828 illərdə Rus-İran müharibəsi olmuş və bizim babalarımız-nənələrimiz yaşadıqları Gürcüstan bölgəsindən İrəvana köç etmişlər. O vaxtlar İrəvanın başçısı olmuş Hüseyinqulu xan vətən-

lərindən didərgin düşmüş əcdadlarımızı Zəngi çayının sağ sahilində məskunlaşdırmışdı. Elə bizim kəndimiz də o vaxtlar ərsəyə gəlib və Qaramurad adlandırılmışdı. Natiq ata hekayəsinin qafiyələnən musiqili heca sıralanmasından şirin yuxuya gedib mürgüləsə də, atasını diqqətlə dinləyən Nofəldə sual yaranmışdı. Odur ki, Nofəl atasından soruşdu. Ay papa, bəs kəndimizin adı niyə Qaramuraddır? Oğlum, kəndimizin adı elə Qaramurad adlı şəxslə bağlı olmuşdur. Atasının şirin ləhcəli hekayəsinin qurtardığını hiss edən Natiq, yarımmürgülü və gözlərini ova-ova soruşdu: hekayəni qutardın papa, nə tez? ! Natiq və Nofəl kəndlərini çox sevər və daha da kəndlərinə bağlanardılar. Orta məktəbdə Coğrafiya dərsini şagirdlərinə aşılayan Qüdrət müəllim doğma kəndləri Qaramurad barədə danışanda fəxrlə uşaqlara təlqin edərdi ki, kəndimiz Şahdağ sisiləsinin ətəyində yerləşən bağlı-bağatlı, torpağı bərəkətli bir məkandır.

Nofəl və Natiq balaların kəndə bağlılığı uzun sürmədi. Natiqin hələ beş yaşı tamam olmamış 1975-ci ildə Səlim kişi ailəsi ilə bahəm Mingəçevir şəhərinə köçüb yaşamalı oldular. İlk vaxtlar Nofəl Mingəçevir şəhərinə uyuşmurdu. Tez-tez kəndlərini yadına salıb darıxırdı. Axı, Qüdrət müəllim deməli onların kəndləri Şahdağ silsiləsində yerləşən yaşıllıqlarla əhatə olunmuş bağlı-bağatlı bir məkan idi. Ancaq, aylar keçdikcə vətənin böyük parçası olan Mingəçevir şəhərini də sevməyə başladı. O taylı, bu taylı nəhəng Kür çayı, bu çay üzərində

möhtəşəmliyi ilə seçilən, bütün Azərbaycanı çil-çıraq edən su elektrik stansiyası onu vəcdə gətirirdi. Düzdür Mingəçevirin bir tərəfini əhatə edən, günəş şüasından qızılı rəngə boyanan və yaşıl örpəyi olmayan dağlar onda təəssüf hissi yaratsa da, şəhər çil-çıraq gecələri ilə işıq saçan bir məkan idi. Beş yaşlı Natiq isə kənd, yaxud şəhər fərqinə varmadan yaşadıqları həyətdə qonşu uşaqlarla müxtəlif oyunlar keçirər və çalışardı ki, onun necə fərasətli olduğunu görsünlər. Natiqin yaşına uyğun olmayan hərəkətləri, təsadüfən yıxılıb ağlayan uşağa əl tutub köməklik etməsi qonşuların diqqətindən yayınmırdı. Yay aylarını Kür çayının sahillərində yaşıdları ilə başa vuran Natiq məktəbə getməliydi. Atası Səlim kişi ona məktəbli çantası, dəftər-qələm və kitablarla bərabər yeni məktəb qiyafəsi də almışdı. Məktəbə gedəcəyi günü səbirsizliklə gözləyən Natiq kitab-dəftərlərini səliqə ilə çantasına yığıb, məktəb qiyafəsinin qırışlarını ütüləməyi də öyrənmişdi. Nəhayət belə bir gün gəlib çatdı. Yaşadığı Mingəçevir şəhərinin dörd nömrəli məktəbinə birinci sinif şagirdi olaraq qəbul edildi. Bütün sinif yaşıdları kimi əlindəki gül-çiçək bağlamasını müəlliminə təqdim edib, fəxarətləndi. İlk məktəb gününü şadyanlıqla keçirən, özünə yeni sinif yoldaşları tapan Natiq dərs gününü başa vurub məktəbdən bayıra çıxarkən atasının onu gözlədiyini görüb üstünə atıldı. Oğlunu ilk məktəb münasibəti ilə bağrına basan Səlim kişi onun özündən yekə çantasını əlindən alıb evə getmiş oldular.

Anası Dursun məktəbli oğlunu sevinclə qarşılayıb onu ilk məktəb günü münasibəti ilə təbrik edərək bişirdiyi şirin qoğalları ona ərməğan etdi. Sabahı səhəri yerindən oyanan Natiq məktəb qiyafəsində bayıra çıxanda, atası onu məktəbə aparmaq istədi. Natiq atasından xahiş etdi ki, onun qolundan tutub kiçik bəbə kimi məktəbə aparmasın. Axı, o artıq yekə kişidir.Odur ki,balaca kişi atasına müraciətlə deyərdi:- ay papa vallah yolu tanıyıram, məktəbdə təzə dostlar tapmışam onlarla bərabər məktəbə gedib dərslər qurtarandan sonra evimizə qayıda bilərəm. Səlim kişi oğlunun qəlbinə toxunmayaraq onu məktəbə yola salsa da, nəzarətini unutmadı. Natiqin məktəbli uşaqlarla kişiyanə görüşməsi, əl-qolunu ataraq etdiyi hərəkətlər onun ata qəlbini duyğulandırardı. Sonbeşiyim yekə kişi olub deyəsən!-ata iftixar hissi keçirərdi. Natiq qısa müddət ərzində sinif yoldaşlarının əsil dostu, müəllimlərin isə sevimlisi olmuşdu. O, yenə də yaşına uyğun olmayan xariqələr göstərirdi. İdman dərsində turnikdən sallanaraq fırlanıb mayallaq aşır, yaxud döyülən sinif yoldaşının müdafiəsinə qalxıb zorçunu yerində oturdurdu. Bazar günləri sinif yoldaşları ilə Kür çayının sahilində qumdan düşmən"nemes"yaradır, taxtadan düzəltdiyi tüfənglə düşməni vurub yıxaraq özünü Mixaylo kimi təqdim edirdi. Orta məktəbin ikinci-üçüncü siniflərində artıq bərkimiş və yetginləşmiş Natiq velosipedlə elə ağılasığmaz hərəkətlər edirdi ki, yaşıdları ona heyrətlə tamaşa edirdilər. O, əsil sirk usta-

sı olmuşdu. Velosipedi gah tərsinə sürür, gah köhlən atlar kimi qabaq təkərini qaldırıb bir təkərlə hərəkət edir, ya da ayaqlarını oturacaqda cütləşdirərək velosipedi hərəkət etdirirdi. Beşinci sinifi başa vuran Natiq tətil vaxtlrını Kür sahilində keçirərək yaşıdları ilə dincəlirdi. Bəzən o uşaqlarla mərcləşərək su altında çox qalmaqını nümayiş etdirirdi. O,  su altında iyirmi-iyirmi beş saniyə qalmaqla heç beş-on saniyə dözməyənləri dözümlü olmağa çağırırdı. Ancaq,  Natiqin dözümlülüyünü uşaqlara başa salan idman müəllimi onları agah edirdi ki, Natiq dağ balasıdır. Onun ürəyi dağ havasında qidalanaraq dözümlülüyə öyrəşib. Ancaq, bizlər yay aylarında od püskürən Mingəçevirimizdə istidən yandığımızdan ürəklərimiz  bişib dözümsüz olub. Çox vaxt təngənəfəs oluruq. Natiq dağ balası olmaqdan fəxarət duyurdu. Yadındaydı ki, hələ üç-dörd yaşlarında Qaramurad çayının gölməçəsində gizlənpaç oynayarkən xeyli vaxt su altında qalmışdı. Nofəl Natiqin gölməçədə itməsindən təşvişə düşərək bərk qorxmuşdu. Gölməçədən sıçrayıb qalxan Natiqi görcək bərk sevinmişdi. Nofəl onu hədələyib papasına çatdıracağını deyəndə, Natiq şirin dilini işə salıb yalvarmışdı ki, papasına bu barədə heç nə deməsin. İndi isə Nofəlin yanını kəsdirməyəcəyini bildiyindən yaşıdlarına fokuslar göstərirdi. Ən çox velosipedindən əl çəkməyib onu qırata, özünü isə Koroğluya oxşadan Natiq velosipedi özünə ram edərək müxtəlif qorxulu hərəkətlərə yol verirdi. Artıq orta

məktəbim yeddinci sinifini bitirib səkgizinci sinifə qədəm qoymaq ərəfəsində olan Natiq bütün yay tətilini Kür çayı sahilində keçirərək peşəkar üzgüçü olmuşdu. Kür çayının qadağan olunmuş dərinliklərinə baş vuran Natiq yaşıdlarını heyrətə gətirirdi. Yaşıdları ona irad tutub deyəndə ki, bəs qorxmursan boğulub ölərsən?! Natiq isə yaşına uyğun olmayan bir tərzdə yaşıdlarına ərz edirdi ki, adam da sudan qorxarmı?! Qorxmaz adam gərək ən çətin anlarda belə vəziyyətdən çıxmağı bacarsın. Mən suda üzməyi bildiyimdən qorxmağı ağlıma belə gətirmirəm. İstəsəm çayın bu sahilindən digər sahilinə də üzə bilərəm. Uşaqlar sahil böyüklüyünü nəzərə alaraq ona irad tuturdular ki, bu mümkün olan deyil. Belə vaxtlarda öz üzgüçülük məharətinə inanan Natiq ilk dəfə olaraq bir sahildən digər sahilə üzərək yaşıdlarını mat qoyub qəhrəmanlaşmışdı. Natiqin günlərini çay kənarında keçirməsi Dursun ananı narahat edərdi. Hər dəfə Natiqə öyüd-nəsihət edər, bəzən də inadkarlığını nəzərə alıb danlayardı ki, səhərdən axşama kimi Kür sahilindən əl çəkmirsən. Heç xəbərin olurmu çayda nə qədər uşaqlar boğulur? -deyə anası onu su boğulmasından çəkindirməyə çalışardı. Natiq isə öz növbəsində anasını inandırmağa çalışırdı ki, o üzməyi bacardığından boğulmaq barədə düşünmür. Boğulanlar üzməyi bacarmıyanlardır. Dursun ana oğlunun inadkarlığını görüb papasına bildirəcəyini deyəndə, şirin dilini işə salıb anasının qılığına girən Natiq yalvarırdı ki, papasına bu barə-

də bildirməsin. Natiq Kür çayının sahillərində günlərini keçirəndə görürdü ki, kişilər, hətta qadınlar ayaqlarını quma basdırıb rahatlanırlar. Natiq ayaqlarını quma basdırıb rahatlananlardan eşitmişdi ki, qum ayaqlardakı duzların müalicəsində böyük rol oynayır. Natiq eyni zamanda bacısından da eşitmişdi ki, anaları Dursun ayaqlarındakı duzlardan əziyyət çəkir. Bu ağrılardan xilas olmaq üçün Kür çayının müalicəvi qumundan istifadə etməyi Dursun anaya məsləhət görsələr də, ana dost-tanışdan ayıb olar, - deyib müalicəvi qumdan istifadə etməkdən qaçardı. İndi bu məqamdan istifadə edən Natiq anasından xahiş edirdi ki, onunla bərabər Kür sahilinə gedib başqaları kimi ayaqlarını quma qoysun. Hətta, Natiq and aman edirdi ki, o qulaqları ilə eşitməklə bərabər, gözləri ilə görüb ki, ayaq duzlarından ağrı keçirənlər ayaqlarını quma basdırıb duz ağrılarından canlarını qurtarirlar. Natiqin təkidinə baxmayaraq, Dursun ana heç ağlına belə gətirmirdi ki, Kür sahilində dincələn lüt-üryanların içində ayaqlarını soyunub quma qoysun. Natiqin təkrar təkidinə cavab olaraq Dursun ana, utancaqlıqla oğluna əyan etdi ki, o lüt-üryanlar içində ayağını quma basdıra bilməz. Natiq isə inadından dönməyib anasını quma aparmağa çalışardı. Natiq qonşu qadınların da sahilə gedib dincəldiklərini ərz etdikdən sonra, nəhayət ki, anasını razı sala bildi. Eyni zamanda anasının kişi balası olaraq əlavə etdi ki, onun özü boyda oğlu olan yerdə utanmağa, yaxud çəkinməyə ehtiyac yoxdur.

Beləliklə oğlunun təkidi ilə, Kür çayının müalicəvi qumundan bəhrələnən Dursun ana oğluna duaçı oldu. Beləcə günlərin birində Kür sahilində hay-küy qalxdı ki, uşaqlardan kimsə boğulub. Dursun ana yerindən dik sıçrayıb gözləri ilə oğlunu arasa da, heç yerdə onu görmədi. Sanki, Natiq bir əppək olub yoxa çıxmışdı. Oğlunu tanış-bilişdən soruşsa da,  hay vurub səsləsə də ondan cavab almayıb narahat oldu. Ananı nigarançılıq təşvişə saldı. Bir azdan xəbər yayıldı ki, boğulan uşağı  sudan çıxarıblar. Boğulanı bir yeniyetmə oğlan xilas edib. Ölüm-itim olmasın deyə, təşviş keçirən Dursun ananın ürəyi gəlib yerinə düşdü. Natiqi görməsə də fikirləşdi ki, indi haradasa uşaqlarla oynayır. Harda olsa gələcək. Elə bu dəm anasına doğru səmtlənən Natiqi Dursun ana görüb sakitləşdi. Anasının necə dincəldiyini soran Natiq, cavabında ittihamlandı. Haradasan ay bala? Yaxşı ki, boğulanı bir allah balası xilas edib. Yoxsa, tamam ürəyim qopmuşdu ki, birdən boğulan sən olarsan, allah eləməmiş! Natiqi gülmək tutdu. Ay ana, o boğulanı xilas edən mən idim də! Dursun ana oğlunun zarafat etdiyini bildiyindən qəzəbləndi:-Ay bala sən allah kiri. İndi zarafat yeri deyil. Ay ana mənə inanmırsan, uşaqlardan soruş. Uşaqlar xorla bağırışdılar ki, bəs Natiq əsil qəhrəmandır. Boğulanı xilas edən Natiqdir. Dursun ananın matı-mutu qurumuşdu. Bir azdan boğulan uşağın anası Natiqə təşəkkürünü bildirəndə Dursun ana anladı ki, Natiq bala zatafat etmirmiş. Anasının boynunu qucaqla-

yan Natiq, yenə də gülümsəyərək dedi:-ay ana mən heç boğulana oxşayıram. Bizim idman müəllimimiz nahaqdan demir ki, Natiq dağ balasıdır. Ona görə də sudan qorxmur, çünki ürəyi dözümlüdür. O gündən Dursun ana oğlunun zirəkliyinə inanmışdı.

Artıq səkgizinci sinifdə oxuyan Natiq anlamışdı ki, dərslərini oxumaqda həvəsli deyil. Natiq qurub-yaratmaq eşqi ilə çırpınırdı. Şagird dostları Kür çayında boğulan uşağı Natiqin necə xilas etməsini böyük fərəhlə müəllimlərə danışmaları onun qəlbini iftixar hissi ilə doldursa da, sakit tərzdə deyilənləri eşidib heç nə olmamış kimi təvəzökarlıq edirdi. Bir dəfə tarix dərsində müəllim böyük fərəhlə Sovet İttifaqı Qəhrəmanı iyirmi üç yaşlı İsrafil Məmmədovun komandirini qorumaq üçün sinəsini irəli verib öz ölümü ilə onu xilas etməsindən danışarkən qeyd etmişdii ki, qəhrəmanlar anadan qəhrəman kimi doğulurlar. Şagirdlər isə dil boğqza qoymayıb Natiqin suda boğulanı xilas etməsini, Kür çayını bir sahildən digər sahilə üzməsini müəllimlərə danışmaları bir növ onu qəhrəmanlaşdırırdı. Tarix müəllimi Cabbar müəllim uşaqların Natiqi qəhrəman etməsindən təəccüblənməyib bildirdi ki, Nariq çox fərasətli, zirəng oğlandır. Ancaq hayıf ki, dərslərini oxumur. Əgər dərslərinə fikir verib oxusa həm də savadlı olmuş olar. Həm fərasətli, həm də savadlı olmaq bir-birini tamamlayardı. Bu olardı əsil qəhrəmanlıq. Natiq Cabbar müəllimin iradını təvəzökarlıqla qəbul edərək demişdi. Düzdür

mən dərslərimdə fəal deyiləm. Ancaq, hamı oxuyub müəllim, alim olacaqsa, onda bəs peşə sahibləri, sənətkarlar kim olacaqdır?! Odur ki, səkgizinci sinifi bitirəndən sonra sənət dalınca gedib peşə sahibi olacam. Bir də ki, ay müəllim istər alim ol, istər sə də peşə sahibi, əsas odur ki, insanlığını itirməyəsən. O de Əjdər müəllim. Mingəçevirin tanınmış və savadlı riyaziyyat müəllimidir. Ancaq, nə fayda. Vur-tut bir madar oğlu var. Oğurluq üstündə həbsxanada yatır. Savad lazımdır. Ancaq, insanlıq ondan da artıq vacibdir. Dərslərində fəal olmayan bu çəlimsiz, ancaq özündən ötkəm və ağıllı olan uşağın insanlıq dərsini Cabbar müəllim həzm etməsə də, anladı ki, savadlı görmək istədiyi uşaq min savadlıdan daha dolğun və bitgin ağıla malikdir. O, qarşısında duran oğlanın ağıllı olmaqla bərabər, həm də vüqarlı olduğunu hiss edib daxilən sevindi. Əlini Natiqin kürəyinə vuraraq ona sənət yollarında uğurlar dilədi.

Dörd saylı orta məktəbin səkgizinci sinifini başa vuran Natiq, Mingəçevir şəhərindəki otuz doqquz saylı texniki peşə məktəbinə daxil olub orta təhsilini davam etdirməklə bərabər, qaynaqçı peşəsinə yiyələnməyə başladı. Texniki peşə məktəbində Natiq öz diribaşlığı ilə digərlərindən fərqlənirdi. Bir çox uşaqlar qoruyucu və gözlüklü şlemlə işləməkdə çətinlik çəksələr də, Natiq nəinki şlemlə işləməyi bacarır, hətta digərlərinə də nümunə olurdu. Peşəkar qaynaqçı olmaq üçün bu sənətin sirlərinə yiyələnirdi. Peşə məktəbində oxuduğu illərdə

nəinki uşaqlar, hətta müəlimlər Natiqi çox vüqarlı, mərd, sözün düzünü deyən qorxmaz bir yeniyetmə kimi qəbul edirdilər. Peşə məktəbini başa vurub qaynaqçı sənətini əxz edən Natiq bir müddət qaynaqçı peşəsi üzrə iş tapa biməsə də, şəhərdəki "Kosmos"kinoteatrında kinomexanik olaraq işə düzəldi. Natiq kinomexanik işləyərkən ən çox sevdiyi filmlər qəhrəmanlıq kino filmləri olardı. Baxdığı müharibə filmlərində iki ayaqlarını itirib min bir əziyyətlə təyyarəsinə qovuşaraq vuruşmaq üçün general qarşısında rəqs edən Aleksandr Meresyevin qəhrəmanlığı, "İnsanın talehi" filmində almanlara əsir düşüb, mərd və cəsarəti ilə düşmənini etiraf etməyə məcbur edən Sokolovun qəhrəmanlığı, "Uzaq Sahillərdə" filminin qəhrəmanı Mehdi Hüseyinzadənin düşmənlərə tutduğu divanlar onu daxilən vəcdə gətirib qəhrəmanlaşdırırdı. Hətta bir dəfə, "Uzaq sahillərdə" filminə təkrarən tamaşa edərkən Mehdini kürəyindən vuran namərdə necə hirslənmişdisə acığını kino mexanik aparatından çıxaraq, zərblə yumruğunu aparata çırpmışdı. Bu zərbədən aparat sıradan çıxmış kino seansında fasilə yaranmışdı. Natiqin xainlərlə, namərdlərlə heç arası olmazdı. Hələ uşaqlıqdan məktəbdə oxuyarkən arxadan əl qaldıranı, təpik atanı bağışlamazdı. Deyərdi ki, hünəriniz var çıxın qabaq-qabağa döyüşək. Onda görərsiniz necə dərs almış olacaqsınız. Orta məktəbdə oxuyarkən sinədəftər ədəbiyyat müəllimi Əli müəllim təəssüflə danışardı ki, hayıf ki dünyamızda həm

mərd, həm də namərd yaşayır. Əli müəllim bu haqda öz şeirinin bir bəndində deyərdi:

Dünya karvan odası,
Əyləşibləmi onda.
Kimi mərd, kimi namərd,
Əyləşiblərmi onda.

sonra da Əli müəllim karvan odasında namərdlə mərdin yan olmasına qarşı çıxaraq digər bir bəndində vurğulayardı:

İstərəm cənnət odası,
Olsun mərdlər adası.
İstərəm cəhənnəm odası,
Olsun namərd adası.

Əli müəllimin bu beytlərini xatırlayan Natiq başa düşürdü ki, bu fani dünyada hər sifətə malik insanlar var.

Bir müddət kinomexanik işlədikdən sonra Natiq öz qaynaqçı peşəsinə uyğun iş tapa bildi. O, Azərbaycan DRES-də yanacaq nəqliyyat sexində dəmiryol təmirçisi olaraq iş fəaliyyətinə başladı. Bu işində Natiq bacarıqlı qaynaqçı olaraq diqqəti cəlb etdi. Vaxtı-vaxtında işə gəlməsi, verilən tapşırıqlarıqları dəqiqliklə yerinə yetirməsi rəhbərlikdə ona qarşı müsbət rəy yaratmışdı. Natiqin DRES-də işlədiyi vaxtlar Qarabağ erməni daşnakla-

rının "müstəqillik" uğrunda hərəkata başlayan anları idi. Erməni millətçilərinin nəinki Qarabağda, həm də Ermənistan respublikasında yaratdıqları milli şovinizmi, doğma yurdlarında tarixən yaşayan Azərbaycanlılarının başında çatladı. Nəhəng Sovetlər birliyinə rəhbərlik edənlərin erməni şovinizminə biganə yanaşması, din qardaşlarına olan qayğısı nəticəsində minlərlə Azərbaycanlıların doğma torpaqlarından didərgin olmasına şərait yarandı. Dovşana qaç deyib, tülküyə tut deyən ölkə rəhbərliyi öz ikiüzlü siyasəti ilə müsəlman Azərbaycanın gözündən düşmüş oldu. Azərbaycanın bütün bölgələrində olduğu kimi Mingəçevir DRES-də də yığıncaqlar keçirilərək erməni şovinizmini lənətləyib düzgün mövqedə olmamalarını vurğulasalar da ölkə rəhbərliyinin biganəliyi nəticəsində erməni şovimizmin aqressivliyi gündə-günə artmış oldu. Ölkə rəhbərliyinin xristiyan meyilliyindən yararlanan erməni şovinistləri sadə Azərbaycanlıları təhqir edərək, ölümlərlə hədələyərək doğma torpaqlarından didərgin saldılar. Azərbaycan əhalisinin Moskvada oturan ölkə rəhbərliyinə olan haqq etirazı biganəliklə qarşılansa da doğma torpaqlarından qovulan insanlar darda qalmadılar. Didərgin salınanlar vətənimizin bölgələrində yerləşdirildilər. Azərbaycan əhalisi didərgin düşənlərə qucaq açıb onları qəbul etdilər. Belə bölgələrdən biri də Mingəçevir şəhəri idi. Mingəçevirə pənah gətirən vətəndən qovulanlar xalq tərəfindən qayğı ilə qarşılandı. Yerli camaaat qovulanların

dərdlərini ümuxalq dərdi kimi qəbul edib onlarla həmrəy oldular. DRES işçiləri didərgin düşənlərə kömək üçün yığıncaq keçirib qərara aldılar ki, DRES-in imkanlarından didərgin düşənlərə maddi köməkliklər etsinlər. Natiq baş verən bu halları sarsıntı ilə qəbul edirdi. Hətta, şəhərdə yaşayan erməni ailələrini qovmaq çağırışı olsa da, şovinizmdən uzaq olan Mingəçevirlilər insanlığı, həmrəyliyi əsas tutaraq belə bir milli parakəndəliyə getmədilər. Orta yaşlılar, yaxud yaşlılar cavanları başa salırdılar ki, erməni öz çirkinliyini göstərdi. Biz ki, humanizmi sevən insanlarıq. Vətən müharibəsi illərində biz nə qədər Rus, Belorus və digər millətlərə qucaq açıb, çörəyimizi onlarla birgə bölüşmüşük. Bizim millətə şovinizmi yaraşmaz. Biz Azərbaycanlılar şovinist erməni ağlında deyilik ki, bizlə çiyin-çiyinə yaşayan başqa millətlərin nümayəndələrinə kəm baxaq.

Hər bir yeniyetmə cavan kimi Natiq də sevgi hisslərindən məhrum deyildi. Çox gözəllərdən xoşu gəlsə də, əsil sevgisini tapmadığından daxilində onları bir bacı kimi qəbul edərdi. Günlərin birində işdən çıxıb evlərinə doğru səmtlənən Natiq, qarşıdan gələn şirin təbəssümlü qızın cazibə qüvvəsindən titrəyiş hiss edib dillənmək istəsə də nitqi bağlanmış oldu. Onun qəlbini oynadan qızın təbəssümünü lal-kar olaraq qəbul edən Natiq, xeyli fikirləşdikdən sonra qaragöz qızın qonşu binada yaşadığını xatırladı. Natiq indiyə kimi qıza nədən fikir verməməsini anlaya bilmədi. Yol boyu qərara gəldi ki, qarşıla-

şacağı bu gözələ biganə qalmayacaq.  Bir neçə gün onun ağlını əldən alan qızı görmək üçün çalışsa da, buna müyəssər olmadı. Onu görmək üçün qız yaşayan binaya yaxınlaşmağı özünə sığışdırmamaqla bərabər, edə biləcəyi hərəkəti ayıb saydı. Günlərin birində yenə qarşılaşdığı qıza ürəyinin əmri ilə biganə qalmadı. Qız ona yaxınlaşıb təbəssüm edəndə Natiq özünü saxlaya bilməyib dilləndi:

Necə tovuz kimisən,
Bəzənib düzənmisən.

Qız sanki himə bənd idi. Ayağını saxlayıb gülərək Natiqə sual etdi. Siz hardan bilirsiniz ki, mən Tovuzluyam? Natiqə elə bil güc və dil verdilər. Vallah mən bilmirəm sənin Tovuzlu olmağını. İkinci də ki, nə fərqi var sən haralısan. Əsas odur ki, mənim bu gözəl vətənimin gözəl və qəlbə oxşayan qızısan. İcazə versəydiniz sizinlə daha yaxından tanış olardıq, -deyə Natiq dilləndi. Qız üzünü yalayan qara şəvə saçlarını arxasına atıb gülərək elan etdi ki, mən sizi hələ kinomexanik işləyəndən tanıyıram. Ancaq,  ağzı bağlı lallar tək. Natiqin sevgi dolu sərrast baxışları qızın uzun kirpikli, qara gözlərinə elə dikildi ki, sanki qarşılaşan bu gözlər könüldən könülə sevgi hisslərini izhar edirdi. Bu əvəzolunmaz hisslər ilk və ülvi hisslər idi. Təbəssüm qızın alma yanaqlarına sanki işıq saçırdı. Natiq bu hisslər içərisində itib batmışdı. Natiqin xəyallanmasını hiss edən qız dilləndi. Mən sizin adınızın Natiq olduğunu bilirəm. Mənim adım Sü-

rəyyadır. Ayaqlar sanki, maqnit cazibəsi ilə yerə mıxlanmışdı. Sevgi qədər maqnitləşən ikinci bir hiss yoxdur, -deyə Natiq xəyalda hələ də uçurdu. Bir an xəyaldan ayrılan Natiq, -hə nə gözəl adınız var. Biz bir də görüşə bilərik mi? Qız gözlərini Natiqə zilləyib, kirpiklərini razılıq əlaməti olaraq qırpdı. Ayrılıq Natiqi dilə gətirdi. Natiq Kür sahilindəki böyük Ağcaqayın ağacını göstərib dedi:- mən istərdim ki, o ağac bizim görüş və əhdi peyman yerimiz olsun. Hər gün işdən sonra sizi səbirsizliklə gözləyəcəm. İlk və ülvi sevgi hissləri ilə çırpınan ürəklər göz-gözə gəlib baxışları ilə vidalaşaraq ayrıldılar. Natiq evə necə gəldiyini belə bilmədi. Ayaqlar sanki, uçmuşdu. İşdən gec gələn oğlunu narahatlıqla qarşılayan Dursun ana onun gülən sifətini, parıldayan gözlərini görüb təəccübləndi. Ana oğlunu belə bir qeyri-adi görünüşdə ilk dəfə idi ki görürdü. Natiq o qədər şən və xoşbəxt görkəmdə idi ki, Dursun ana məətəl qalmışdı. Anasının təəccübünə rəğmən onu qucaqlayan Natiq, nə demək istəsə də mümkün olmadı. Dili topuqlandı. Oğlunun qucağından bir təhər qurtulan ana soruşdu. Adə bala bir de görüm nə olub belə? ! Elə bil lotereyana maşın düşüb. Hə, ana düz buyurursan lotereyama maşından da yaxşı gözəl-göyçək, ürəkləri oxşayan tovuz quşu düşüb. Dursun ana barmağını dişlədi. Aha, deyəsən balamın ürəyinə məhəbbət alovu düşüb. Görəsən oğlumunun könlünü titrədib üzünü işıqlandıran o mələikə kimdir belə? ! Elə bu dəm Səlim kişi qanı qara olaraq qapıya

yaxınlaşdı. Ana-bala arasına elə bil soyuq su çiləndi. Söz-söhbət təmiz başqa macəraya çevrildi. Səlim kişi bərk hirslənmişdi. Əşi bu axmaq ermənilər bizim millətdən nə istəyirlər başa düşə bilmirəm. Allahın verdiyi torpaqda bizdən də yaxşı yaşayan bu xəbis millət torpaq yemək həvəsinə düşüb. Hallı-varlı yaşamaları onları qudurdub. Deyən gərək ki, ət sizdə, yağ sizdə. Bəs, Sovetlər bizə nə verir? Nədi o sümük yığıncağı. Zəhrimarın bir təhər adı da var. Hə, yadıma düşdü. "Sup-nabor". Sümüyü qaşıyırdıq ki, bəlkə bir tikə ət əmələ gələ. Hələ bu harasıdır, neftdən alınan marqarin yağı neft iyi verirdi. Başqa bir marqarin yağı var idi içində ağac qırıntıları olurdu. Yadımdadır kartof qızardanda marqarinin ağac qırıntıları üzdə qalırdı.Bax bu idi Sovetin bizlərə olan qayğısı.Harınlamaqdan qudurub bu erməni daşnakları. Yağın yağlısı, ətin karrısı. İndi də torpaq yemək həvəsinə düşüblər. Ay siz öləsiz!

Sürəyya Natiqdən ayrılandan sonra müvazinətini itirmiş və hallanmış olaraq evə gəlib tez otağına keçdi. Sürəyya bu vəziyyətdə valideyinlərinin gözünə görsənmək istəmirdi. Birdən valideyinləri duyuq düşərlər ayıb olar,-deyə düşündü. Güzgüyə baxdı. Həyacandan qızarmış yanaqları onu elə dəyişdirmişdi ki, heç özü-özünü tanıya bilmədi. O, həqiqətən Natiqi sevirdi. Bu sevgi Sürəyyanın qızlarla birgə hind kinolarına tamaşasından sonra yaranmışdı. Sürəyya Natiqi hind kinolarındakı oğlanlara bəzətmiş və bir könüldən min könülə Natiqə

vurulmuşdu. Natiqə olan sevgisini qəlbinin dərinliklərində qoruyub saxlayırdı. Hər dəfə Natiqi görcək hallanırdı. İndi onun qəlbində qoruyub saxladığı pak və ülvi məhəbbbət xəyaldan reallığa çevrilmişdi. Süreyya bütün gecəni qıvrılaraq, ancaq Natiqi düşünürdü. Bütün gecəsini yerində vurnuxan Süreyya, səhərini yarıyuxulu açıb tez pəncərəyə baxdı. Natiqin işə gedən yolu onun pəncərəsindən çox yaxşı görünürdü. Anasının verdiyi səhər yeməyindən bir tikə pendir tutan və bir stəkan çay içən Süreyya bir gözü pəncərədə kitablarını yır-yığış edirdi ki, Natiqin tələsən yerişini görüb uçundu. Qəlbindən bir duyğu keçdi. Həyatımın mənası işə gedir. Çantasını götürməkdə belə çətinlik hiss etdi. Bütün əzaları, əlləri tir-tir əsirdi. Həyəcan o qədər yüksək idi ki, otaq qapısını bağlamaqda belə çətinliyə düşmüş oldu.

Bütün gecəsini Süreyya ilə xəyali danışan Natiq işinə tələsirdiİ. Ona yaxşı yol deyib arxasınca su atan anasına işdən gec gələcəyini bildirmişdi. İşə gecikməmək üçün Natiq tələsik addımlarla yola düşsə də ayaqları sözünə baxmırdı. Süreyyagilin yaşadığı binadan keçəndə həyəcanlı olduğunu və ayaqlarının bir-birinə dolaşdığını hiss etdi. Süreyya yaşayan binaya göz gəzdirməyə çalışsa da vüqarlı olaraq bu hərəkətini sevən ürəyinə sığışdırmadı. İş müddətində də beyni sevgi dumanı ilə büründüyündən tez-tez səhvlərə yol verirdi. İş yoldaşları onun həyəcanlı halını görsələr də üz vurmadılar. Natiq beynində Ağcaqayın ağacını, görüşə gələcək ilk sevgili-

sini çək-çevir edərək Sürəyya ilə münasibətlərin hansı formada keçəcəyini düşünürdü. Nəhayət ki, iş sona çatdı. Natiq tələm-tələsik iş paltarını dolaba yığıb təmiz paltarını əyninə taxaraq Ağcaqayın ağacı deyib yola düşdü. O, həyəcanlı olaraq görüşə tələsirdi. Bir az aralıda Ağcaqayın ağacının yarpaqları Kür çayının mehindən aram-aram tərpənirdi. Artıq çata-çatda idi ki, Sürəyyanın ağac kölgəliyində var-gəl etdiyini görüb, gözünə inanmadı. Özünü məzəmətlədi. Gərək mən birinci görüşə gələydim. Bu işin məsuliyyətindən də qurtarmaq olmur. İlahi Sürəyya nə qədər gözəl idi. Onun gözəlliyi sanki təbiətlə həmahəng idi. Ürəyi yerindən çıxacaq qədər həyacanlı olan Natiq sevgilisinə yetişib üzr istədi. İşinin məsuliyyətli olduğunu bildirəndən sonra, dedi ki, gərək mən birinci olaraq görüşə gəlib sənin yolunu həsrətlə gözləyəydim. Natiqin səmimiliyi, məsuliyyətli olmağı və vüqarlı baxışı Sürəyyanı valeh etmişdi. Bir dəfə böyük qardaşına atasının olan nəsihətindən eşitmişdi ki, kişi nə qədər məsuliyyətli, səmimi olsa ailəsinin əziyyətini çəkməyi bacarıb onları xoşbəxtliyə çatdıra bilər. İndi Sürəyya Natiqin gözündəki dərinliyə baxıb həm sevgisini tapdığını, həm də kişi qeyrətli bir cavanla münasibətdə olduğunu biləndən sonra özünü xoşbəxtlərin xoşbəxti hesab etdi. Həyatda az danışmağın ismət qədər abırlı olduğunu anasından duyan Sürəyya utancaq və həyacanlı olaraq Natiqə bildirdi ki, o anasından bir saatlıq bir iş üçün icazə aldığından vax-

tında evə getməlidir. Natiq Sürəyyanın məsuliyyətini öz məsuliyyəti kimi qəbul etdiyindən ərz etdi ki, bir dəqiqəlik belə görüşümüz baş tutubsa mən çox xoşbəxtəm. Əsas odur ki, bizim ilk ülvi sevgimizin şahidi Ağcaqayın ağacıdır. Beləcə sevgililər əyani tanışlığa keçdilər. Sürəyya atasının işi ilə əlaqədar olaraq Tovuzdan Mingəçevir şəhərinə köçdüklərini və hal hazırda orta məktəbin yeddinci sinifində təhsil aldığını Natiqə ərz etdi. Natiq DRES-də qaynaqçı olaraq işlədiyini və yəqin ki, on səkgiz yaş tamamında hərbi xidmətə gedəcəyini açıqladı. Sürəyya hərbi xidmət adını eşitcək, hallandı. Bir az xəyala dalıb gövrək bir tonda dedi ki, heç ayrılıqdan xoşlanmır. Az vaxt deyildi. İki il Natiqsiz o necə dözəcəkdi! Natiq, Sürəyyanın dolmuş gözlərini əli ilə silib bildirdi ki, iki il nədir ey, papağını fırlat gəlib keçir. Bir də ki, bu dəqiqə məni əsgər aparmırlar ki? Hələ əsgər vaxtına bir neçə ay var. Biz bu müddətdə sevgimizə şahidlik edən bu Ağcaqayın ağacının altında əhdi-peyman bağlayacağıq. Mən hara getsəm belə sənə olan sevgimi heç vaxt unutmayacam. Sürəyya Natiqə qəlbi qədər inandığını deyib sevincli olaraq bildirdi ki, gəl bizim sevgimizə şahidlik edən Ağcaqayın ağacının yanında əhdi peyman bağlayıb söz verək ki, nə olsa belə biz sevgimizdən dönməyəcəyik. Beləcə Natiq və Sürəyya əllərini birləşdirib ağaca söykəyərək and içib, əhdi-peyman bağladılar. Sürəyyanın bir saat icazə vaxtı tamam

olmuşdu deyən, iki sevənlər yeni görüşə qədər vidalaşıb ayrıldılar.

Dursun ana oğlunun işdən gec gələcəyini özündən eşitsə də Natiqin gec gələcəyini dünənki şən hal-əhvaldan anlamışdı. Dursun ananın anlamına görə yeniyetmə oğlu yəqin ki, sevgi məcarasına düçar olub. Səlim kişi evdə olmadığından beynindəki darıxdırıcı fikirlər özü də anlamadan onu həyacanlandırırdı. Natiqin dünənki davranışlarının xeyirli olacağına əmin olan Dursun ana, hətta oğlu üçün əla şam yeməyi də hazırlamışdı. Ananın gözləri yol çəkirdi. Hərdən pəncərədən Natiq gələcək yola baxaraq səbirsizləşirdi. Nəhayət ki, ana intizarına son qoyan öğul qapını astaca açaraq otağa daxil oldu. Natiqin üz-gözündən təbəssüm yağırdı. Ayaqqabısını çıxardıb şəpisini ayağına keçirənə qədər Dursun ananın səbri partladı:-ay bala, de görüm bu günkü işin necə keçdi? Anasının həyacanlı baxışlarına ani nəzər yetirən Natiq özlüyündə fikirləşdi ki, anası onun şən əhvalından nəsə anlayıb. Anasını qucaqlayıb bağrına basan Natiq elə sevincək olaraq, sanki kiminsə eşitməməsini istəmirmiş kimi qulağına pıçıldadı:-hər şey yaxşıdır ana! Bu günüm elə yaxşı keçib ki, sevincimin həddi-hüdudu yoxdur. Həyacanlı ana ürəyi sanki yerinə düşdü və ana oğlunun sevincini pıçıltılarla eşitdiyindən daxilən anladı ki, oğlunun ilk sevgisi ona şənlik əhvalı gətirib. Ancaq, ana-bala münasibəti pərdəli olduğundan hisslər qəlblərdə qalmış oldu. Natiqin sevgi his-

si, ananın həyacanlı anlama hissi qəlblərə istilik vermiş oldu ki, şam yeməyi də bu hisslərə toxluq gətirdi.

Keçən görüşdən iki gün keçməmiş sevgililər əhdi-peyman ağacı altında yeni görüşə tələsdilər. Natiq sevgilisini qabaqlayaraq Ağcaqayın ağacı səmtinə doğru addımlayırdı. Ağacın kölgəliyində kimsə görsənmirdi. Əhdi-peyman ağacına yaxınlaşan Natiq şükr etdi ki, görüşə o birinci gəlib və sevgilisini intizarda qoymayacaq. O, həyacanlı olaraq Sürəyyanı gözləyirdi. Sevgi dolu gözləri yol çəkirdi. Birdən yadına düşdü ki, əgər əhdi-peymana şahidlik edən ağaca özünün və sevgilisinin adlarının başlıqlarını həkk etsə, sevgilisinə əsil sürpriz etmiş olar. Tez bıçağını cibindən çıxarıb Ağcaqayın ağacının gövdəsinə "N +S" ad başlıqlarını həkk etdi. Yaralanmış ağacdan şəffaf su sellənmiş oldu. Natiq onların ilk sevgisinə şahidlik edən dilsiz-ağızsız ağacın göz yaşlarına dözməyib kövrəldi. Ağacın gövdəsini qucaqlayıb öz göz yaşlarını şahid ağacın göz yaşlarına qovuşdurdu. Sakitcə əhdi-peyman ağacına yaxınlaşan Sürəyya Natiqin ağacla olan ünsiyyətini görüb həyacanlı olaraq soruşdu:-Natiq, həyatım mənim, nədən belə qəmginsən? Mənim gecikməyim səni incitmiş olmasın ha? ! Natiq sevgilisinin şirin ləhcəli sualını eşidib, onun ona uzanmış olan əllərini titrəyən qəlbinə sıxaraq, kövrək səslə etdiyi sevgi sürpirizini ona göstərdi. İki sevən gəncin birləşməsini özündə əks etdirən qəlbi yaralanmış ağacın sellənən yaşını görən Sürəyya kövrək qəlbli Natiqi qu-

caqladı. Ürəyinin başında saxladığı qırmızılı-sarılı dəsmalı ilə Natiqin gözlərindən axıb sifətində muncuqlanan göz yaşlarını silərək özü də kövrəldi. Sevən qəlbinin hökmü ilə ağacdan axan yaşları dəsmalına hopdurub öz göz yaşlarına qovuşdurdu. Sonra dəsmalı iki gəncin sevgi şahidi olaraq özündə əbədi saxlayacağına and içdi. Natiq Sürəyyanın həyəcandan titrəyən əllərini əlinə alıb xəyallandı. O, böyüklərdən dəsmalın ayrılıq rəmzi olduğunu çox eşitmişdi. Odur ki, ayrı düşəcəklərini hifz edirmiş kimi suallandı. Əzizim, dəsmalın ayrılıq əlaməti olduğunu eşitmisənmi? Sürəyya gülümsəndi. Narahat olmağa dəyməz, əzizim. Bu dəsmalın çox olsa iki illik ayrılığı var. Mən bu ayrılığa dözəcəm. Sən hərbi xidmətdən qayıtdıqdan sonra mən bu dəsmalı sevgimizin möhkəmliyi rəmzi olaraq sənə bağışlayacam. Çünki, mən öz sevgimi sənin timsalında tapmışam. Sevgililər göz-gözə baxışlandılar. Bu baxışları ilə Sürəyya sanki Natiqə demək istəyirdi ki, onun qeyrətli, qürurlu və cevgisinə sadiq bir cavan olduğunu çoxdan kəşf edib. Məhz ona görə də, görüşə gec gəlməsindən heç də narahat deyil. Bir sevgili xanım olaraq istərdim ki, mənim də intizarımı çəkəcək igid bir intizarçım olsun. Vüqarlı, dəyanətli! Natiq Sürəyyanın ağıllı fikirlərindən həm xoşallandı, həm də qürurlandı. Əlbəətə, əzizim düz buyurursan. Mən çox şadam ki, sən bizim qəlbimizi titrədən sevgimizi sanki ağıl süzgəcindən keçirirsən. Sevgililər xeyli söhbət edib ayrıldılar. Beləcə Natiq-

Sürəyya görüşü bir neçə ay davam etdi. Axırıncı görüşündə Natiq hərbi xidmətə çağırış vərəqəsini Sürəyaya göstərib onun göz yaşlarına səbəb oldu. Natiq də, sevgi həsrətinin gətirəcəyi ayrılığı dərk edib doluxsundu. Bu göz yaşları bir-birini dəlicəsinə sevən gənclərin qəlblərinə əbədi hakim kəsildi. Onlar qəti qərar verdilər ki,gözlə görünməyən,beyinlə düşünülməyən hadisələr baş versə belə onlar bu sevgidən heç vaxt vaz keçməyəcəklər. Natiq hərbi xidmət müddətində sevgili məktublarını əqidə dostunun vasitəsi ilə ona çatdırılacağını bildirdi. Ayrılıq məqamı çatdığından sevgililərin gözləri doldu. Gözlərdən qopan yaş damçıları iki sevgilinin iki illik vidası oldu.

Hərbi çağırışçılar hərbi komissarlığın qarşısında dayanmış avtobusla yola düşməli idilər. Ailəsi ilə sağollaşan Natiqi dostları, iş yoldaşları təntənə ilə hərbi xidmətə yola salırdılar. Bir azdan avtobus yerindən tərpəndi. Avtobusdan boylanan gənc çağırışçıların onları yola salan valideyin və dostlarla əl yelləmələri iki illik hərbi xidmətin təntənəli vidalaşması idi. Avtobus Sürəyya gilin binasına yaxın keçirdi. Natiq sevgilisini görmək üçün avtobus pəncərəsindən boylandı. Hə, o idi Sürəyya. Əlindəki qırmızılı-sarılı dəsmalı yellədən sevgilisi onunla vidalaşırdı. Avtobus sola çönəndə artıq, Sürəyya gilin binası görünməz olmuşdu. Sevgi həsrətinə dözməyən Natiqin gözündən iki damcı yaş görsəndi. Qəhər boğazını qurutmuşdu. Udqundu. Qəhərini boğdu. Gö-

zünün qabağına qırmızı-sarı sevgili dəsmalı gəldi. Sanki, dəsmal Sürəyyanın xəyalı əli ilə onun sevgidən doğan göz yaşlarını qurutmuş oldu.

Müxtəlif millətlərin nümayəndələri ilə bahəm Natiq Krasnoyarsk vilayətinin daxili qoşunlarında hərbi xidmətə başladı. Bir aylıq karantin dövründə hərbi təlimat alan Natiq silahlarla davranma və nişangah qabiliyyətini əxz edib, hərbi rəhbərliyin hörmətini qazandı. Nişangahda peşəkarlıq göstərməsi hərbi rəhbərliyin gözündən qaçmamış və onu iki qaş arasından güllə keçirən nişançı olaraq tərifə layiq görmüşdülər. Nişangahda olan hərbi xidmətçilər arasında Vartan adlı erməni də nişangahda az-çox fərqlənmişdi. O, Natiqin nişangah qələbəsini görüb bu dəqiq və sərrast atəşli Azərbaycanlını təbrik etməyi unutmadı.Münasibətlər dostyana idi. Vartan Natiqə milliyətcə erməni olsa da Azərbaycan məhəlləsində böyüdüyünü danışırdı. Söhbət əsnasında Natiqə ərz edirdi ki, onlar kasıbçılıqla yaşasalar da Azərbaycanlılar onlara əl tutub, dar günlərində köməklərini əsirgəmiyiblər. Vartan öz keçmişini Natiqə danışsa da, Natiqin xəyalında döğma torpaqlarından qovulmuş Azərbaycanlıların köçkün həyatı canlanmışdı. Bunu hiss edən Vartan Natiqin baxışlarından anlamışdı ki, erməni millətçilərinin Azərbaycanlıları didərgin salması görünür Natiqdə hələ də təsirini itirməyib. Vartan çalışırdı ki, milli münaqişədən asılı olmayaraq Natiqlə dostluq əlaqələri qura bilsin. Vartan öz millətinin Azər-

baycanlılara qarşı olan qeyri insani münasibətini pisləyir və bu millətçi hərəkətlərdən əzab çəkməsini ona agah edirdi. Vartan danışırdı ki, Azərbaycanlılar çox yaxşı insanlardır. Heç vaxt Minarə xalanı unuda bilmirəm, -deyə o keçmişindən danışaraq Natiqin gözündə bir insan olaraq böyümək istəyirdi. Təndirin isti çörəyinə yağ-pendir qoyub ac vaxtımda qarnımı doyuzduran Minarə xala idi. Hələ isti və ətirli təndir pətirindən danışmıram. İlahi necə də ətirli və dadlı pətirlər idi. Mən ömrümdə belə ətirli pətiri öz erməni millətimdə görməmişəm. Natiq erməni Vartanın milli aksentini nəzərə almadan onun Azərbaycan dilində belə təmiz danışığından anlayırdı ki, o doğurdan da Azərbaycanlılar əhatəsində böyümüş və millətçilik hisslərindən uzaq olan bir gəncdir. Sonralar Vartan hərbi rəhbərlik tərəfindən digər bir sahəyə göndərildiyindən Natiqlə hörmətlə vidalaşıb ayrıldılar və bir daha görüşmək imkanına malik olmadılar. Natiqin ilk hərbi xidməti cinayətkarların məskunlaşdığı koloniya idi. O, koloniyada qüllədə postda dayanıb təhlükəsizliyə nəzarət edirdi. Natiqin posta dayandığı dörd metrlik qüllə bir tərəfdən beş metrə yaxın taxta və tikanlı məftillə əhatə olunmuş qoruyucu hissədən ibarət idi. Digər tərəfdən bu beş metrlik qoruyucu hissə ilə üç metr aralıda cinayətkar zonasını qoruyan tikanlı çəpərlərin arasında onun post qülləsi yerləşirdi. Koloniyanın ayrıca bir hissəsində yenicə məhkum olunmuşların karantini keçirilirdi ki, buraya da karantin

zonası deyilirdi. Karantin zonasında əsasən yenicə məhkumluğa gəlmişlər fiziki və mənəvi yoxlamalardan sonra zonada otryadlara təhkim olunub məhkumluq dövrünü keçirirdilər. Zona isə iki hissədən ibarət idi. Bir hissəsində cəza çəkənlərin iki mərtəbəli yaşayış kazarmaları, digər hissəsində isə məhkumların əmək fəaliyyəti göstərdiyi böyük obyektlər gözə dəyirdi. Natiqin postda dayandığı qüllə məhkumların yaşayış massivinə çox yaxın olduğundan məhkumların danışıqları aydınca hiss olunurdu. Məhkumlar arasında müxtəlif millətlərin nümayəndələri cəza çəkirdi. Daha çoxluq təşkil edən sarı və ağ bənizlilərin içərisində Qafqaz simalı məhkumlar da gözə dəyirdi. Ən çox Qafqaz simalı məhkumlar postda dayanmış Qafqazlı balası Natiqə müxtəlif mövzulu suallar yağdırırdılar. Bəzən şirin dillərini işə salıb siqaret istəsələr də, Natiqin siqaret çəkmədiyini öyrənəndə təəssüflənirdilər. Natiq hərbi xidmətin qanunlarına riayət edərək susmağa üstünlük verirdi. Natiq bir ildən bir az müddətdə post xidmətində qulluq etdikdən sonra,başqa bir sahəyə göndərildi. Natiqi məhkumların konvoyunda onları cəza çəkmə müəssisəsindən bir az aralı təssərrüfat işlərinə aparılmasına təhkim etdilər. Bu məhkumlar yüngül cəza almışlar sayıldığından təhlükəli sayılmırdılar. Belə məhkumlar hərbçilərlə yaxşı münasibət qurmağa çalışır, hətta zarafata da yol verirdilər.  Natiq azadlığın qədrini bilməyib müxtəlif cinayət pozuntusuna yol vermiş məhkumlara qarşı qaş-

qabaqlı olardı. Məhkumlar içərisində ev oğrusu kimi tanınan Samvel adlı erməni xoşagəlməz suallar yağdırsa da Natiq onunla daha qaşqabaqlı olardı. Bu sırtıq erməni dığası hərbçi Natiqin Azərbaycanlı olduğunu bildiyindən milli heysiyyətə toxunan alçaldıcı ifadələrə yol verərək onun əsəblərini tarımlaşdırırdı. Natiq bu vicdansız erməni məhkuma diqqət verməzdi. Lakin, günlərin birində məhkum Samvel ermənilərin igidliyindən dəm vuraraq öz doğma torpaqlarını qoyub köçkünçülüyə yol vermiş Azərbaycanlıların qorxaqlığından dəm vurdu ki, Natiq bu haqsızlığı uda bilmədi. Natiq avtomatın lüləsini bu axmaq və həddini aşmış məhkuma tuşlayanda qorxudan əsməcə tutmuş erməninin şalvarını islatmasını görüb uğundu. Məhkumlardan da istehzalı gülüş qopdu. Natiq erməni həyasıza yetərli bir söz dedi:-dediyin o igid ermənilər sənin kimi şalvarın isladanlarmış,ə abləh haykanuş! Natiqin bu təsiredici sözlərini eşidən konvoy komandiri, milliyətcə özbək olan praporşik İslam əlini fəxrlə Natiqin çiyninə qoyub yavaşca pıçıldadı ki, bu iş verən erməni sırtığından uzaq olmaq məsləhətdi. Hərbi xidmət dövründə Azərbaycanda baş verən xoşagəlməz hadisələr Natiqi elə sarsıtmışdı ki, tezliklə hərbi xidmətin sonlanmasını arzulayırdı. Natiqi ən çox narahat edən qanlı 20 yanvar hadisələri idi. Milli azadlığı uğrunda dinc nümayişə qalxmış Azərbaycanlıların Sovet ordusu tərəfindən güllləbaran edilməsini, tankların hətta insanları atəşə tutmasını, maşın-

ların azadlıq carçılarının üstündən vəhşicəsinə keçməsini qəbul etmirdi. Natiq öz-özünə suallar verərək əsəblərini cilovlaya bilmirdi. Necə yəni, mən Sovet ordusunun əsgəri olduğum halda mənim xalqımı mundirini daşıdığım Sovet ordusu güllləbaran edib, yüzlərlə dinc insanları qətlə yetirməlidir? ! O,  hər dəfə dinc insanların qanı ilə ləkələnmiş Sovet ordusu mundirini əyninə taxanda vicdan əzabı çəkirdi. Natiq düşündüklərini dilinə gətirə bilməzdi. Xalqını günahsız olaraq güllləbaran edən bu Sovet ordusu onu məhkumluğa göndərə bilərdi. 20 yanvar qırğınından təsirlənmiş praporşik İslam Natiqin bu hadisədən necə təsirləndiyini görüb ona baş sağlığı vermişdi. Natiq hərbi xidmətinin sonlanmasını səbirsizliklə gözləyirdi. Nəhayət belə bir gün gəlib çatdı. Hərbi xidmətdən tərxis olunmaq haqqında komandirdən hərbi biletini alan Natiq, hərbi xidmət dövründə qardaşlaşdığı proparşik İslamla xudafizləşmək üçün onu axtardı. Dostlar görüşüb ayrılarkən ona uğurlu yol arzulayan İslam heç kimin eşidə bilməyəcəyi halda qulağına pıçıldadı ki, mən raport yazıb hərbi xidmətdən uzaqlaşmalı olacam. Qardaşım hər kəsə öz vətəni! Natiq İslamın pıçıltılarını razılıq hissi ilə qarşılayıb ona təbəssüm göstərərək xudahafizləşdi.

Hərbi xidmətini başa vurub doğma Mingəçevirinə qayıdan və ailəsinə qovuşan Natiq tanışları, iş yoldaşları ilə görüşüb sevincləndi. Doğmaları ilə şən vaxtlar keçirən Natiqin beynində və ürəyində Sürəyya vurğula-

nırdı. O bilirdi ki, onun əsgərlikdən qayıtmasını sevgilisi bilməmiş olmaz. Odur ki, asudə vaxt tapıb sevgilisi ilə əhdi peyman bağladığı ağcaqayın ağacına doğru tələsdi. O, Ağcaqayın görüşlərini xatırlayaraq gözləri ilə ağac kölgəsində sevgilisini aramağa başladı. Hə o idi, Sürəyya! O, ağac kölgəliyində var gəl edərək iki illik ayrılıqdan sonra sevgilisinin yolunu gözləyirdi. Natiq isə iki illik həsrətlə ürəyində bəslədiyi sevgilisini bağrına basmaq üçün ağaca tərəf götürülmüşdü. Nəhayət, iki illik həsrətə sonluq verən iki ürəklərin çırpıntıları, sevgililərin qəlb və baxış təmasları, sarmaşıq kimi bir-birlərinə sarılmaları və sevincdən doğan göz yaşları sevənlərin qovuşmaq marşını çalmış oldu. Sürəyya ürəyinin başında saxladığı qırmızı-sarı dəsmalı çıxardıb sevgi həsrətindən doğan göz yaşlarını dəsmala hopdurdu. Sürəyya Natiqin ayrılıq kimi qəbul etdiyi dəsmalı ona göstərərək iki illik ayrılığın şahidi olan dəsmalı əbədi sevgi nişanəsi olaraq Natiqə bağışladı. Natiq dəsmalı sevgilisindən alıb sevən ürəyinin başında yerləşən cibinə qoydu. Sevgililər göz-gözə söhbətləşib iki illik ayrılığın acısını çıxardaraq xoşbəxt olacaqlarından məmnun oldular. Sevgililərin baxzışları və bu baxışların qəlbləri titrədən ünsiyətindən sonra Natiq Sürəyyanı agah etdi ki, o daha ayrılığa tab gətirə bilmir. Odur ki, anası ilə danışıb onu qaçırdaraq ailə qurmuş olacaq. Natiq sevgilisinə onu da bildirdi ki, ona bir az vaxt lazımdır ki, beş-altı manat pul qazanıb toy edə bilsin. İstəməzdim ki, toy

xərcini valideyinlərim çəkib gücə düşsünlər. Natiqin son fikiri ilə razılaşan Sürəyya da öz növbəsində Natiqi agahladı ki, o hələ orta məktəbi bitirməyib və ailə qurmaq həddi-buluğuna da çatmayıb. Sən toy xərcini qazanınca mən də həddi-buluq yaşına çataram, inşallah! Səninlə ailə quracağıma əminəm. Çünki, biz bir-birimizi sevirik və bu sevgimiz möhkəm tellərlə bir-birinə bağlıdır. Axşama yaxın sevgili cavanlar görüşlərinə yekun vurub ayrıldılar.

Natiq bir neçə gün dincəldikdən sonra hərbi xidmətdən əvvəl işlədiyi DRES-də əmək fəaliyyətinə başladı. Bu o vaxtlar idi ki, azğınlaşmış ermənilər Naxçıvan istiqamətində Kərki kəndini, Qazax istiqamətində isə Bağanis Ayrım kəndini işğal edib, yeni kəndləri ələ keçirməyə başlamışdılar. Ermənilər Laçın istiqamətində hucuma keçməyi planlaşdırırdılar. Azğınlaşmış erməni işğalçılarının qarşısını almaq üçün Azərbaycanın vətənpərvər oğulları könüllü hərbi dəstələrə qoşulurdular. Artıq 1991-ci ilin dekabrında Qarabağın ürəyi olan Xankəndinin işğalından sonra könüllü hərbi birləşmələrə qoşulan cavanların sayı artmışdı. Natiqin bir neçə dostu –tanışı könüllü hərbi birləşmələrə qoşularaq vətəni dar günündə qorumağın vacib olduğunu vurğulayırdılar. Natiq də gözləmə mövqeyində olmayıb xalq arasında Ala Yaqub kimi tanınan Yaqub Rzayevin yaratdığı "Qarabağ şahinləri" könüllü hərbi dəstəsinə qoşuldu. Komandirinin bir neçə tapşırıqlarını vaxtında yerinə yeti-

rən Natiq və könüllü döyüşçülər döyüşün bütün vaxtlarında fərqlənməyə başladılar. Dağların soyuq havasını nəzərə alan könüllü hərbi dəstənin əsgərləri kimi, Natiq də silah-sursatın göz bəbəyi kimi qorunması xatirinə ara-sıra evə gələ bilirdi. Belə vaxtlarda sevgilisi Sürəyya ilə görüşən Natiq ailə qurmaq fikrinin qətiliyini Sürəyyaya bildirdi. Sürəyya Natiqi dəlicəsinə sevdiyindən razılıq əlaməti olaraq yüngülcə çiyinlərini dartdı. Natiq sevgilisi ilə görüşdən ayrıldıqdan sonra evə qayıdıb mehribancasına anası Dursunla bu barədə danışdı. Oğlunun Sürəyyaya olan məhəbbətindən xəbərdar olan ana bildirdi ki, oğlum bu izdivacın baş tutması hələ tezdir. Anasını dilə tutan Natiq şirin dilini işə salıb qızı qaçırtmaq fikrini söyləsə də, ana Dursun qızın həddi-buluğa çatmadığını deyib əlavə etdi ki, qızı qaçırtmış olsan səni qanunu pozduğuna görə tutarlar. Bir az səbrin olsun, qız qaçmır ki! Vaxtı gələndə evlənəcəksən. Özü də sən tez-tez cəbhəyə gedirsən. Heç olmasa bu erməni həyasızlığına son qoyulsaydı dərd yarısı olardı. Anasının bitgin söhbəti ilə razılaşan Natiq sevgilisi ilə birləşmək fikirinə ara vermiş oldu.

Gecə yarısı, fevral ayının iyirmi beşindən iyirmi altısına keçən gecə qəflətən Xocalıya hucuma keçən erməni-rus birləşməsi olan 366-cı motoatıcı alay Xocalılara qarşı qətliama keçdilər. Dinc sakinləri süngüdən keçirib, xeyli insanları əsir götürdülər. Qaçaraq canını qurtarmaq istəyənləri dağ və meşələrdə gülləbaran etdilər.

Hələ dünya tarixi belə bir soyqırım görməmişdi. Nə qədər vəhşilik olarmış, ilahi! İnsanları, ən çox yaşlıları, uşaqları süngülərlə deşik-deşik edən bu millətçilər yırtıcı heyvanlardan da betərmiş. Natiq bu qətliama dözə bilmədi. Dağlar soyuq və palçıqlı olduğundan atasının idman paltarını və rezin sapoğunu geyərək silahlarını götürüb bir məktub yazdı:-"Qarabağda xalqımın qırıldığı, ana-bacılarımızın namusunun tapdalandığı bir vaxtda mən evdə rahat otura bilmərəm. "Məktubu masanın süfrə altına qoyub, valideyinlərinə bildirmədən azğın düşmənlə vuruşmaq üçün "Qarabağ Şahinləri" könüllü dəstəsinə yola düşdü. Natiq bu dəstənin tərkibində Əsgəran, Xanabad, Xramort ərazilərinin düşmənlərdən təmizlənməsində fəal iştirak etmişdi. Düşmənə aman verməyən "Qarabağ şahinləri" könüllü hərbi dəstəsi düşmənlə üzbəüz döyüşlərdə əsil qəhrəmanlıq nümunəsi göstərirdilər. Bir neçə dəfə erməni quldurlarını pusquya salıb məhv edən dəstə içərisində Natiq təmkinliliyi, düşmənə olan nifrəti və bir güllə ilə düşmən döyüşçüsünü yerə sərməsi ilə dəstədə fərqlənirdi. O, komandir tərəfindən verilən tapşırıqları vaxtında həll etməyi bacaran döyüşçü idi. Əsgəran yaxınlığında dəstəni hərəkət etməyə imkan verməyən erməni pulyamotçusunu bir güllə ilə iki qaş arasından vurmaqla hucumun baş tutmasına nail olmuşdu. Dəstə hər dəfə düşmənlə vuruşa gedəndə Natiqin bacarığına inamlı olan komandir Yaqub çox hallarda dəstəyə nəzarət etməyi ona tapşırırdı.

Natiq düşmən qarşısından döyüş vaxtı qaçmayan və silahla bacarıqlı istifadə etməyi bacaran döyüşçü idi. Komandir Yaqub qəti bilirdi ki, Natiq boş yerə güllə sərf edən deyil. Onun hər atışında bir canlı düşmən döyüşçüsü cəhənnəmə vasil olurdu. Komandir Yaqub, Natiqin bir igid döyüşçü olaraq yüksək keyfiyyətini Xanabad döyüşlərində görmüşdü.

1992-ci il fevralın axırı mart ayının əvvəli ərəfəsi idi. "Qarabağ şahinləri" könüllü hərbi dəstəsi yeni tapşırıq almışdı. Xramort kəndi yaxınlığındakı hərbi əhəmiyyətə malik yüksəklik düşmənlərdən təmizlənib ələ keçirilməli idi. Bu yüksəklikdən istifadə edən düşmən sağ tərəfdən Ağdamı, sol tərəfdən isə Əsgəran və Xocalını nəzarətdə saxlayaraq Azərbaycan döyüşçülərinin hərəkətlərinə nəzarət edə bilirdilər. Komandirin tapşırığı ilə otuz bir nəfərdən ibarət döyüşçü erməni yaraqlılarını məhv etmək üçün qeyri-bərabər döyüşə atılacaqlarını və qələbə əldə edəcəklərinə inam bəsləyirdilər. Məhz bu inamın nəticəsi idi ki, Natiq Xramort kəndinin məktəbində dalğalanan Azərbaycan bayrağını özü ilə götürmüşdü. Məqsədi düşmənə qalib gəlib vətən bayrağını yüksəklikdə dalğalandırmaq idi. Bu qeyri-bərabər döyüşdə düşmənlə qəhrəmancasına vuruşan könüllülər vətən naminə canlarını fəda edirlər. Yeddi nəfərdən ibarət olan döyüşçülər döyüşə-döyüşə gəlib strateji əhəmiyyət kəsb edən Alban piri məbədində möhkəmlənirlər. Bu yeddi döyüşçü Alban piri məbədində düşmənə

qan udduraraq güclü müdafiə qurub müqavimət göstərirlər. Döyüşçülərdən bir neçəsi Ağdama açıq olan yolla kömək gətirmək yola düşürlər. Ağdama kömək üçün getmiş döyüşçü yoldaşlarından kömək gözləsələr də kömək gəlmir. Döyüşçülər dəfələrlə hucuma keçən erməni quldurlarına itgi verdirərək geri çəkilməyə məcbur edirlər. Düşmən çoxluğu əhatəsində vuruşan döyüşçülər həlak olurlar. Natiq çoxluq təşkil edən düşmən döyüşçüləri ilə təkbaşına vuruşmalı olur. O, həlak olmuş döyüşçü dostlarının silahlarından istifadə edərək düşmənləri yaxınlığa buraxmır. Hər hucumda düşmənlər itgi verərək geri çəkilməli olurlar. Natiqin hər pəncərədən yaxud, qapıdan dayanmadan düşməni güllələbaran etməsi ermənilərdə təşviş yaradır. Onlar dəhşətə gəlirlər ki, bu bir batalyon dəstə ilə vuruşmaqda aciz qalıblar. Əslində bu bədbəxt döyüşçülər ağıllarına belə sığışdıra bilmirlər ki, onlarla döyüşü aparan batalyon yox, tək bir nəfərdir. Erməni quldurları müxtəlif yollarla kilsənin içərisinə göz yaşardıcı, yaxud kimyəvi tərkibli qranatlar, qumbaralar atsalar da istədikləini əldə etməyib geri çəkilməli olurlar. Ermənilər dəhşətə gəlirdilər ki, onların kilsəyə atdıqları qranatlar,yaxud qumbaralar yenidən onların təpəsində partlayır. Natiq hələ hərbi xidmət dövründə bu silahlarla necə rəftar etməyi dərindən əxz etmişdi. O, pirin bir küncündə barmaqları yara olaraq yalın əlləri ilə çuxur qazıb kimyəvi və gözyaşardıcı qranat-qumbaraların təsirindən qurtula bilirdi. O,

Alban pirində döyüş zamanı vətən bayrağını dalğalandırarkən pir bacasının balaca deşiyini yekəldərək havalanmanı təmin etmişdi. Odur ki, ermənilərin kimyəvi qranat-qumbaralarının bəzisi partlayanda o çuxurda gizlənir, kimyəvi partlayıcının tüstü və kimyəvi zəhəri yuxarı qalxıb bacadan havaya sovrulurdu. Bəli, Natiqin döyüş taktikası bir batalyon təsəvvürünü yaratmaqla düşməni lərzəyə salırdı. Erməni quldurları əsasən gündüzlər işıqlı havada hucuma keçib itgi verir,gecəni sakitliklə başa vurmaqla kifayətlənirdilər. Gecə qaranlığında düşmən özündə hünər görmədiyi üçün döyüşə ara verməyi üstün tuturdular. Artıq bir neçə gün idi ki, Natiq təkbaşına, ac-susuz düşmənlə vuruşurdu. O, aclığını və susuzluğunu dəf etmək üçün divarın küncündəki torpaqda az-çox göyərti tapıb çeynəyirdi. Sakit gecə anlarında bacadan göyə baxıb onun döyüşünə şahidlik edən ulduzlara tamaşa edirdi. Ulduzlar sanki sıraya düzülüb quldur ermənilərin vəhşi yaşamını və gəldiyi torpaqda torpaq sahiblərini qətl etmələrinə şahidlik edirdilər. Bütün bu şahidliklə bərabər haqq uğrunda vuruşan Natiqə ürək-dirək verirdilər. Ulduzların çoxluğu Natiqə ümid verirdi. Ulduzların Natiqlə xəyali dialoqu yaranmışdı. Bu torpağa gəlmə olub, böyük dövlət yaratmaq eşqi ilə vəhşiliklər törədən erməni quldurlarının yeni torpaqlar ələ keçirmək üçün vuruşduqlarını, haqq yolunda vuruşan Natiqə təlqin edirdilər. Kökü-yeri bilinməyən bu millətin vəhşiliyindən danışan ulduzlar, haqq

uğrunda təkbaşına vuruşan Natiqlə bacarmadıqlarını ona nəzmlə çatdırırdılar:

Bu imiş hayların qüvvəti, gücü,
Şişirtmə onların qayəsi olmuş.
Bir arxı hoppanmayan "hay üzücü",
Dənizdən-dənizə hopa duruşmuş.

xxx

Bu nə millət imiş, hardan gəliblər,
Vətənsiz, torpaqsız dövlət qurublar.
Müsəlman qanına susan "səliblər",
Natiq torpağına hay doldurublar.

Natiq ulduzların haqdan doğan nəzmini eşidib duyğulandı. Gözlərini ona həyan olan ulduzlara tuşlayıb xitabən nəzmə çəkdi:

Bacadan baxıram, ulduzlar axır,
Hərəsi bir əsgər ümid verirlər.
Quldurlardan pirə güllələr yağır,
Natiq batalyonmuş haylar deyirlər.

xxx

Şahidim ulduzlar mənə güc verir,
Min hay belə, pirə hucum etsə də,
Çoxları gəbərir, ya qaçıb gedir,
Türk ölməz! Güllələr məni deşsə də.

Erməni daşnaklarının tarixinin şahidi olan ulduzlar haqq uğrunda döyüşən döyüşçü Natiqə ürək-dirək verməklə bərabər, ona erməni tarixinin uydurmalarından bəhs edib həqiqəti anladırdılar. Hətta, ulduzlar çox yaxşı bilirdilər ki, Natiqin savad aldığı SSRİ tarixi dərsliyi rus və erməni qardaşlığının birgə məhsuludur. Ermənilərin yalan olaraq uydurduqları qədim və böyük erməni tarixi əslində uydurmadır və belə bir erməni tarixi olmamışdır. Çünki, Natiqin haqq döyüşü apardığı Azərbaycan torpağına erməniləri ruslar gətirmiş və forpost bir ölkə yaradaraq maraqlarını güdmüşlər. Uydurulmuş erməni tarixi rus-erməni tarixçiləri tərəfindən qardaşlığının bariz nümunəsi kimi yaradılmışdır. Erməni-rus qardaşlığının birgə məhsulu olan SSRİ tarixindən Natiq bir məktəbli olaraq nə əxz edə bilərdi ki? ! Ulduzların diktəsindən əsil həqiqəti öyrənən Natiq vətənsiz ermənilərə kəskin nifrətini döyüşdə davam etdirir. Natiq inanırdı ki, düşmən gülləsləri onu dəlmə-deşik etsə belə o, türk olaraq ölməzdir. Həmişəki kimi gecələri sakitliklə keçirən erməni quldurları səhərin gözü açılmamış Alban pirinə güllələr yağdırmağa başladılar. Natiq həlak olmuş döyüşçü dostlarının silahlarından istifadə edərək hər pəncərəyə və qapı ağzına atıcı silah qoyaraq elə cəld vuruşurdu ki, ermənilər böyük bir dəstə ilə qarşılaşmış kimi ya gəbərirdilər, ya da geri çəkilirdilər. Erməni yaraqlıları qəflətən pəncərələrdən göz yaşardıcı, yaxud kimyəvi partlayıcılar atsalar

da, Natiq bir qartal balası olaraq onları göydə tutub, həmən ermənilərə ölüm ərməğanı göndərirdi. Bəzi hallarda partlayıcılardan qurtulmaq üçün dırnaqları ilə qazdığı çuxura üzü üstə düşüb kimyəvi zəhərdən, gözyaşardıcından özünü qoruya bilirdi. Yaxşı ki, pirin bacasını təpikləri ilə dağıdıb böyüdə bilmişdi. Çünki, partlayıcı maddələr bacadan havaya sovrulub Natiqə sağlamlıq ziyanı vermirdi. Erməni quldurlarının matı qurumuşdu. Necə olur ki, bizim atdığımız partlayıcılar yenidən dolu kimi üstümüzə gəlir? ! Görəsən kilsədə nə qədər türk var ki, bizə qan uddururlar? Demək olar ki, ölən və yaralanan ermənilər o qədər çox olurdu ki, qışqırtı-bağırtıdan, iniltidən qulaqlar tutulurdu. Bir də Alban pirinin yerləşdiyi coğrafi relyef o qədər əlverişli idi ki, erməni quldurları pirə nəinki daxil ola bilmirdilər, heç yaxınlığına belə gəlməyi bacarmırdılar. Artıq, dördüncü gün idi ki, Natiq ac-susuz vuruşurdu. Aclığını divarın gil topağından istifadə etməklə, susuzluğunu  isə küncdəki yaşıl otlarla öldürürdü. Hətta, gil suvağı divardan qoparıb mədə şirəsi ilə isladaraq toxtaqlıq tapan Natiq yaranmış reallığı qəbul edərək daxilən özlüyündə suallar yaradırdı:-biz məgər torpaqdan yaranmamışıq, deməli torpaqla da qidalanmaq olar? ! Natiq düşmən həmlələrinə təkbaşına cavab verməklə bərabər ümidini itirməyərək kömək göndərmək üçün getmiş əsgərlərin köməyə gələnlərlə birgə gələcəklərini hər an düşünsədə, heyhat dördüncü günü də köməyin gəlmədiyini görüb ruhdan

düşmədi. O, inanırdı ki, əgər kömək gətirməyə gedən döyüşçü yoldaşlara bir şey olmayıbsa, ya da yol erməni quldurları tərəfindən bağlanmayıbsa kömək mütləq gələcəkdir.

Dəfələrlə həmlə edib xeyli itgilər verən erməni quldurları qərargahlarında toplaşıb kilsəni necə azad etmək haqqında təkliflər irəli sürsələr də, qanedici bir nəticəyə gələ bilmirdilər. Erməni quldurları çox çənə döyüb belə qərara gəldilər ki, kilsədəki xeyli əsgərlərlə vuruşmaqda çətinliklər yaranıb. İtgilər də çoxdur. Mərkəzlə əlaqə saxlayıb yeni qüvvələr cəlb etməklə batalyondan çox olan türklərə qarşı böyük hucuma keçmək lazım gələcək. Belə yığıncaqların birində Ermənistandan Qarabağa türklərə qarşı vuruşmağa gəlmiş Karser adlı erməni,  komandiri və dostu Vitodan xahiş etdi ki, heç bir kömək üçün mərkəzə müraciət etmək lazım deyil. Mən azdan-çoxdan türkcə bilirəm. Mən kilsəyə gedib onları inandıra bilərəm ki, qəhrəman ermənilərlə vuruşmaq əbəsdir. Gəlin təslim olun, bunun əvəzində sizlərin sağ qalmağına zəmanət verə bilərik. Vito Karserə əyan etdi ki, sən onları təslim olmağa necə məcbur edə bilərsən? Onlar bir belə erməni igidlərini qətlə yetiriblər. Hətta, imkan tapıb ölənlərimizi döyüş meydanından çıxara bilmirik. Yaxınlaşan kimi düz təpədən güllə qoyurlar. Heç fikir vermisiiniz? !  Güllələr nə bədənə, nə qolçaya dəymir. Ölənlərin əksəri iki qaş arasında aldıqları güllə ilə məhv olublar. Vito can, başa düşürəm ey,-

deyən Karser xahişlə Vitoya yaxınlaşdı. Sən icazə ver mən gedim onları təslim olmağa məcbur edim. Karserin xahiş yalvarışına dözməyən Vito bağırdı, -əşi türklər təslim olmayacaqlar və sənin də kəllənə bir güllə vurub o biri dünyalıq edəcəklər. Mən istəmirəm ki, sən bir yaxşı döyüşçü olaraq heç nədən bir güllə ilə məhv olasan. Sən bizə döyüşdə çox lazımsan. Karser Vitodan əl çəkmirdi. Yalvarırdı ki, icazə versin o, təkcə gedib türkləri təslim olmağa məcbur edəcək. Nəhayət, Vito onun tərsliyini görüb təəssüflə bildirdi ki, sənin deyəsən əcəlin indi gəlib. Məndən olsa getməzsən. Əgər inadkarlıq edirsənsə iki döyüşçü götürüb gedə bilərsən. Ancaq, biləsən ki, kilsədə bizə qarşı müqavimət göstərən türklər bərk nişangahçıdılar. Çalış özünü və yoldaşlarını qoru. Karser ona təhkim olunmuş iki erməni döyüşçü ilə kolluqlarda və gövdəli ağaclarda gizlənə-gizlənə kilsəyə yaxınlaşdı. Xeyli götür-qoydan sonra yaraqlılara gözləmə təlimatı verib ağaclar arxasında gizlənməklə onu mühafizə etməyi tapşırdı. Karser kilsəyə yaxınlaşıb kolluqlar arasından başını qaldıraraq bağırdı:- ara, tork doyuşçular ha! Man Karser sızla sohbata qaldım ha. Demak istıram ki, taslim ola ha, sizə yaxşı ola. Biz qulla atmırıq. Sız da qulla atmayın. Biz istasaq kilsanı daqıda bilar. Sızı da oldura bila ha. İstamır. Sız taslim ola, yaxşı ola. Heç kim ölmaz. Na deyar siz torklar ha? Karser kolluqlar arasında daha sıx gizlənərək kilsədəki türklərdən cavab gözləməkdə idi. Natiq üç erməni yaraqlısının

gəlişini görmüşdü. Odur ki, nişangahda hazır vəziyyədə idi. İndiki halda erməni yaraqlısının təslimçilik bağırtısını eşidib bildirdi ki, təslim söhbəti ola bilməz. Mən siz quldurlarla nədən danışacam. Piri də dağıda bilməzsiniz. Bu axmaq düşüncəniz sizin ölümünüz demək olacaq. Yaxşısı budur ki, siz haylar bizim torpağımızdan rədd olub gedəsiniz. Erməni Karser bağırdı ki, ara musurman san  gormur kilsa da armani xaçi var. Torpaq da ha, bizim ola. Yaxşi ola sızlar taslim ola və saq ola. Biz oldurmaq sızı yok. Ha, indı na deyir? Natiq bu arada pəncərələrdə olan digər silahları ağac arxasında gizlənmiş digər iki yaraqlıya nişan edib dedi:-ay axmaq erməni görürsənmi Pirdə Azərbaycan bayrağı dalğalanır. İndi de görüm sənin kilsə adlandırdığın bu Pir kimindir?  Ara, bir da deyim ha,-deyə Karser bağırdı.Yaxşı olar, taslim olun geda ha. Natiq anladı ki, torpaq hərisi olan bu axmaq erməni elə torpağı əbədi qucaqlasa daha münasib olar. Karserin qaşları arasındakı alını nişana alıb tətiyi çəkdi. Bayaq əldən erməni Karserin axmaq və düşüncəsiz başı Azərbaycan torpağina ərməğan oldu. Al bu da sənə torpaq yemi, əbədi ye! Natiq ermənini cəhənnəmə vasil etdikdən sonra digər nişangaha gedib ağac arxasında məbədə güllə atan iki ermənidən birini yaralasa da, digəri siçan kimi sivişib kolluqda gözdən itdi. Düşməni gəbərtməyə alışmış Natiq bir də baxdı ki, vur-tut iki gülləsi qalıb. Daha güllə sərf etməyi münasib bilməyib fikirə getdi ki, kömək gəlsəy-

di yaxşı olardı. Hər halda kömək gəlməsə də, mən nə təslim olacam, nə də əsir düşəcəm. Hər ehtimala qarşı bir güllə düşmənə, bir güllə də özümə bəs edər.

Erməni qəragahında kilsədə açılan atəşlərin səsi eşidilirdi. Ancaq, komandir Vito Karserə böyük inam bəsləyirdi deyən, gözləmək qərarında oldu. Bir neçə vaxtdan sonra Karserlə gedən iki erməni yaraqlıları peyda oldular. Yaraqlıdan biri qıçasından güllələnmişdi. Digəri onu kürəyində gətirmişdi. Tez yaralı erməni döyüşçüsünə ilkin yardım göstərib, Əsgərandakı hərbi qospitala göndərməli oldular. Birdən Vitonun yadına Karser düşdü. Yaxşı komandiriniz Karser hanı? Nitqi qurumuş erməni yaraqlısı barmağını alnına aparıb "puf" deyərək ağlamağa başladı. Vito başa düşdü ki, Karser istədiyini alıb, alnından güllə alaraq ömrünə əlvida deyib. Axı, mən bu inadkara dedim ki, getmə! Bax əcəl adamı belə aparır. Özü də biləsən ki, kilsəni müdafiə edən türklər iki qaş arasından güllə keçirməkdə mahirdilər. Vito Karser üçün yas quran erməni yaraqlısına buyurdu. Necə bilirsən Karserin cəsədini vurulduğu yerdən götürmək olar, ya yox. Erməni yaraqlısı yox işarəsini verən yekə başını əsdirib, yenə barmağını alnına apardı. Vito anladı ki, Karserin cəsədini vurulduğu yerdən çıxartmaq iki qaş arasından yeni güllə almağa bərabərdir. Digər erməni yaraqlısı Vitonu agah etdi ki, biz erməni cəsədlərinə heç yaxınlaşa bilmirdik. Onları döyüş zonasından çıxartmaq ölümlə qarşılaşmaq demək-

dir. Beləcə erməni yığıncağının sükutunu pozan saqqallı bir hiyləgər erməni yaraqlısı Vitoya müraciətlə bildirdi ki, kilsədəki müqavimətçi türkləri təslim olmağa məcbur edəcək variantımız var. Nə variantdır? -deyə Vito həmişəki kimi bağırdı. Saqqallı erməni Vitonu anlatdı ki, biz Xocalıdan iyirmi iki əsir götürmüşük. Onlardan birini bizim müşahidəmiszlə türklərlə danışığa göndərə bilərik. Müqavimətçi türklərə başa salmaq lazımdır ki, əgər təslim olmasalar iyirmi iki Xocalı sakinlərini uşaqlı-böyüklü güllələyəcəyik. Mənə elə gəlir ki, türklər iyirmi iki əsirin güllələnməsinə razı olmayıb təslim olacaqlar.  Erməni yaraqlıları içərisində hiyləgər saqqallı Suren kimi tanınan bu alçağın təklifi Vitonun ürəyincə oldu. Düz deyirsən saqqalı Suren. Eşq olsun sənin hiylənə. Bir erməni yaraqlısını götür get, Xocalıların əsir saxlandığı yerə. İçərisində dünyagörmüş bir yaşlı olsa gətirin yanıma. Saqqallı Suren alçaqlıqda ondan geri qalmayan keçmiş donuz otaran, indi isə türk qanına susamış Aşotla bərabər yola düşdü. Aşot gedərkən Qriqoriyan məzhəbinə and içdi ki, biz o türklərdən birini seçib müqavimətçi türklərin axırına çıxacağıq. Qərargahda var gəl edib papiros tüstülədən erməni yaraqlıları səbirsizliklə saqqalı Sureni və Aşotu , həmçinin təslimçiliyə gedəcək türkün gəlişini gözləməyə başladılar. Nəhayət bir neçə saat keçməmiş sağğallı Suren və Aşot bir yaşlı türklə qərargaha buyurdular. Komandir Vito ilə təslim-

çiliyə gedəcək türk kişi arasında təmiz Azərbaycan dilində dialoq başladı:

-ara, türk əsir sən məni tanıdınmı?

-Yox, əlbəətə ki, tanımadım. Cəfər kişi bir anlığa düşündü. Erməni olasan bizim dildə belə sərbəst danışasan. Nə bilmək olar. Əclaf heç erməniyə də oxşamır. Bəlkə erməniyə satılmış satqındır. Cəfər kişini düşüncələrdən erməni başçısının sözə başlaması ayıltdı.

Biləsən ki, mənim adım Vitalidir, yəni Vitodur. Məni ermənilərlə bərabər, siz türklər də Vito olaraq yaxşı tanıyırsınız. Bilirsənmi səni nə üçün bura gətirtmişəm?

-Xeyr, bilmirəm.

Yaxşı indi məni dinlə. Bizim Xramort yüksəkliyində yerləşən müqəddəs Qriqoriyan kilsəmiz türklər tərəfindən işğal edilib və biz erməni döyüşçülərinə müqavimət göstərərək kilsəni azad etmirlər. Mən döyüşçülərimin heç nədən həlak olmasını istəmirəm. Sən mənim döyüşçülərimin müşahidəsi altında gedib kilsədə olan türk əsgərlərinə bizlərə təslim olmaqlarını çatdırmalısan. Və onları başa salmalısan ki, əgər müqavimət göstərib təslim olmaq istəməsələr, əsir götürdüyümüz Xocalıların içərisi sən qarışıq hamısını güllədən keçirəcəyik. Üstəlik kilsəni partladıb onları da öldürəcəyik. Xoşluqla təslim olsalar əsirlərin hamısı azad olunacaq. Üstəlik türk müqavimətçiləri də azadlığa qovuşa bilərlər. Başa düşdünmü mənim tapşırığımı? !

-Bəli, başa düşdüm.

Yaxşı sənin adın nədir və Xocalıda hansı işlə məşğul olmusan?

Mənim adım Cəfərdir. Özüm də, Xocalı məktəbinin direktoru işləmişəm.

Vito güldü. Ara Suren, Aşot nə intiligentli əsir gətirmisiniz?! Cəfər kişi, sən ziyalısan. Əgər iyirmi iki Xocalılının güllələnməsini istəmirsənsə kilsədəki müqavimətçi türklərə təslim olmalarını başa salmalısan. Müqavimətçilər təslim olmadıqları halda siz Xocalıların güllələnəcəyini bilməlisən. Odur ki, onları inandırsan məcbur qalıb təslim olacaqlar. İndi diqqətlə mənə qulaq as. Sən mənim döyüşçülərimlə bərabər BTR maşınında kilsə yaxınlığına qədər gedəcəksən. Kilsəyə bir az qalmış mənim döyüşçülərim səni kilsəyə getməyinə şərait yaradacaqlar. Sən kilsəyə elə yaxınlaşmalısan ki, müqavimətçi türklər səni erməni bilib öldürməsinlər. Əgər sən müqavimətçi türklərlə dilbir olsan,yaxud görüşə bilməyib onlar tərəfindən hər ehtimala qarşı güllələnmiş olsan, hesab et ki, yerdə qalan əsir Xocalılar da güllələnmiş olacaqlar. Çalış ki, onlarla görüşüb təklifimizi söyləyə biləsən. Aşot, saqqalı Suren özünüzlə bərabər bir neçə yaraqlı götürüb yola düşün. Əmrimi dəqiq və itgisiz yerinə yetirməyi sizdən tələb edirəm. Dəqiqələr keçməmiş Cəfər kişini BTR-ə mindirən erməni yaraqlıları kilsəyə doğru hərəkət etməli oldular.Yol boyu erməni leşlərini görən saqqallı Suren məhv edilmiş erməni meyidlərinin maşın altında qalmaması üçün göstərişlər

verirdi. Bir xeyli yol qət etmişdilər ki, həddindən artıq dumanlı havada kilsə görünməyə başladı. Aşot və saqqallı Suren yekə gövdəli və kolluqla əhatələnmiş ağacın arxasında BTR-i saxlatdırıb dumanlı və çiskinli hava şəraitində az-maz görsənən kilsəni Cəfərə göstərib onu kilsəyə doğru yola saldılar. Üstəlik Cəfər kişiyə ürəkdirək vermək üçün silahlarını göstərib ona ümid verdilər ki, qorxmasın türklər tərəfindən silahlı müqavimət olsa ona köməyə gələcəklər. Cəfər kişi beynindən dilinə gələn pıçıltını zorla boğdu:-ay siz öləsiniz! Məni qoruyacaq düşmənlərimə bir bax. Sizin murdar əlinizdə ölməkdənsə, millətimin gülləsi ilə ölsəm daha şərəflidir. Cəfər kişi şehlənmiş otlar üstündə sürünərək Pirə doğru irəliləyirdi. Yol boyu xeyli erməni leşlərini görüb, erməni yaraqlılarını ölümə verməyən komandir Vitonun hiyləgərliyini başa düşmüş oldu. Əclaflar!-deyərək ürəyini boşaltdı. Bizimkilərlə döyüşüb xeyli itgi verənlər mənə silah göstərib ümid verirlər. Hansı ki, ölümdən qorxub biçarə əsirlərimizdən hiyləgərcəsinə istifadə edirlər. Cəfər kişi elə bu fikirlərlə şehlənmiş ot üstündə sürünərək Pirə doğru irəliləyirdi. Yol boyu xeyli cəhənnəmə vasil olmuş erməni yaraqlılarının leşlərini gördükcə, ürəyində əsgərlərimizə əhsən deyirdi. Alban pirinə bir neçə metr qalmış Piri və üzərindəki islanmış vətən bayrağını görüb qəhərləndi. Qəhərlənmiş və boğulmuş halda, var olasınız mənim igid qardaşlarım! -dedi. Birdən yuxudan ayılmışlar

kimi baxdı ki, artıq kilsənin bir neçə addımlığındadır. Şehlənmiş ot üzərində xeyli süründüyündən bütün paltarları islanmışdı. Hava soyuq olduğundan onu üşütmə tutmuşdu. Pirin üzərində dalğalanan vətən bayrağına baxdıqca dolmuş gözlərindən axan yaşın istiliyini hiss edib isinmiş kimi ürəkləndi. Ətrafda sakitlik hökm sürürdü. Adicə bir milçək vızıltısını eşitmək mümkün idi. Yavaş bir səslə, -ay mənim qardaşlarım, mən sizinkiyəm, gəlmişəm sizlərə erməni təklifini deyim. Pirdən səs gəlmədi. Beynindən bir fikir keçdi. Bəlkə, dilim-ağzım qurusun, erməni alçaqların güdazına gediblər. Yox ola bilməz! Onda niyə bəs mənim səsimə səs vermirlər? Bir irəli gedim görüm Pirdə kim var, kim yox! Qapıdan içəri girmişdi ki, soyuq silahın lüləsi beyninə tuşlandı. Sən kimsən buraya nəyə gəlmisən?-deyə Natiq hayqırdı. Cəfər kişi ani olaraq sevindi ki, yaxşı ki sağ-salamat vətən balası ilə görüşə bildi. Qarşısında üz-gözünü hiss basmış bir cavanı görüb, tələm-tələsik ərz etdi ki, Xocalıdandır və xeyli Xocalılı ilə bərabər ermənilərə əsir düşüb. İndi onu sizlərin təslim olmağı üçün təkliflə göndəriblər. Natiq Cəfər kişinin Qarabağ ləhcəsini eşidib silahını yanına saldı. Cəfər kişi ətrafa göz gəzdirib, canlı olacaq bir insan görmədi. Divar yaxınlığında həlak olmuş iki-üç nəfərin cəsədi görsənirdi. Hövlank soruşdu ki, -ay oğul bəs sənin döyüşçü yoldaşların haradadırlar? Natiq zəif bir səslə Cəfər kişidən su xahiş edib, bildirdi ki, beş gündür ki, az-susuz erməni alçaqları ilə

vuruşur və artıq susuzluğa dözə bilmir. Cəfər kişi su olmadığını dilinə gətirib, cibindəki dar gün üçün saxladığı quru çörəyi Natiqə vermiş oldu. Natiq bir təhər quru çörəyi həzm edib, az-çox taqətləndi. Natiqin bir az dirçəlməsini görən Cəfər kişi əsir düşmələrini Natiqə danışıb bildirdi ki, məni təkliflə göndərən erməni alçaqları həyacanla ərz edirdilər ki, kilsədə bir batalyon türk əsgəri var. Onlara bildir ki, təslim olmasalar iyirmi iki Xocalı əsirlərini arvadlı-uşaqlı güllələyəcəklər. Natiqin dodağına nifrət dolu bir təbəssüm hopdu. Biz yeddi nəfər döyüşçü idik. Bir neçə döyüşçümüz kömək üçün Ağdam istiqamətində yola düşdülər. Ancaq, nə onlardan bir xəbər var, nə də bir kömək gəlmədi. Ay oğlum, döyüşçü yoldaşların əgər Ağdam istiqamətində yola düşüblərsə, onda sən niyə onlarla bərabər Ağdama getmədin?-deyə Cəfər kişi dilləndi.Natiq pirin bacasından göyə baxaraq duman və çiskindən gözə görsənməyən ulduzları aramaq istədi.Ulduzlar görsənmirdi.Əlini Cəfər kişinin çininə qoyub cavablandı. Mən müdafiəsinə girdiyim piri necə qoyub gedə bilərəm? Komandirimə söz vermişəm. Komandirin tapşırığını necə yerinə yetirməyə bilərəm? İkinci də, mənim vicdanım və döyüşçü qürurum buna imkan verməz ki, döyüş yerini tərk edim. Dalğalanan vətən bayrağımı düşmənə necə təslim edə bilərəm? Bu mümkün deyil! Ölənədək müqavimət göstərəcəm. Təslim olmaq haqqında isə heç bir fikirim yoxdur. Gördüyünüz bir neçə döyüşçümüz həlak

oldular. Dediyim kimi, artıq beş gündür ki, mən piri qoruyur və müqavimət göstərirəm. Həlak olan döyüşçü yoldaşlarımın silahlarından istifadə edərək müqavimət göstərmişəm.İndi durub bu erməni cəlladlarına təslim olmalıyam,Cəfər kişi! Cəfər kişinin qarşısında əsil vətən oğlu dayanmışdı. O, bu vətən üçün canından keçməyə belə hazır olan bir igid idi. Onun vətən-torpaq qeyrəti Cəfər kişini valeh etmişdi. Cəfər kişi vətən balasını qucaqlayıb dedi:-sağ ol, mənim balam! Sən təkbaşına xeyli erməni yaraqlısını cəhənnəmə vasil etmisən. Mən sürünərək bura gələndə allah şahiddir ki, xeyli erməni cəsədini gördüm. Sayı-hesabı bilinmirdi bu alçaqların. Natiq sözünə davam edərək Cəfəri kişini agah etdi ki, avtomatımda iki gülləsi qalıb, onun biri pirə qədəm qoya biləcək erməni alçaq üçün nəzərdə tutulub. Digər gülləm isə təslim olmamaq üçün mənə bəs edər. Yox nə danışırsan ay oğul, -deyə Cəfər kişi dilləndi. Bəs Xocalı əsirlərini heç düşünmədinmi? Təslim olmasaq, onları bu qana susamış erməni yaraqlıları güllələyəcəklər. Əsirlərin içərisində, uşaq, qadın, ahıl kişilər var. Natiq xəyala daldı. O, təslim olmağı ağlına belə gətirmirdi. Necə yəni təslim olum? ! Ölərəm təslim olmaram! Natiqin qəzəbdən dişləri kilidlənmiş və çənə əzələsi səyriyirdi. Natiqin iki daş arasında qalan fikirlərlə xəyallanmasına dözməyən Cəfər kişi xahiş etdi ki, əlindəki iki gullədən birini onun başına çaxsın. O, geri qayıdıb əsirlərin üzünə baxa bilməz, həm də ki, özünün düşmən gülləsi ilə öl-

məsini arzulamır. Oğlum elə sənin güllənlə ölsəm daha şərəfli ölüm olar, nəinki düşmən gülləsi ilə ölmək, -deyə Cəfər kişi hüzünləşdı. Natiq xəyali olaraq gözlərini göyə dikib sanki, ümüd alacağı ulduzları aradı. Ulduzlar duman və çisgində görünməz olmuşdular. Bir də, hələ axşam qaranlığına xeyli vaxt qalmışdı. Avtomatını əlinə alıb iki gülləni göyə buraxdı. Tez qalxıb bacadan vətən bayrağını əlinə əlaraq, Cəfər kişiyə düşmən qarşısına getməyi lazım bildi. Əlində bayraq olan Natiq, Cəfər kişi ilə Pirdən çıxmışdılar ki, saqqalı Suren və Aşot digər yaraqlılarla bərabər əli bayraqlı türk əsgərini və təslimçiliyə getmiş Cəfər kişini dövrəyə aldılar. Kol-kosda, ağac arxasında gizlənmiş bu yaramazlar, sanki böyük qəhrəmanlıq göstərərək silahlarını silahsızlara tuşlamışdılar. Hətta, kilsədə qalmış ola biləcək türk müqavimətçilərinə güllələr yağdırmağa önəm verdilər. Natiq bu yaramazlara baxıb gülməyini büruzə verməsə də, onun istehzalı gülən gözlərini görən Cəfər kişi xeyli qürurlanmışdı. Bir azdan kilsəni atəşə tutan erməni yaraqlıları geri qayıdıb, kilsədə iki-üç türkün cəsədindən başqa bir canlı görmədiklərini saqqalı Surenə ərz etdilər. Saqqalı Suren bağırdı:- Necə yəni, kilsədə canlı döyüşçü yoxdur. Yəqin qaçıb aradan çıxıblar, ya da hardasa kol-kosda gizlənib bizi pusquya salaraq öldürmək istəyirlər. Aşot Cəfər kişiyə bağıraraq, orada olan döyüşçü müqavimətçilərin haraya yox olduqlarını tələb etdi. Cəfər kişi and-aman etdi ki, məbəddə sizlərin dediyi heç bir batal-

yon yoxdur. Sizin dəstənizlə təkbaşına, ac-susuz vuruşan gördüyünüz bu əli bayraqlı oğlandır. Saqqallı Suren bağırdı. Bu kişi yalan danışır. Necə yəni biz bir o qədər zəif olmuşuq ki, çəlimsizin biriinə xeyli erməni yaraqlısını qurban vermişik? ! Bu ola bilməz! Karser kimi bir erməni qəhrəmanını belə bir çəlimsiz öldürə bilməz! Aşot, tez yaraqlılar götür və ətrafa bax. Karseri və digər həlak olan yaraqlılarımızın nəşini, kilsəni atıb qaçan türklər özləri ilə aparmayıblar ki? Aşot və digər yaraqlılar kol-kosları xeyli axtarıb, elə içərisi Karser qarışıq xeyli leş yığdılar ki, onların leşlərini BTR-lə aparmaq müşgül məsələ oldu. Karseri və bir neçə "igidləri-ni"BTR-lə yola salıb, özləri də əli bayraqlı Natiqi əhatəyə alaraq "igidlər"kimi qərargaha yollandılar. Saqqallı Suren əlində bayraq tutmuş Natiqə nəzər yetirib dilxor olsa da, özünü qalibçi göstərmək üçün ona istehzalı suallar yağdırmağa başladı. Mən heç inana bilmərəm ki, sənin kimi bir çılız adam Karser kimi əldaha bir döyüşçünü, onlardan geri qalmayan digər erməni yaraqlılarını sərrast güllə ilə öldürüb. Sizlər kilsədə çox olmusunuz. Yəqin o biriləri erməni hucumlarına tab gətirməyib və səni kilsədə qoyaraq qaçıblar. İndi sən özünü elə aparırsan ki, guya təkbaşına bizimlə vuruşub, xeyli döyüşçümüzü məhv etmisən. Natiq susmağa üstünlük verdi. Bu sükutdan qəzəblənən saqqalı Suren daha istehzalı təhqirə keçdi. Yaxşı de görüm əlindənki əsgi parçasını niyə özünlə gəzdirirsən? ! Natiq daha dözmə-

di. Saqqallıya çəpəki baxıb dilləndi. Əlimdəki bayraqdır, vətən bayrağı! Mənim vətənimin bayrağını əsgi parçası adlandırmaq sənin kimi saqqallı dığanın hünəri deyil. Mən bu bayraq üçün ölümə belə getməyə hazıram. Natiqin sərt danışığından saqqalını yolan Suren, komandir Vitodan qorxmasaydı onu yerindəcə güllələmək istəyərdi. Odur ki, qəzəbini boğub dedi:-yaxşı görürəm çox ötgəm danışırsan. Gedərik komandirin huzuruna onda görərəm sən necə ötgəm danışacaqsan.

Qərargahda oturub təslim olacaq türk batalyonunun yolunu səbirsizliklə gözləyən erməni yaraqlıları bir də gördülər ki, BTR gəlir.Sevindiklərindən pıqqıldaşan erməni yaraqlıları təslim olacaq türk batalyonunu gözləməkdən səbirsizləşmişdilər.Getdikçə yaxınlaşan BTR hərbi maşınında ik-üç erməni yaraqlısından başqa kimsə görünmədiyindən erməni yaraqlılarını heyrət götürmüşdü.Nəhayət BTR maşını qərargaha yaxınlaşdı. BTR maşının içərisində Karser də olmaqla bir neçə erməni döyüşçülərinin cəsədi gətirilmişdi. Vito dik ayağa qalxıb qəzəblə soruşdu ki, bəs hanı məktəb direktoru, hanı təslim olmağa gələcək türk müqavimətçiləri?! BTR-i idarə edən erməni döyüşçü bildirdi ki, kilsədə heç bir türk döyüşçüləri yoxdur və guya çəlimsiz bir türk bizimlə vuruşub müqavimət göstərirmiş. Suren, Aşot və digər döyüşçülərimiz məktəb direktoru və təslim olmuş əli bayraqlı cılız bir türklə qərargahımıza gəlirlər. Ölənlərimiz çoxdur, komandir Vito. Biz BTR-ə yerləşə-

cək qədər cəsəd götürüb gəldik. Hələ xeyli cəsədlər kilsə ətrafında qalmaqdadır.Vito dözümsüzlük göstərib qışqırdı. Əşi, sən nə çərənləyirsən? Nağıl danışırsan mənə! Kilsədə ən azından bir batolyondan çox türk müqavimətçisi olmalıdı. Necə olub ki, sənin dediyin o cılız türk bir belə döyüşçümüzü məhv edib. İnandırıcı deyil. Yəqin hamısı qaçıb gediblər və bu cılız türkü də bizə "hədiyyə" saxlayıblar. Vito çıxışına son qoymamış Aşot və Surenin əhatəsində məktəb direktorunu, əli bayraqlı çəlimsiz türkü görüb hirsindən az qala at belinə minmiş oldu. Dilxorçuluğunu gizlədərək stulunda oturub onların yaxınlaşmasını gözlədi. Bir azdan xarici jurnalistlərin gəlişini görüb, vəhşi erməni simasını gizlədərək əzab çəkən erməni ordusunun komandiri kimi özünü ədəbli aparmağı düşündü və bu hərəkəti ilə ətrafındakı döyüşçülərə də sirayət etmiş oldu. Xarici jurnalistlərin erməni yaraqlılarının əhatəsində gələn türk döyüşçüsünün şəkilini çəkmklə məşğul olduqlarını görüb baş qarışığından istifadə edərək saqqallı Sureni göz işarəsi ilə yaxınlığına çağırdı. Jurnalistlərdə şübhə yaratmamaq üçün pıçıltılı olaraq erməni dilində soruşdu ki, yaxşı bəs kilsədə bizə qarşı vuruşan türk batalyonu təslim olunmayıb məgər? Yox, Vito can. Bu əli bayraqlı türk təslim olub vəssalam. Əli bayraqlı bu çəlimsiz türk və məktəb direktoru kilsədən birgə çıxdılar. Bunlar təslim olduqdan sonra kilsəni atəşə tutduq ki, türklər bizə pusqu qurmuş olarlar. Kilsəyə mən özüm daxil olub iki-üç

türk cəsədindən başqa kimsəni görmədim. Ola bilər ki, müqavimət göstərən türklər qaçıb gediblər və bu cılızı kilsədə saxlayıblar. Kilsənin ətraflarını da döyüşçülərimiz yoxlayıblar. Heç bir türk döyüşçüsünü görməyiblər. Yaxşı o əlindəki bayrağı niyə özü ilə götürüb. Mən soruşdum, mənimlə çox ötgəm danışdı. Düzü siz komandirimiz məni cəzalandırmasaydınız, bu türkü ötgəm danışığına görə elə orada güllələyərdim. İndi bayraq məsələsinin möcüzəsini özünüz soruşarsınız. Bəri bax, Suren and olsun Qriqoriyan məzhəbimizə əgər bu xarici jurnalistlər burda olmasaydı səni elə cəzalandırardım ki, anadan əmdiyin süd burnundan tökülərdi. O, sən deyildinmi hər döyüşdən sonra itgilər verib göz yaşı tökürdün ki, bəs kilsədə bir batolyondan çox türk əsgəri var və bizə kömək lazımdır. İndi hanı o batalyon? Mənə əli bayraqlı cılızın birini gətirmisən və üstəlik mənə nağıl oxuyursan ki, bayraq möcüzəsini onun özündən soruş. Sən pis döyüşçü deyilsən, ancaq çalış bir də belə yalanlar mənə uydurma. İndi əsas müəmma budur ki, bu çəlimsiz türk əsgəri bizimlə təkbaşına necə vuruşub və xeyli döyüşçümüzü necə məhv edib? ! Komandir Vito saqqalı Surenlə baş-başa danışmaqda ikən jurnalistlər əli bayraqlı türk əsgərinin şəkillərini çəkib, onun komandirlə olacaq dialoqunu gözləmək qərarına gəldilər. Komandir Vito əlində bayraq tutmuş türk döyüşçüsünü oturmağa dəvət edib, bayraqlı türkü ayaqdan-başa süzdü. Çox məğrur olaraq əlindəki bayra-

ğı yerə qoymadan stulda əyləşən Natiq qürurlu və başı dik olaraq onu oturmağa dəvət edəni baxışları ilə süzüb oturdu. Komandir Vitonun dişi bağırsağını kəsirdi. Kaş bu jurnalistlər burada olmayaydı, onda səni elə hala salardım ki, başını qaldırıb mənə baxa bilməzdin,-deyə Vito daxili donqultusunu gizlədə bilmədi. Vito saqqallı Surenə əmr verdi ki, əsir məktəb direktorunu Xocalı əsir-girovların yanına aparsın. Özü isə təslim olmuş müqavimətçi əsirlə söhbət etməli olacaq. Komandir Vito məhkəmə quracaqmış kimi jurnalistləri də oturmağa dəvət edib dialoqa başladı:

-adın nədir türk müqavimətçisi?

- adım Natiqdir.

Çox yaxşı.

Türk Natiq o bayraq sənin oturmağına maneçilik törətmirmi? Onu qoy bir kənara biz səninlə sorğu suala başlıyaq.

-Xeyr, bayrağı mən nəinki kənara qoya bimərəm, onu heç kimə etibar belə edə bilmərəm. Bayraq mənim əlimdə olacaq. Siz sorğunuzu edin. Vito anladı ki, bu çəlimsiz türk çox inadkardır. Əgər onunla yüksək danışıq tonuna girişsə qalmaqal yarana bilər və bu jurnalistlər üçün sensasiya yaradar. Odur ki, daxilən razılaşıb humanist don geyərək buyurdu:

-Yaxşı, sən deyən olsun!

İndi de görüm hansı türk dəstəsinin tərkibində bizə qarşı vuruşurdun?

Dəstə nədir? !

Mən hərbçiyəm və torpağımı siz işğalçılardan təmizləmək üçün haqq döyüşü aparıram. Mənim sizlərə qarşı haqq vuruşum mənim hərbi sirrimdir. Hərbi and içən əsgər sirrini düşmənə agah etməz! Yaxşı sirli hərbiçi. De görüm sən hansı haqq döyüşündən danışırsan? Mənim bildiyim qədər sən müsəlmansan. Müsəlman türkün erməni kilsəsini zəbt edib müqavimət göstərməsi məgər haqq uğrunda döyüş sayılır?

Natiq səbrini boğa bilmədi. Birincisi, müdafiə edərək qoruduğum məkan kilsə yox, pirdir. Bu pir mənim Azərbaycan torpağımda yerləşir. Siz isə bizim torpağımızı işğal etmisiniz. Biz torpağımızı siz işğalçılardan təmizləmək üçün haqq döyüşü aparırıq.

Erməni yaraqlıları Natiqin çıxışını dinləyib ironiyalı gülüşdülər. Vito da gülürdü. Sonra humanist bir komandir kimi gülüşünə son verib bildirdi ki, siz türklər müqəddəs Qriqoriyan kilsəsini zəbt edib müqavimət göstərdiyinizi boynunuza almadığınız halda, hələ bizi işğalçı adlandırırsınız. Kilsəmizi zəbt edən sizlər və sənin döyüşçü yoldaşların olan digər türk döyüşçüləri gücümüzü görüb aradan çıxıblar və sizin kimi sadəlövh bir uşağı kilsədə saxlayıblar. Natiq cavab olaraq ərz etdi ki, əsgər dostlarımdan üçü canlarını vətən torpağı naminə fəda ediblər ki, onu da sizin yaraqlılarınız pirdə görüb şahidlik ediblər. Sizin işğalçı yaraqlılarınıza qarşı mən beş gün olar ki, təkbaşına vuruşmuşam. Komandir Vito çəlimsiz türkün sözlərinə dözməyib bağırdı:-bu ola

bilməz! Sənin nə vücudun var ki, mənim otuzdan çox fil döyüşçülərimi məhv edə biləsən! Eyni zamanda bütün pəncərələrdən bizə eyni vaxtda atəşlər gəlirdi. Sən təkbaşına bizlə bacara bilməzdin. Sizin kilsədə xeyli döyüşçüləriniz olub, onlar qorxudan aradan çıxıblar. Sən isə özünü qəhrəmanlaşdırırsan. Yaxşı bəs bizim döyüşçülərimizin kilsəyə atdığı qranatlar necə olurdu ki, həmən geri atılıb döyüşçülərimin ölümünə səbəb olurdu. Komandir Vito danışdığı müddətdə Natiqi fikirlər götürmüşdü ki, onun qumbara və qranatları cəldliklə əldə etməsi, düşmən üzərinə atması bu bədbəxtlərdə təşviş yaradıb. Guya onlara qarşı tək Natiq yox, böyük bir türk batalyonu vuruşurmuş. Komandir Vitonun, - niyə səsin çıxmır sualından sonra, Natiq düşüncələrinə son qoyub qəti olaraq bildirdi ki, siz erməni işğalçıları istədiyiniz fərziyyələri uydura bilərsiniz. Ancaq, onu deyə bilərəm ki, əgər bizim köməyimiz gəlsəydi, biz çoxluq təşkil etsəydik sizləri tamamən məhv edərdik. Sizlər bizi məğlub edə biməzdiniz və mən də sizlərin əsir götürdüyü Xocalının uşaqlı, qadınlı, qocalı dinc sakinlərinin xatirinə təslim olmazdım. Mən bir türk döyüşçüsü olaraq əlimdə tutduğum və mənium üçün müqəddəs olan vətən bayrağına and içirəm ki, sizinlə təkbaşına vuruşmuşam. İndi isə hər bir çəzanı almağa hazıram. Ancaq, siz sözünüzü unutmayıb əsir və girovları azad etməlisiniz. Mən təslimçiliyi əsir götürdüyünüz insanların azadlığı naminə qəbul etmişəm. Güman edirəm ki, siz də söz

vermiş bir komandir kimi, əsirləri azad edəcəksiniz. Natiq qısa çıxışına sonluq edib erməni komandirdən cavab gözlədi. Hiyləgər komandir Vito sual dilemması qarşısında olduğunu anladı və buyurdu. Siz yəqin ki, məni tanımırsınız. Sizin bizə qarşı vuruşan könüllü dəstələrin başçıları məni çox gözəl tanıyırlar. Mən səhra komandiri Vitali, qısaca Vito Balasanyanam. Mən bilirəm ki, sənin vuruşduğun dəstənin komandiri Ala Yaqubdur. Onun komandirlik etdiyi dəstə bildiyim qədər "Qarabağ şahinləri"adlanır. Ancaq, mənə çox müəmmalı görsənir dəstənin "Qarabağ şahinləri" adlandırılması. Qarabağ Ermənistan deməkdir. Əslinə qalsa Qarabağın şahinləri sənin ətrafında gördüyün erməni döyüşçüləridir. Qarabağın kimin torpağı olmasını gələcək göstərəcək. Qarabağ Böyük Ermənistanın tarixi torpağıdır və gələcəkdə də belə olacaqdır. İndi bir daha sənə bildirmək istəyirəm ki, bizə qarşı vuruşan digər türk hərbi dəstələrinin komandirləri də məni yaxşı tanıyırlar. Mən onlarla xeyli əsir mübadiləsi etmişəm. O, komandirlər bilirlər ki, Vito Balasanyan verdiyi sözə əməl edəndir. Mən o əsirləri sap-sağlam vətənlərinə təhvil verəcəm. Ancaq, biləsən ki, sənin cəzan elə də asan olmayacaq. Əlbəətə, əgər sən bizim təkliflərimizə və əmirlərimizə sadiqlik etsən, cəzan yüngülləşə bilər. İndi bu jurnalistlərin şahidliyi önündə bildirmək istəyirəm ki, əgər bizə təslim etmədiyin bayrağını ayaq altına salıb tapdaq etsən mən bilərəm ki, sən cəzanı yumşaltmaq

üçün düzgün yol seçmiş olursan. Natiq qəzəbini gizlədə bilmədi:-siz nə danışırsınız, erməni komandir? ! Ölümümü gözümün qabağına alıb sizi tapdalamağa qalxsam, qarşımı ala bilməyəcəksiniz. Çox görmüşəm sizin kimi erməni "hayqıranları". Çətin anlarda əsir düşən siz ermənilər bayraqlarınızı tapdalamaqda mahirsiniz. İndi siz məsləksiz əqidənizlə bizim haqq əqidəmizi imtahana çəkirsiniz? Əgər siz və ya erməni işğalçının biri mənim bu müqəddəs bayrağımı əlimdən almaq istəsə onu dişlərimlə didərəm. Natiqin dişlərini qıcaması və yerindən qalxmağa cəhd göstərməsi komandir Vitonu elə qəzəbləndirdi ki, nifrətli gözlərini bu çəlimsizin gözlərinə tuşlayıb, sanki qəzəbli göz baxışları ilə ona sirayət etməklə yola gətirmək istəyirdi. Natiq cəsarətli baxışlarını özündən razı erməni komandirin gözlərindən çəkməyib erməniyə belə oxşarlığı olmayan bu adamın gözünün dərinliklərində türkə qarşı olan nifrət qığılcımını görmüş oldu. Bu adamın gözlərindən türkə qarşı nifrət zəhəri axırdı. Onun üz-gözünün simmetrikliyi və arvad gözəlliyinə malik olması gözlərdən axan zəhəri ört-basdır edə bilmirdi. Natiq fikrən düşünürdü ki, zəhərli ilanlar da xüsusi gökəm yaraşığına malikdirlər, ancaq sancmaq onlarda şüursuz refleksdir. İndiki halda xüsusi gözəlliyi olan şüursuz zəhərli ilanla,arvad gözəlliyinə malik olan erməni komandir Vitonun heç bir fərqi yox idi. Yüz illərlə şüursuz beyinlərində gəzdirdikləri" Böyük Ermənistan" xülyası və torpaq nəfsi bu ağılsızların gözündə

türkə qarşı nifrət hissini zəhərə çevirmişdir. Erməni komandirin əsirə zillənmiş zəhərli gözləri, əlində bayraq tutan əsir Natiqin vüqarlı baxışı xarici jurnalistləri dəhşətə gətirmişdi. Hər tərəfdən fotoaparatlar şaqqıldayır və onlar böyük bir erməni dəstəsinə meydan oxuyan bayraqdarın fotosunu çəkməklə əsir türkün qəhrəmanlığını dünyaya çatdırmaq istəyirdilər. Natiq onu çəkən jurnalistlərin marağında deyildi. Onun beyninə, ancaq bir düşüncə hakim kəsilmişdi. Kaş imkanım olaydı bu erməni yaraqlılarını məhv edib, vətən bayrağını onların qərargahında dalğalandıraydım! Natiq elə bu xəyalda ikən hiyləgər bir erməni bayrağı onun  əlindən qapıb kənara tullamaqda ikən Natiq güc göstədi. Lakin, onun qollarını zərərsizləşdirib oturmağa məcbur etmək istədilər. Qəzəblənmiş Natiq oturmadı. Natiqin aşıb-daşan qəzəbindən heyrətə gələn komandir Vito humanist donunu üzünə çəkib bildirdi ki, xarici jurnalistlərin gözü qabağında söz verir ki, bayraq təhqir olunmayacaq və onun komandir otağında qorunacaqdır. Natiq bircə onu bildirdi ki, bayraq hiylə yolu ilə deyil, döyüş-vuruş yolu ilə əldən alına bilər. Budurmu sizin bayraq döyüşünüz? Hiyləgərliklə bayrağı əldən qapmaq, məgər döyüşdür? ! Komandir Vito Natiqi sakitliyə çağırıb agah etdi ki, bayraq sonda onun özünə qaytarılacaq. Natiq Vitoya inanmasa da, çarəsiz olub yerində oturdu. Natiqin qulağının dibini kəsmiş saqqallı Suren ona pıçıltı ilə eşitdirdi ki, ay axmaq musurman mən yaxşı bilirəm ki, tərsliyinlə

çox pis cəza almış olacaqsan. Nahaq sən komandirin sözündən çıxıb təklifini rədd etdin. İndi hələ gec deyil. Sən bayrağı ayaq altına salıb tapdalasan komandirin cəzasından qurtulmuş olarsan. Mən özüm komandirdən xahiş edərəm günahından keçər. Natiqin dik ayağa qalxıb Surenin saqqalına tüpürməsi hamını heyrətə gətirdi. Alçaq saqqallı erməni məni hövsələdən çıxartma! -deyə Natiq bağırdı. Mən bir dəfə dedim ki, bayraq tapdalamaq aciz ermənінin xisləti ola bilər. Saqqallı Suren avtomatının qundağını Natiqə çırpmaq istərkən komandir Vitonun baxışları ilə xarici yurnalistləri göstərməsi Surenin əlini yanına saldı. Komandir Vito saqqallı Surenin qərargahdan bayıra çıxmasını tələb etdi. Komandirinin əmrini dərhal yerinə yetirən saqqallı bayıra çıxıb gödəkçəsinin ətəyi ilə saqqallını silib donquldandı. Vito üzünü Natiqə tutaraq bildirdi ki,  o hirsli başla hazırkı halda sorğu-sual etməyib, sabahı görüşməyi nəzərə alacaq. Siz hər halda sabahkı sorğumuza qədər düşünüb bizi qane edəcək bir nəticəyə gəlmiş olacaqsınız.  O,  yaraqlı Mkrtıçı çağırıb əsiri zirzəmiyə salmağı tələb etdi. Mkrtıça bildirdi ki, bizim erməni humanizminə rəğmən əsiri incitməməyi və çoban qiyafəli ac-susuz olan bu türkə dadlı yemək və su verməyi unutmayasınız. Biz gərək humanizmimizi əsirə göstərək ki, o da düşünüb düzgün qərar qəbul etməklə cəzasını yüngülləşdirsin. Taqətdən düşmüş Natiqi az-çox dinclik düşündürürdü. O, nə düşünməliydi ki, qana susamış bu alçaqlar ona cə-

za verməsinlər. O, nəyinsə xatirinə təslim olmayacağını, hərbi sirrini agah etməyəcəyini, vətənə-torpağa olan məhəbbətini və bayrağa olan sədaqətini itirməyəcəyini çox gözəl bilirdi. Natiq ayağa qalxıb bayrağı tələb etdi. Natiq bayrağı əlinə alıb öpdü və erməni yaraqlılarının əhatəsində zirzəmiyə salındı. Zirzəminin qapısı qıfıllandıqdan sonra taqətini tamam itirmiş Natiq vətən bayrağını bağrına basıb zirzəmiyə tirtab özünü ataraq dərin bir yuxuya getdi. Beş günlük təkbaşına, ac-susuz vuruşdan sonra yuxuya dalmış Natiq röya ağuşunda idi. Əgər onun röya halını diqqətlə izləyən olsaydı görərdi ki, dodaqda yaranmış təbbəssüm xoş röyadan doğub.

Budur vağzalı çalınır. Qızlar-gəlinlər vağzalı sədaları altında süzürlər. Ağ libasa bürünmüş gəlini geyimli-kecimli xanımlar müşaiyət edirlər. Bir azdan anası Dursun bəxtəvərlik verirmiş kimi süzməyə başlayır. Qürurlu Səlim kişi qollarını qartal kimi geniş açaraq ömür-gün yoldaşı ilə qol-qola oynayır. Nəhayət gəlini üzünü açırlar. İlahi, bu ki, Sürrəyyadır! -deyə Natiq təbəssümlənir. Ay dadi-bidad bəs mən niyə bəy kostyumunda deyiləm? ! Bir az keçməmiş qol açıb oynayan Nofəl Natiqə göz aydınlığı verib deyir:-nə durmusan? Bayaqdan səni axtarırıq, gəlin gəlib, sən hələ də bəylik kostyumunu geyməmisən? ! Tez ol get, bəylik paltarını gey! Natiq bəy kostyumunu geymək üçün otağına qaçdı. O çox sevincək idi. Əhdi peymanına sadiq qalmışdı, -deyən özünü xoşbəxtlik zirvəsində sayırdı. Bu dəm zir-

zəmi qapısının cırıltısı və erməni yaraqlının bağırtısı onu şirin röyadan ayıltdı. Gözünü belə açmaq istəmirdi. Axı o, bəy kostyumunu geyəcəkdi? ! Ermənінin bağırtısı və onu təpikləyib oyatmaq istəməsi bədəninin yorğunluğunu biruzə etdirdi. O, şirin röyadan ayrılmaq belə istəmirdi. Qəflətən üstünə əmdərilən buz kimi soyuq su onu təngənəfəs oyanmağa məcbur etdi. Onu sillələrə tutan ermənінin murdar sifətini görüb anladı ki, o əsirlikdədir. Erməni yaraqlı onun qolundan tutub dikəltmək istəsə də, Natiq onu kənara itələyib dikəldi. Əsirin dikəldiyini görən erməni zirzəmi qapısını vurub getdi. Natiq şirin röyadan oyanmağına heyfsiləndi. Çöl işığı dəlmə-deşik zirzəmidən Natiqin gözünə işıq saçdığından qamaşan gözlərini ovub ayağa durmaq istədi. Yorğunluq onu elə taqətdən salmışdı ki, su içərisində olan paltarlarının bədəninə hopub onu üşütməsinə belə biganə yanaşdı. Susuzluqdan dodaqları qurumuş və çat-çat olmuşdu. Ətrafına baxdı. Balaca bir kardonun üstündə quru çörək və bir stəkan suya baxıb dikəldi. Çörəyi əlinə alıb bir diş götürdü. Çörək quru olduğundan həzm edə bilmədi. Stəkandakı su ilə çörəyi isladaraq yemək istədi. Stəkandakı su ılıq və köpüklü görsənirdi. Həm də köpüklü su həddindən çox murdar iy verirdi. Əclaflar! Bu ki, sidik iyi verir. Stəkanı kənara qoydu. Lənətə gələsiniz, alçaqlar! Kalonda heç məhbuslara belə münasibət bəsləmirdilər. Axmaq millət! Əsirlikdə idi, nə edə bilərdi? ! Susuzluğa dözümü qal-

mamışdı. Aha, -deyə ağlına gələn fikirlə razılaşdı. Su içində olan və bədəninə hopmuş köynəyini çıxardıb, əlinin birini ovuclayaraq, digər əli ilə islanmış köynəyin suyunu ovcuna sıxdı. Suyu içdikcə canına rahatlıq gəldi. Bir neçə ovuc suyundan sonra çörəyi götürüb çeynəyərək çətinliklə də olsa uda bildi. Hərbi xidmətdə olarkən verilən suxarıdan da betər idi, quru çörək. Köynəyini az da olsa qurutmaq üçün zirzəmifdəki məftildən asdı. Ancaq soyuq hava onun canına üşütmə saldığından köynəyini əyninə taxmalı oldu. Bir neçə dəqiqə keçməmiş yaraqlı erməni zirzəmi qapısını açıb Natiqə komandir huzuruna getməyi tələb etdi. Natiq elə süst olmuşdu ki, ermənin tələbini yerinə yetirmək belə istəmirdi. Bir azdan saqqallı Surenin amiranə bağırtısını eşitdi. Niyə belə gecikirsən Mkrtıç. Axı, komandir gözləyir. Saqallı Suren zirzəmiyə göz gəzdirdi. Stəkandakı "su" içilməmişdi. Ara, san na bicovka əsirimişsən ha! O dadlı suyu nıya içmamisan ha? Natiq saqqallıya tərs-tərs baxış göstərib buyurdu ki, o suyu özün içərsən. Qəzəblənən saqqallı stəkandakı suyu götürüb Natiqin üzünə çırpmaq istəyərkən, Natiq maneçilik göstərib stəkan suyunu təpiklə yerə tökdü. Saqqallı Surenə var gücü ilə bağırdı ki, bizim millətdə bicovka olmur. Bicovka sənin özünsən ki, papanın kim olduğunu bilmirsən. Suren hırıldaya-hörıldaya donquldandı ki, sən komandirin dadlı suyunu içmədiyinə görə daha da pis cəzalanacaqsan. Natiq susmağa üstünlük verdi. Mkrtıçın çölə çıxmağı ilə

Aşotun zirzəmiyə girməsi ani oldu. Suren və Aşot Natiqin hərbəsinə baxmayaraq onun qollarından yapışıb qərargaha apardılar. Qərargahda çırthaçırt alovlanan odun peçinin tüstüsü Natiqin burnunu qıcıqlandırdı. Peçin böyründə əyləşmiş komandir Vito avtomatını çiynindən aşırıb stola qoyaraq Natiqi süzdü. Üzbəüz stulda oturmağı tələb edən komandirin sifət cizgilərindən aydın etmək olurdu ki, o kəskin dialoqa hazırlaşıb. Natiqin ani olaraq fikirindən keçdi ki, stol üzərindəki avtomata əli çatsaydı bu alçaqları cəhənnəmə göndərərdi. Hiyləgər Vito Natiqin baxışlarındakı aqressivliyi görüb, avtomatı özünə tərəf  çəkmiş oldu. Üzünə sərt ifadə verən komandir dilləndi:

-hə, de görüm zirzəmidə sən necə dincəldin? Natiq susmağa üstünlük verdi.

Yaxşı bu dincəlmədən razı qalıb, bizim sorğu və əmrlərimizə tabeçilik göstərməyi düşünməmisən ki? Natiq erməni komandirin istehzalı sualını sakitliklə cavabladı.Zirzəmidəki vəziyyət deyəndə, beş gün ac-susuz qalaraq siz işğalçılarla vuruşan və yorğun olan bir insan bir gecə zirzəmidə qalanda və murdarçılıqla qarşılaşanda, üstəlik  üstünə soyuq su töküldüyünü bilən halda özünü necə hiss etməlidi ki? ! Mənim yerimdə sən olsaydın özünü necə hiss edərdin?  İkinci də mən iki il koloniyada hərbi xidmət keçirmişəm və deyə bilərəm ki, yer üzündə əsirə su əvəzinə sidik verən ən alçaq millət elə siz erməni millətçiləriymiş. Səsini kəs! -deyə Vito

bağırdı. Mənim döyüşçülərimi ölümə göndərənlə mən necə rəftar etməliyəm ki? Bəlkə sənə şirin Ağdam çaxırı verməliydim. Allahına dua et ki, sənin bu yekə danışığına qarşı humanistlik göstərərək səbrimi yığıram. Bir də ki, sən əsir olmağını unutma. Və düşün ki,  iyirmi iki Xocalı əsirini hələ dəyişməyə tələsməmişəm. Sən tabeçilik göstərməyib haqq işi uğrunda mübarizə aparan erməni millətini təhqir etmiş olsan əsirləri səninlə bərabər güllələyəcəm. Natiq komandirin üstünə bozarıb qəzəblə bildirdi ki, mən sizin qeyrətsiz bir millət olduğunuzu anlamağa başlayıram. Demək belə çıxır ki, siz biqeyrətlər söz verib yerinə yetirməməyi kişilik sayırsınız! Bizim Azərbaycanda belələrinə tüpürdüyünü yalayan deyillər. İndi siz verdiyiniz vədə xilaf çıxaraq, tüpürdüyünüzü yalamağa başlamısınız. Natiqin bu cür qorxmaz və təhqiramiz haqq sözündən daxilən sınmış kimi görsənən komandir Vito elə qəzəblənmişdi ki, az qala avtomatla onu dəlmə-deşik edəcəkdi. Komandir inadkarlıq və tərslik edən əsiri dilxoşluqla ələ almaq istədi. Türk Natiq baxıram ki, sən əsir olmağını tamam unutmusan. Natiq cavab olaraq buyurdu ki, mənim əsir olmağım Xocalıların azadlığı naminə olmuşdur. Mən tək canam. Ancaq, bilməlisən ki,  əsir aldığınız dinc insanların azadlığı naminə təslim olmuşam. Bilsəydim ki, siz komandir sözünü tutmayıb hiyləgərliyə əl atmış olacaqsınız mən son qanıma qədər vuruşub təslim olmazdım. Komandir Vito anladı ki, əsirlərə qarşı qəzəbli hərəkəti

onu pis vəziyyətə salıb. Odur ki, özünü ələ alıb haqlı olaraq onu təhqir edən türk əsirinə sakitliklə dilləndi:- sən həddini aşma türk əsir! Mən söz vermişəm ki, əsir Xocalılar azad olunacaqdır. Ara Suren, sən əsir məktəb direktorunu digər əsirlərlə bərabər Azərbaycan tərəfinə dəyişilmək üçün Stepanaketə, Baş qərargaha bildirmisənmi?

- Bəli, komandir can, bildirmişəm. Stepanakertdəki Baş qərargahdan bizə məlumat verdilər ki, Ermənistandan gəlmiş yüksək çinli zabit əsirlərlə məşğul olacaq. Bu qətiyyən ola bilməz! -deyə Vito özündən çıxdı. Ermənistandan gələn zabitin əsirlərlə nə əlaqəsi! Məgər siz bilmirsiniz ki, əsirlərin dəyişdirilməsi ilə şəxsən özüm məşğul oluram. Mən verdiyim sözün ağasıyam. Ermənistandan gəlmiş yüksək ranqlı zabitə bel bağlaya bilmərəm. Qərargaha çatdır ki, komandir Vitali Balasanyan əsirləri özü dəyişəcək. Oldu komandir can, -deyib Suren gözdən itdi. Eşitdin, türk Natiq. Biz ermənilər verdiyimiz sözə əməl edənik. Sadəcə sənin inadkarlığın xoşuma gəlmədiyi və biz erməniləri təhqir etdiyinə görə mən səninlə sərt zarafat etdim. İndi keçək əsas məsələyə. De görüm sən yenə bu fikirdəsən ki, bizim müqəddəs Qriqoriyan kilsəmiz sizin torpağınızdır? !

-Bəli, sizin dediyiniz kilsə yox, pir adlanır və Azərbaycan torpağında yerləşir. Torpaq da bizimdir, Pir də. Biz özgə torpağı uğrunda yox, siz ermənilər tərəfindən işğal edilmiş torpaqlarımız uğrunda vuruşuruq. Siz er-

mənilər rədd olub torpağımızdan getsəniz, biz silahımızı sizə qarşı çevirmərik. Vito qəzəbləndi. Əsir Natiq məni cin atına mindirmə. Sənin bu inadkarlığını bağışlamayıb, cəzanı özüm vermiş olacam. Ara Aşot,müqəddəs Qriqoriyan kilsəmizin azad edilməsi uğrunda türk müqavimətçilərinə qarşı vuruşarkən nə qədər qardaşlarımız vətən yolunda canlarından keçiblər? Vito can sizi məlum etmək istəyirəm ki, iki gün ərzində kilsəmiz ətrafında həlak olmuş otuz iki nəfərin cəsədləri tərəfimizdən götürülmüşdür. Əgər son döyüşdə qəhrəmanlıqla təkbaşına döyüş aparmış Ermənistandan olan qardaşımız Karseri də əlavə etsək, olur otuz üç nəfər. Otuz üç igidimiz torpaq uğrunda canlarından keçiblər. Çox acınacaqlısı da odur ki, iyirmi dörd nəfər döyüşçümüz alnından, düz iki qaş arasından güllə yarası alaraq həlak olmuşlar. Yerdə qalan doqquz döyüşçümüz bədənlərinin müxtəlif yerlərindən güllə,yaxud qəlpə yarası almış, kömək olmadığından qanaxmadan ölmüşlər. Onu da deyim ki, həlak olanlar arasında partlayış nəticəsində həlak olanlar da az deyil. Aşotun həlak olanlar dosyesini dinləyən komandirin hirsindən çənəsi səyriyirdi. Çox məəttəl qalmalıdı, -deyə Vito dilləndi. İyirmi dörd nəfər erməni igidi iki qaş arasından güllə yarası almaqla həlak olmuşlar. Bütün bu ölümlər təkbaşına bizimlə vuruşduğunu iddia edən bu çəlimsizin nişangahçı olması ilə bağlıdır, yoxsa kilsədə müqavimət göstərib son anda qaçmağa üstünlük verən türklərin hamısı nişangahçı

olmuşlar. Ara Aşot mənə de görüm kilsədə nə qədər türk müqavimətçisinin meyidi aşkarlanıb? Vito can, vur-tut üç nəfərin cəsədini biz gördük. Yəqin ki, türk müqavimətçilərdən ölənlər çox olub. Bu çəlimsiz əsiri qoyub qaçanlar ölülərini özləri ilə aparıblar ki, ölü sayı az görsənsin. Natiqi acı bir gülmək tutdu. Komandir Vito onun nədən güldüyünü soruşduqda, Natiq cavab verdi ki, bizdə döyüşdən qaçan əsgərlər olmayıb və heç kim özü ilə əsgər meyidini aparmayıb. Mən döyüş postumu tərk etməyib, sizinlə o üç nəfərin həlakından sonra da beş gün olar ki, təkbaşına vuruşmuşam. Belə çıxır ki, iyirmi dörd nəfəri sən təkbaşına alınlarından vuraraq öldürmüsən?

Düz buyururam hə türk əsir,- deyə Vito donquldandı. Natiqin üzündə istehzalı bir təbəssüm yarandı. Komandiri xeyli süzüb buyurdu ki, biz Azərbaycan əsgərlərinin içərisi mən qarışıq hamısı sərrast atəşçidir. Natiqin düşüncəli və haqq cavabı erməni komandir Vitonun bütün hövsələsini pozmuşdu. Komandir Vito anlayırdı ki, ipə-sapa yatmayan bu çəlimsiz türk müqavimətçisi özünə ağır cəza hazırlayır. Çox düşüncələrdən sonra Vito bağırdı: - ara Aşot kilsədə ölmüş türk müqavimətçilərinin cəsədlərini neynədiniz? Nə edəcəyik Vito can. Onlar çoxdan ölmüşdülər və iy verə bilərdilər. Odur ki, onları yeri bilinməyən ərazidə basdırdıq. Onların ölüsünü heç kim tapa bilməz. Düz eləmisiniz, -deyə komandir Aşotla razılaşdı. Erməni düşmənlərinin ölü-

sünü elə itirmək lazımdır ki, tarix boyu itgin sayılsın. İndi onların harada basdırıldığı bizə maraqlı deyil. Natiq insanlığı sual altında olan Vitoya bildirdi ki, həlak olanlar istər erməni tərəfindən olsun, istərsədə düşmən bildiyiniz türk millətindən, fərqi yoxdur. Həlak olanlar insanlıq xatirinə elə dəfn edilməlidir ki, onun yaxınları məzarlarını yad etsinlər. Çünki, hər iki millətin düşmənçiliyinə baxmayaraq həlak olanları analar doğublar. Bu anaların günahı nədir, insan deyillərmi? Sizin bu hərəkətiniz insanlığa qarşıdır. Komandir Vito dözmədi. Ara, kəs səsini! Otuz üç nəfəri qətlə yetirəndə heç insanlıq yadına düşməmişdimi! Millətimin igid döyüşçülərini alnından güllələyən bu qatil, mənə insanlıqdan danışır.

-Bəli, düz buyurursan,-deyə Natiq dilləndi. Haqq döyüşçüsü ancaq insanlıqdan danışa bilər. O otuz üç nəfərin qatili mən yox, nahaqdan torpağımızı işğal etmiş və onları ölümə göndərmiş sizlərsiniz. Sizlərdən fərqli olaraq bizim vuruşumuz haqq vuruşudur. Vito dik ayağa qalxıb sərtliklə elan etdi ki, sizin müqavimət göstərdiyiniz torpaqlar "Böyük Ermənistan"ın bir hissəsidir. Üzünü yenicə peyda olmuş saqqallı Surenə tutub əmr etdi ki, bu inadkar türk müqavimətçisini zirzəmiyə salın, təmiz erməni antibiotik suyundan verin ki, beynindəki torpaq infeksiyasını silib apara bilsin. Bəlkə, bu yaramaz ağıla gəlib qüdrətli erməni ordusunun önündə diz çöküb yalvararaq imdad istəsin. Natiqi zirzəmiyə apa-

ran saqqallı Suren və Aşot Natiqi itələyib zirzəmiyə saldıqdan sonra təpikləməyə başladılar. Natiq üz-gözünü əlləri ilə qapayıb üzüqoylu düşdü. Erməni alçaqlar hər dəfə təpiklədikcə ondan inadkar olub söz güləşdirməməyi və komandirin suallarına bir əsir kimi cavab verməyi tələb etdilər. Natiqi xeyli təpikləyən alçaqlar nəhayət ara verib zirzəmini tərk etdilər. Təpiklərdən Natiqin bütün əzaları sızıldayırdı. O, başa düşürdü ki, bu alçaqlar heç vaxt onu rahat buraxmayacaq və əzablar verərək,son anda bəlkə də öldürəcəklər. Ancaq, mən vətən, torpaq, ana-bacılarımızın namusu uğrunda ölməyə belə hazıram. Nə qədər əzab vermiş olsalar belə mən öz sözümdən dönən deyiləm. Natiq öz dözümlülüyü və əqidə möhkəmliyi ilə ağrılara qalib gəlirdi. Onu düşündürən ata-anası, sevgilisi Sürəyya idi. Öz-özünə suallar yağdırırdı. Görəsən mənim yoxluğuma yazıq anam necə dözür? Atam, qardaşım mənim itginliyim barədə nə düşünürlər? Bəs Sürəyya nə fikirdədir, görəsən, məni yadına salırmı? Yəqin yoxluğuma dözə bilməyib əhdi-peyman bağladığımız Ağcaqayın ağacını ziyarər edir. Yəqin dua edir ki, mən sağ-salamat qayıdım və bizim əhdi-peymanımız yarımçıq qalmasın. Kaş sənin dualaların çin olaydı əziz sevgilim. Bu atam-anam üçün gözlənilməz bir hal olardı. Kaş belə olaydı. Ancaq, ürəyimə damıb ki, bu insanlıqdan uzaq olan erməni alçaqları məni sağ-salamat buraxmazlar. Görünür qismət belə imiş. Talehdən qaçmaq olmaz. Mən düşmənlə haqq işi-

miz üçün vuruşa gəldim, dinc Xocalı sakinlərinin ölümlərinə qıymadım, namus və qeyrətim buna yol vermədi. Təslim oldum. Nə üçün? İyirmi iki nəfərin azadlığı naminə hər cür əziyyətləri,hətta ölümümü də qəbul etdim. Ruhum sakitdir. Və heç bir düşmən əzabı məni haqq yolundan döndərə bilməz! Bu fikir və düşüncələrlə Natiq dərin bir yuxuya getdi. Soyuqdan və təpik ağrılarından bədəni sızıldayan Natiq yeni röyalar ağışuna düşmüş oldu. Budur "Qarabağ şahinləri"-nin fərqlənmiş döyüşçüləri komandirin əmri ilə sıraya düzülmüşlər. Komandir Ala Yaqub ona yaxınlaşaraq döyüşdə göstərdiyi şücaətə görə təbrik edir. Çıxışında yüksəklikdə yerləşən strateji əhəmiyyətli Pirin müdafiəsində göstərdiyi igidliyə görə onu qucaqlayıb bağrına basır. Döyüş yoldaşları bir anlığa Natiqi hop götürüb atıb-tutaraq onunla fəxr etdiklərini bildirirlər. Yaqub Rzayev Səlim kişini qucaqlayaraq belə bir qəhrəman övlad tərbiyə etdiyinə görə ona minnətdarlıq edir. Dursun ananın sevincinin həddi-hüdudu yoxdur. İki əlini oğlunun boynuna dolayan Dursun ana sevincdən göz yaşlarını tuta bilmir. Hələ bir Sürəyyaya bax! Geyimli-kecimli olaraq sevgilisinə əl edib onunla fəxr etdiyini könlünün yolu ilə bildirir. Bütün bədən sızıltılarına baxmayaraq röyanın yaratdığı xoş anlardan Natiqin dodaqlarında təbəssümün ifadəsi görsənirdi.  Sübhə qədər röya xoşbəxtliyini yaşayan Natiqi zirzəminin qapı cırıltısı və erməninin bağırtısı oyatdı. Lakin, Natiq ona xoşbəxt edən şirin röyadan oyan-

maq belə istəmirdi. Zirzəmiyə daxil olan erməni yaraqlısının oyatmaq üçün vurduğu təpiklər ona yeni ağrılar gətirdi. Özünü qorumuş halda üz-gözünü təpiklərdən qorudu. Erməni yaraqlı Natiqin oyandığını görüb təpiklərinə ara verdi. Dur ayağa, bura istirahətə gəlməmisən! Axşam yediyin təpiklərin ağrıları yəqin səni ağıla gətirmiş olar. Əgər ağıllanmasan bir azdan komandir səni elə cəzalandıracaq ki, ağıla gəlmiş olacaqsan. Çörək və bir stəkan suyu karton üstünə qoyan qansız Aşot donquldanaraq getdi. Bədən əzalarının verdiyi küt ağrılara baxmayaraq yuxudan oyanan Natiq dikəldi. Səhərin gözü açılmamış Aşotun vurduğu təpiklərə biganə yanaşmalı oldu. Axşam köynəyinin islanmış suyu onun susuzluğunu yatırmamışdı. Dodaqları çat-çat olmuşdu. Xeyli su içmək istəyirdi. Kartona tərəf göz gəzdirdi. Yenə həmin köpüklü stəkanı görüb, erməni alçaqlarını lənətlədi. Çörək yenə qupquru və yaşıl kiflə əhatə olunmuşdu. Əlləri ilə kifi təmizləyib bir çimdik götürərək ağzına atdı. Çeynəsə də uda bilmədi. Az qala boğulmuşdu. Susuzluq onu taqətdən salırdı. Birdən gözünə şehlənmiş truba dəydi. Paslı trubanın üzərində şehdən yığılmış şəffaf suyu görüb trubaya doğru dikəldi. Dodaqlarını trubaya dayayıb şeh damçılarını somuraraq taqətləndi. İndi qurumuş çörəyi çeynəyib rahatlıqla həzm etmək olardı. Şəffaf şeh suyu ona bulaq suyu kimi təravətli göründü. "Bulaq"suyu və kifli boyat çörək onu az da olsa dirçəltdi. Bayırda özlərinin it dilində donqul-

danaraq bağıran erməni yaraqlıların çox qəzəbli olmaları danışıqlar tonundan aydın hiss olurdu. Bir azdan bağırtılara son qoyuldu. Zirzəminin qapısı cırıltı verərək açıldı. Gələnlər iki nəfər erməni yaraqlısı saqqallı Suren və insanlıqdan uzaq olan Aşot idi. Natiqi sorğu-sual etmədən qollarına girib zirzəmidən bayıra çıxardaraq qərargaha daxil oldular. Yenə həmin odun peçinin burun qıcıqlandıran tüstüsü və bu tüstünün yaratdığı kölgədə komandirin dumanlı surətini görən Natiq anladı ki, yenə onu tutduğu haqq mövqedən çəkinməyi tələb edəcək sorğu suallar başlayacaq. Suren və Aşot Natiqin qollarından bərk yapışaraq ayaq üstə komandiri dinləməyə məcbur etdilər. İndi komandirin istehzalı təbəssümü və nifrətli gözləri aydın görsənirdi. Komandir əsir Natiqi ayaqdan-başa süzərək dilləndi.

-Ha, necəsən əsir Natiq? Dünənki təpiklərin ağrısını hələ unutmamısan, yəqin. Özünü necə hiss edirsən? Komandir Vitonun ironiyalı sualı onu qıcıqlandırdı.

Sizlərin əsirlərlə olan "humanist"münasibətindən sonra özümü əsil Azərbaycan döyüşçüsü hesab edirəm!

Əsir və taqətsiz türk müqavimətçisinin söz xəncərini həzm edə bilməyən komandir Vito Natiqə doğru addımlayıb, gözlənilmədən ona tərs bir sillə vurdu. Aldığı təpiklərin ağrısından ayaq üstə güclə dayanan Natiq zərbədən səndirləyərək arxası üstə yerə yıxıldı. Yerə yıxılan Natiqi ayağa qaldırmaq üçün ona yaxınlaşan Aşot və Sureni özündən kənara itələyib, zor da olsa ayağa

qalxdı. Gözləmədiyi bu sillə Natiqi qəzəbləndirdi. Baş barmağını komandirə tuşlayaraq bildirdi ki, siz erməni işğalçıları heç vaxt türk əsgərini haqq vuruşunda aciz edə bilməzsiniz. Gec-tez Azərbaycan torpaqları siz işğalçılardan azad olunacaq və sizlər sizin olmayan torpaqlarımızdan rədd olub gedəcəksiniz. Natiqin baş barmağını silkələyərək etdiyi alovlu çıxışı Komandir Vitonu bərk sarsıtdı. Sarsıntı o qədər təsirli olmuşdu ki, Vitonu qəzəbdən əsməcə tutmuşdu.

Bu əsir nə çərənləyir belə? !

Komandir Vito ikinci bir zərbəni vurmağa hazırlaşırdı ki, zirzəmidən əlində stəkan gələn Mkrtıç bağırdı ki, bu əsir yenə də stəkandakı suyu içməyib. Vito Mkrtıça bağırdı. At getsin stəkanı Mkrtıç! Bunun cəzası tamam başqadır. Bu inadkar və tikanlı türk müqavimətçisi əsil cəzasını indi almış olacaq.

Aşot məni eşidirsənmi?

- Bəli, komandir can. Tez mənə qəssab Arturu tap!

Bir azdan qəssab Artur xəncəri ilə peyda olub əmrə müntəzir dayandı. Bu inadkar əsirin mənə tuşlanmış olan baş barmağını kəsərsən və o bilər ki, əsir ola-ola qalib komandirə hədə gəlib baş barmağı tuşlamaq olmaz. Qəssab Artur hazır vəziyyət aldı. Vitonun bir işarəsi ilə Aşot və saqqallı Suren onun qollarından yapışıb müqavimət göstərməsinə baxmayaraq zorla sürütləyərək zirzəmiyə apardılar. Ayaqlarını və qollarını kəndirlə bağlayıb dizi üstə oturmağa məhkum etdilər. Bir azdan

qəssab Artur yekə gövdəsini zirzəmiyə soxub əsirə yaxınlaşdı. Aşota və Surenə bir siqaret yandırıb lazım olduğu təqdirdə ona verməsini bildirdi. Aşot və Suren qəssabın siqaret möcüzəsini çox gördüklərindən hər ikisi siqaret yandırıb tüstülətdilər. Qolları biləkdən bağlı olan Natiqin baş barmağını bir göz qırpımında xəncərlə sivirən qəssab Artur közərən siqareti kəsilmiş barmağa toxundurduqda Natiq ağrıya dözməyib zarıdı. Natiq bircə onu deyə bildi:- insan qanına susamış şərəfsizlər! Ağrıdan huşunu itirən Natiq bayıldı. Kəsilmiş barmağın çox qan itirməsinə yol verməmək üçün cəlladlar kəsilmiş barmağın özünü də nazik kəndirlə bağladılar. Siqaretin közündən kəsilmiş barmaq yarası qaysaqlanmağa başladı. Barmaq qanının axıntısı dayansa da, Natiq huşunu itirmişdi. Qəssab Artur, Aşot və Sureni agah etdi ki, artıq onun ayaq və qolunu kəndirdən azad etmək olar. Çünki, huşunu itirmiş əsir çətin ki, bir neçə saata özünə gələ bilsin. Lakin saqqallı Suren və Aşot əsirin kəndirinin açılmasına qarşı olub bildirdilər ki, komandir deməyincə əsiri kəndirlərdən azad etmək olmaz. Qana susamış şərəfsizlər zirzəmini tərk edib, komandirə hesabat verdilər ki, verilən əmri yerinə yetiriblər. Vito Aşota bildirdi ki, əsirin nəbzini yoxlayın ki, ölüm hadisəsi belə tezliklə baş verməsin. Hələ bu əsir bizə lazım olacaq. Aşot və Artur gecələr bir neçə dəfə huşunu itirmiş əsirin nəbzini yoxlayıb getdilər. Yolda Artur Aşota dedi ki, əsir çox möhkəm adamdır. Ürəyi və nəbzi yaxşı

vurur. Səhərə yaxın Aşot və Artur yenidən zirzəmiyə gəlib əsirin ayılmadığını görüb, Surenlə məsləhətləşməli oldular. Suren bildirdi ki, bir vedrə suyu üzünə əmdərin oyanmasa, sillələyin. Yəqin ki, oyanmış olacaq. Aşot bir vedrə suyu huşsuz olan Natiqin sifətinə əmdərdi. Natiq hövlank olaraq nəfəsi gəlmişlər kimi dik başını qaldırıb durmaq istəsə də ağrılardan zarıdı və əl-qolunun kəndirlə bağlanmasından dikələ bilmədi. Bir azdan komandirin çağırış səsini eşidən Aşot, Surenlə bərabər hal qaziyəni ona çatdırdılar. Zirzəmini ermənilərin tərk etməsindən sonra Natiq anladı ki, dünən ona işgəncə veriblər. Bütün bədəni ağrılardan sızıldayırdı. Üstəlik şərəfsizlər ona su əmdərərək üşüməsinə də səbəb olmuşdular. Əlini yerə qoyub dikəlmək istəyirdi ki, kəsilmiş barmağının ağrısı onu taqətsiz etdi. Bir xeyli uzanılı qaldı. Bir azdan Aşot və Suren zirzəmiyə daxil olub, onun qollarını və ayaqlarını kəndirdən azad etdilər. Suren əsir Natiqi süzüb istehzalı gülüşlə soruşdu:

-Hə necəsən, əsir bratan? Barmağın necədi? De görüm inadkarlığından yaranmış bu işgəncələr səni ağıllı etdimi?

Natiq acı bir təbəssümlə onu süzüb düşündü ki, köpək oğlu erməni elə bil iki gündə dilimizi öyrənib. Necə də əclaf təmiz danışır.

Hə niyə susursan, əsir bratan? Sənin heç canına yazığın gəlmir. Mən sənin yerinə olsaydım komandirə deyərdim ki, bütün torpaqlar erməni torpağıdır. O vaxt görə-

cəkdin ki,  humanist erməni komandiri səni bağışlayacaq. Son anda əzablardan qurtulub evinə gedəcəkdin. Natiqin dişi bağarsağını kəsirdi. Bir tərəfdən əza ağrıları, digər tərəfdən vətənsiz erməni şərəfsizin onu ələ almaq cəhdi, özləri kimi vətənə xayin çıxartmaq arzusu. Natiq qəzəbini gizlədə bilmədi. Çıx bayıra, şərəfsiz və vətənsiz erməni! Mən bir can üçün vətənimi, torpağımı sata bilmərəm. Satqın və şərəfsiz olmaqdansa, şərəfli ölüm daha yaxşıdır. Saqqallı Suren dəhşətə gəlmişdi. O anladı ki, əsiri tutduğu mövqedən döndərə bilməyəcək. Belə adamlar vətən və torpaq yolunda ölümü qəbul edən fövqəl insanlardır. Suren Natiq böyüklüyü qarşısında sarsıldığını duyub, zirzəmini tərk etdi.

İslanmış paltarları bədəninə nəm verdiyindən Natiqin canına üşütmə düşmüşdü. Bir tərəfdən üşüyən bədəni, digər tərəfdən kəsilən barmağının sızıltıları onu getdikcə taqətdən salırdı. Natiq dözümlü olduğundan ağrılarının dərdini çəkmirdi. O, düşmənə təslim olmaq qərarı verəndə çox gözəl bilirdi ki, hansı çəzalar ona verilə bilər.  O, bu işgəncələrə mənən özünü hazırlamışdı. Belə çətin anlarda hərbi xidmət dövründə olduğu kimi şirin xəyallara qapılıb özünü ağrılardan, fikirlərdən uzaq tutaraq xəyali anlarını yaşayardı. Xəyallar onun əzab-ağrılarının ən yaxşı dərmanı idi. Odur ki, arxası üstə uzanıb mavi səmanın ümidvericisi olan sirdaşları ulduzlarla dialoqa girə bilməsə də, beynində məskunlaşmış yaddaş xəyalı ilə dialoq yaratmaq qərarına gəldi.

İlk beyninə hərbi xidmətdə olduğu komandiri İslam düşdü. İslam yəqin ki, hərbi xidmətdən uzaqlaşaraq vətəninə getmiş olar, -deyə düşündü. Bəs, Azərbaycanlıları öz doğma yurdundan zorla qovan ermənilərə qarşı etiraz səsini ucaldıb, təəssüf hissi keçirən erməni Vartan görəsən haradadır? Əgər o bu döyüşən ermənilər içərisində olsaydı mənə verilən işgəncələrə qarşı etiraz edərdimi? Erməni vəhşiliyinə qarşı çıxardımı? Yox, inanmıram ki, Vartan mənə işgəncələr verən ermənilər kimi vəhşilik törədə bilsin. İnanmaram ki, Vartan əlinə silah alıb haqqa qarşı çıxmış olsun.Görəsən düz düşünürəmmi! Vallah-billah bu dünyanın çərxi-fələk işlərindən baş açmaq olmur. Hər halda allah bilər. Görəsən atam-anam nə edirlər? İndi yəqin anamın allaha ümidli olan əlləri göylərə baş qaldırıb sağ qalmağıma duaçıdır. Yazıq anam mənim bu halımı görsəydi ürəyi dözməzdi. Biçarə sevgilim Sürəyya yəqin ki, gecəli-gündüzlü məni düşünür. Bizim sevgimiz ilahi bir sevgidir. Kür sahilindəki Ağcaqayın ağacı altındakı görüşlərimiz, əhdi peymanımız unudulmazdır. Beyninə və ürəyinə hakim kəsilmiş Sürəyya sevgisi könlündə şəffaf su tək misralanaraq bu pak və ülvi sevgini tərənnüm edirdi. İlahi qüvvənin təb gətirdiyi bu sevgidən doğan misraları nakam saxlamaq istəməyən Natiq misraları harasa həkk etməyi düşünürdü. Budur, hələ də nəmi çəkilməmiş ağac budağının nazik bir hissəsindən qələm düzəltmiş olaram. Bəs qələmin mürəkkəbin necə tapım? Aha,

tapdım! Kəsilmiş barmağımın qaysaqlanmamış bir hissəsində görünən qandan mürəkkəb yaratmaq olar. Qələmi yaralı barmağının qanlı hissəsinə toxundurub əlini yazdı. Hərflər aydın görünürdü. Birdən gözü kartona sataşdı. Kartonun təmiz tərəfinə allahın verdiyi təblə sevgisini dilə gətirdi:

Yenə o çağ olaydı,
Sən görüşə gələydin.
Ağaca əl gəzdirib,
Qıyqac baxıb güləydin.

xxx

Sən ağaca baxanda,
Gözüm səndə qalanda,
Titrəyişdən yananda,
Yanmağımı biləydin.

xxx

Sənə baxıb axardım,
Surətinə baxardım,
Sevgidə can yaxardım,
Mənim üçün sən diləydin.

xxx

Yenə o çağ olaydı,
Sevgi elə qalaydı,
Məhəbbət solmayaydı,
Sən sevgimdə mələydin.

Misralanan məhəbbət şeiri başa çatanda, artıq kəsilən barmağın qanı qurumuşdu. Yazdığı şeiri bir də oxuyub təsirləndi. Qanı bahasına yazdığı sevgi şeirini vəhşi ermənilər görməsin deyə, kartonun yazı olan tərəfini tərsinə qoydu. Göyə baxmaq istədi. Vəhşilər onu işıqdan və ümidverici sirdaşları olan ulduzlardan da məhrum etmişdilər. Qaranlıq zülmətinin hökm sürdüyü zirzəmidə sirdaşı olduğu ulduzlarla xəyali olaraq belə danışa bilmirdi. Bir tərəfdən müdhiş ağrılar, digər tərəfdənsə zülmət qaranlığı onu çox darıxdırırdı. Bayırda qırıldayan ermənilərin səsləri eşidilirdi. Bu qırıltı səsləri qışqırıq və bağırtılarla müşaiyət olunurdu. Sanki, zalımların qışqırıq və bağırtıları onu ölüm hökmünə hazırlayırdı. Natiq zirzəminin barmaqlığından gecə qaranlığının sübh işıltısına çevrilmə anını gözləyirdi. Erməni yaraqlılarının əhatəsində hirsli olaraq çıxış edən komandirin qol-qanad açaraq danışığının mənasını anlamaq istəyirdi. Komandir Vito bağırtılı danışığı və əl-qol hərəkətləri ilə yaraqlılarına başa salırdı ki, otuz üç döyüşçüsünün yaxınları onu gecəli-gündüzlü rahat buraxmırlar. Kimisi ərini, qardaşını, kimisi də oğlunu ondan tələb edir. O, isə tələbçilərin sorğularına cavab verməkdə çətinlik çəkir. Nə desin tələbçilərə? Desin ki, çəlimsiz bir türk balası təkbaşına onun otuz üç igidini məhv edib! İndi mən sizdən soruşuram mənim otuz üç yaraqlımı öldürən bu çəlimsiz türk hansı gücə arxalanıib? Susursunuz! Bilirsiniz bu türk öz millətini sevən

və bu yolda ölümü belə qəbul edən əsil igiddir. Görürsünüzmü o işgəncələrə necə dözüm göstərir və bizə vuruş meydanı oxuyur. Bu əsir bizim nifrət etdiyimiz və yer üzündən silib məhv etməyə çalışdığımız bir millətin qəhrəmanı kimi özünü aparır. İndi siz deyin, mən ona hansı çəzanı verim ki, otuz üç nəfər igidimizin ruh kabusu məni bağışlasın. Onu güllələyək, əlbəətə yox! Bu onun üçün asan cəzadır. Dar ağacından asaq.  Yenə yox! Bütün dünya bağıracaq ki, biz vəhşi millətik. Mənim fikirimə görə ən böyük cəza, onu yer üzündən silmək, külünü göyə sovurmaqdır. Mən buna tələsmək istəmirəm. Mən bu türk Azərbaycanlısını hələ də mənən sındıra bilməmişəm. O, qəhrəman erməni xalqının biz nümayəndələri qarşısında diz çöküb yaşaması üçün imdad istəməlidir. O, mənən sınandan sonra ona hər hansı cəzanı versəydim rahatlanardım. Suren indi get o inadkar əsiri yanıma gətir. Suren əsəbləri tarımlanmış Vitoya təzim edib, zirzəmiyə yollandı. Suren zirzəminin qapısını açıb oturaqlı olan əsirin taqətsiz halına qəhqəhə çəkib gülərək dedi:

Ara, sən hələ ölməmisən? ! Nə hayasız adamsan sən ara. Ara mənim barmağımı kəssəydilər çoxdan qriqoriyan kilsəsinin yepiskopu mənə xaç çəkib tabuta qulaylamışdı. Ancaq, sən oturub ya azad olunmağını, ya da növbəti cəzanı gözləyirsən. Azad olunmaq xülyasını unut!  Elə başa düşmə ki, biz səni azad edəcəyik,  sən də gedib vətənində kəsilmiş barmağını igidlik kimi göstə-

rib qəhrəmanlaşacaqsan. Ən əsası cəza haqqında düşün ki, qorxub ağıllanasan. Yeganə ağıllı yol odur ki, gedib komandirin çəkmələrindən öpüb, qriqoryanlığı qəbul etməklə erməni olmağını təsdiq etməkdir. Natiq sual dolu qəzəbli gözlərini saqqallı Surenə dikib, qətiyyətlə bildirdi ki, çəkmə öpmək siz ermənilərin peşəsidir. Azərbaycanlı türkü heç vaxt düşmən qarşısında əyilib çəkmə öpməz! Saqqalı Suren onun qollarından bərk yapışıb bildirdi ki, görürəm sən inadkar ipə-sapa yatmazsan. Səninki cəzalıqdır. Əlbəətə komandir olmasaydı, sənin başını elə bu zirzəmidə kəsərdim. İndi gedək komandirin huzuruna orada inadkarlığını göstər ki, cəzanı tez ala biləsən.

Komandir Vitonun qəzəbli baxışlarını görən Natiq başını daha dik tutaraq məğrurluğu ilə onu sındırmış oldu. Bu məğrur baxışlar qarşısında özünü ələ alan Vito dilləndi:

-Hə, türk inadkar özünü necə hiss edirsən?

Natiq bütün məğrurluğu ilə daha da möhtəşəmlənib gözləri nifrət hissi ilə yanan kinli komandir qarşısında əyilməz olaraq kinayəli təbəssümlə dedi:-düşmən qarşısında necə olmalıyam ki? Əzalarım ağrı versə də, ruhum çox gözəl əhvaldadır. Ancaq, görürəm sizin əzalarınız sağlam görsənsə də, ruhunuz çoxdan ölüb. Artıq siz mənə ruhunuzla deyil, genetik türk nifrəti ilə baxırsınız. Komandir Vito dəli olmuşdu. Nə çərənləyir bu axmaq əsir! Bəri bax dəlisov türk. Mən humanist erməni

komandiri olaraq axırıncı dəfə səni xəbərdarlıq edirəm. Ya sən bizim əmirlərimizə tabe olub inadkarlıq göstərməyəcəksən və təslim olmuş əsir olaraq bizim bayrağımız altından keçəcəksən. Ya da ki, . . . Nə yada ki! -deyə Natiq bağırdı. Məni öldürəcəksən. Mən heç nədən qorxmuram! Qorxaq sizsiniz ki, xeyli döyüşçülərinizi öldürdüyüm halda, siz mənə xırda-para cəzalar verməklə, məni mənən sındırıb, sonra öldürməyə qərarlı olasınız. Yaxşı bilirəm ki, alçaqlıq sizin əsil simanızdır. Mən həm də yaxşı bilirəm ki, otuz üç nəfər qorxaq erməni yaraqlısını cəhənnəmə göndərdiyimdən, siz məni geci-tezi ölümə məhkum edəcəksiniz. İstədiyiniz alçaqlığa gedə bilərsiniz. Mən təslim olduğum andan ölümümü qəbul etmişəm! Vito cin atına mindi. Qəzəbindən çənə əzələləri səyriyirdi. Gözləri qisas odu ilə od tutub yanırdı. O, bərk bağırdı. Tez Arturu tapın! Səninləyəm saqqallı! Qəssab Arturu gətir yanıma. Bir neçə dəqiqə keçməmiş Artur əlində xəncər peyda oldu. Hanı sənin baltan? Bu dəqiqə gətirirəm. Suren, Aşot bu inadkar yaramazın qollarını və ayaqlarını möhkəm bağlayın. Artur, eşidirsən məni! Bu əsirin əllərini biləyindən kəsirsən. Qollarını bərk bağlayın ki, qanaxmadan tezliklə ölməsin. Mən onu əzablarla qətlə yetirəcəm. Natiq ölüm anının yaxınlaşdığını hiss etdi.Tez kəsilmiş barmağının qaysaqlanmış yarasını qopardaraq qan axıntısını sellədib üz-gözünü qana boyadı.Erməni yaraqlıları türk əsirinin bu hərəkətindən heyrətləndilər.Yaraqlı

ermənilər əsirə yaxın düşə bilmədilər.Heyrətlənən erməni komandir əsirdən niyə belə etdiyini soruşduqda başını dik saxlayıb məğrurluğunu nümayiş etdirən türk balası qəh-qəhə çəkib güldü. Erməni yaraqlılarının gözləri baş verənlərdən bərəlmişdi. Özünü sındırmayan Vito əsirə yaxınlaşıb yenidən soruşdu.De görüm barmağının qanını sifətinə nədən sürtdün? Ulduzların məni agah etdiklərinə əsaslansam qəti deyə bilərəm ki, dövləti uydurma olan bir millətin tarixi də uydurmadan ibarətdir. Uydurma tarixi olan siz ermənilər heç vaxt başqa millətlərin tarixini bilməzlər. Sən, öz tarixini bilməyən komandir hardan biləsən ki, nifrət etdiyi millətin Babək kimi qorxmaz qəhrəmanları olub. Bizim milli qəhrəmanımız Babək də vətən-xalq üçün düşmənlərə qarşı mübarizə aparıb. Azərbaycan xalqının bu qəhrəman oğlu əsir düşüb qolları kəsiləndə bilirsənmi düşmənlərinə nə deyib? Komandir başda olmaqla bütün erməni yaraqlıları susaraq bu möcüzəli insanı sakitcəsinə dinləyirdilər. Natiq isə sözünə davam edərək deyirdi.  Deməli bilmirsən? Babək qollarının qanını üzünə sürtməklə düşmənlərinə bildirib ki, insan öləndə üzü ölüm nişanəsi olaraq ağarır.Çox yaxşı bilirəm ki,sizin sayını bilmədiyim erməni döyüşçülərinin cəhənnəmə göndərdiyimi mənə bağışlamazsınız.Bunu mən sizin qana susamış murdar baxışınızdan əsir düşdüyüm andan hiss etmişəm.Odur ki,öləcəyimi bildiyim halda istəməzdim ki,sizin kimi bişərəf düşmənlərim mənim ağaran sifətimi görsünlər. Başa düşdünmü, tarixsiz-vətənsiz uydurma ko-

mandir?! Vitonun qəzəbdən bütün bədəni əsirdi. Titrəyən əlləri siqaretini belə tuta bilmirdi. Nəhayət özünü ələ alıb buyurdu:-ay bədbəxt əsir. Mənim nəyimə lazımdır sizin Babəkiniz. Erməni xalqının qəhrəmanı Sasunlu Davidi tanıyıram, bu mənə kifayət edər. Natiq erməni komandirin sayıqlamaqla özünü itirditiyini görüb vüqarlı olaraq bildirdi. Dediyiniz David adlı erməni qəhrəmanınız adından göründüyü kimi, ermənidən çox türkün övladıdır. Siz onu erməniləşdirmisiniz. Axı torpağı, vətəni, tarixi, olmayan bir millətin necə milli qəhrəmanı ola bilər?! Komandir Vitonun qəzəbinin son anı çatmışdı. O, həyatı boyu belə bir möhkəm xarakterli və dözümlü əsir görməmişdi. Bu əsir yaralı halda belə mənən sınmaq bilmir. Belə bir əsir sağ qaldığı halda erməni xalqına və dövlətinə təhqir kimi görsənəcək. Saqqallı Sureni və Aşotu çağırıb bildirdi ki, bu əsirin sağ qalması otuz üç döyüşçümün ruhuna təhqir ola bilər. Aparın onu, istədiyiniz qədər işgəncələr verib, yandıraraq külünü göyə sovurun. Bu əsiri müqəddəs erməni torpağında dəfn etmək qətiyyən olmaz!

Bəli qaniçənlər, -Aşot və Suren qəssab Arturla bahəm onlara hərbə-zorba gələn dəyanətli türk əsirini ayağı və qolları bağlı halda sürütləyərək təpəliyin görünməz etdiyi gizlin bir yerə apardılar. Vətən, xalq, torpaq uğrunda ölümü qəbul edən türk balası üzünü göyə tutdu. Hava qaranlığında sıralanmış ulduzlar daha parlaq görünürdülər. Ulduzlar möhtəşəm türk balasına ürək-dirək verərək onu agah edirdilər ki, sən ölməzsən. Sənin yerin bizim yanı-

mızdadır. Biz baş verənlərə şahidlik edərək sənin yolunu öz sıralarımızda gözləyirik.

Qana susamış erməni yaraqlıları böyük bir ocaq qalamışdılar. Çırtıltı ilə yanan ocaqda alovdan doğan qığılcımlar göyə üz tutub sanki ulduz olmaq istəyirdilər. Türk balası çox yaxşı dərk edirdi ki, onun son yolu ölməzlikdir. Çünki, o anası torpaq, atası od olan vətənin oğlu idi. Oddan yaranan fövqəlbəşər insanlar,oda atılsalar da heç vaxt ölmürlər. Bəli,ocaqdan tüstü yox, ancaq göylərə üz tutan qığılcımlar ana torpağa işıq saçırdı. Ocağa tamaşa edən və verdikləri cəzadan türkə olan nifrət və kinlərini soyudan qana susamış vəhşi erməni yaraqlıları özlərini qalib kimi hiss edərək, özlərinin olmayan torpaqda möhkəm dayanmaq istəyirdilər. Elə bu dəm alovu ilə zülmətə işıq saçan ocaqdan qopan böyük bir qığılcımın parıltıya çevrilərək göyə üz tutması erməni qaniçənlərini parakəndə halına salmış oldu. Qorxularından zağ-zağ əsən ermənilərin ayağı altındakı torpaq, torpaq nəfislilərin ayaqlarını yandırırdı. Onlar parakəndə halında kolkosda gizlənib baş vermiş möcüzədən dəhşətlənirdilər.Ulduza çevrilən Türk ruhu ulduzlar sırasında yer alıb, tarix boyu qorxaqcasına yaşayan ermənilərin kol-kos parakəndiliyini seyr edirdi. Bəli, yalnız fövqəlbəşər və heyrətamiz insanlar ölməzliyə yüksəlib bir ölməz ulduz ruhu olaraq əbədiyyət ulduzlarına qovuşa bilirlər.

**S O N**

# HEKAYƏLƏR

## NƏ SEVİB, NƏ DƏ SEVİLİB

İki dağətəyi evləri Suliudərə çayı asma körpü ilə birləşdirirdi. İki dağətəyi ərazinin birində Azərbaycanlılar, digərində isə Ermənilər yaşayırdılar. Azərbaycanlılar yaşayan məkan Doğanlı kəndi, ermənilər yaşayan məkan isə Doğanes adlanırdı. Tarixi bölgüyə görə Doğanlı kəndi Azərbaycan Respublikasına, Doğanes isə Ermənistan Respublikasına ərazi vahidi olaraq tabe idilər. Əslində bu iki kənd nəhəng Sovetin doğmalaşmış və qaynayıb qarışmış kəndləri idi. Məmə deyəndən, pəpə deyəninə qədər hamı bir-birini tanıyırdı. Bir də ki, hər iki tərəf ailələr quraraq yaxın qohumlara çevrilmişdilər. Bu qohumluğun digər bağı isə kirvəlik sayılırdı. Demək olar ki, sünnət olunan bütün müsəlman uşaqlarının kirvələri ermənilər olurdu. Əslində Azərbaycanlılardan fərqli olaraq ermənilər tarixən türkə qarşı kinli olub türk qanının axıdılmasından feyziyab alardılar. Keçmiş milli toqquşmaları beyinlərindən silən Azərbaycanlı türkləri keçmişdə olanlar keçmişdə qalıb, -deyə

qohumcanlı olmağa üstünlük verən insanlar idi. Sovet dönəmində Ermənilər Moskvanın qayğısını hiss edərək din bir qardaşlarına örtülü də olsa minnətdarlıq edirdilər. Çünki, ət, yağ və digər ərzaq məhsulları ermənilərdə bol olduğu halda, bütün yeraltı və yerüstü sərvətlərini ümumi vətənimizin paytaxtı olan Moskva şəhəri qüdrətli olsun deyə mərkəzə ötürən Azərbaycanda ət əvəzinə sür-sümük, yağ əvəzinə neftdən və ya ağacdan alınmış marqarinlər üstünlük təşkil edirdi. Əkinçiliklə məşğul olan Doğanlı kəndinin camaatı göy-göyərtilərini ağayana yaşayan Doğanes ermənilərinə sataraq, ət-yağ alıb dolanışıqlarını təmin edərdilər. Doğanlı kəndinin əhli düşünməzdi ki, niyə Doğanes əhli bu cür hallı yaşayırlar. Asma körpünü yarım saata aşıb göyərtisini sataraq ət-yağını əldə edən Doğanlı əhalisinə çətinlik olmadığından belə "xırda-xuruş" işlərə baş qoşmazdılar. Hətta, kirvəlik qohumluğu olanda erməni kirvə bolluca ət-yağ gətirib, bir yük maşının göyərtisini aparardı. Nə isə, bu kirvəliklər çox sonralar qan sevən ermənilər üçün xeyli müsəlman qanı axıdılmasına rəvac vermişdi. Bütün bu "xırda-xuruş" fərqlərə baxmayaraq dediyim kimi, Doğanlı və Doğanes camaatı "mehriban" yaşamaqda idilər. Doğanlı kəndinin hələ cavan rəhmətə getmiş Əlimusa kişidən olan Şəfa və Səfa bacılarının talehi də sonralar bəd gətirmişdi.

Şəfa əmisi oğlu ilə ailə qurub Məhəbbət adlı oğul sahibi olmuşdu. Səfa isə, Doğanesli Arşak adlı bir ermə-

ni cavanına qoşulub qaçaraq qız övladı dünyaya gətirmişdi. Ərinin təhriki ilə qıza Susanna adı verilmişdi. Uzun müddət hərbi xidmətdən yayınan Arşakı nəhayət əsgər aparmışdılar. Rusiyada hərbi xidmət keçirən Arşak orada dini bir olan rus qızı ilə ailə qurub bir daha geri qayıtmamışdı. Dul qalan Səfa qızını təkbaşına böyütməkdə davam etmişdi. Susannanı xalası gilə qonaq gələndə Süsən olaraq çağırardılar. Məhəbbət böyüyüb ərsə çatanda hərbi xidmətə yollanmışdı. Hərbi xidmətin ilk aylarında komandir tərəfindən yüksək qiymət verilən Məhəbbəti hərbi xidmətdə olan ermənilər bəyənməz və ona “tork” deyərək istehza edərdilər. Bu belə bir vaxta təsadüf etmişdi ki, erməni millətçiləri Qarabağda və Ermənistanda millətçilik şovinizmi ilə az qala Sovet hökumətinin başçılarını milli şovinizmi infeksiyası ilə zəhərləməyə başlamışdılar. Zəhərlənmiş bu başçılar erməni vəhşiliyinə göz yumub, erməni millətçiliyinin genişlənməsinə şərait yaratmışdılar. Bu millətçiliyin qığılcımları Sovetlər ölkəsində alova çevrilməkdə idi. Belə bir vaxtda erməni hərbi xidmətçiləri boyunlarına xaç asaraq, xaçkar qardaşlarına dini birlik münasibətini nümayiş etdirirdilər. Məhəbbət evlərinə yazdığı məktubda dönə-dönə bildirirdi ki, birdən xalası qızı Süsən anası kimi yolunu azıb erməni dığasına ərə gedər,ha. Bu bağışlanılmaz bir səhv olacaq.

Ermənistanda baş qaldırmış milli şovinizmi Doğanes kəndinə də sirayət etmişdi. Belə ki, Doğanesə ge-

dib göyərtilərini satmaq istəyən Doğanlı kəndindən olan Azərbaycanlılar döyülərək bazardan qovulmuşdular. Sonralar millətçilik eşqi ilə yanan ermənilər Suludərə çayındakı asma körpünü dağıdaraq Doğanlı kəndi ilə əlaqələrini kəsmişdilər. Belə bir çətin anlarda hərbi xidmətini başa vuran Məhəbbət kəndlərinə qayıtmış və ailəsinə, o cümlədən xalasına himayəçi olmuşdu. Xalası və qızı Süsən onların bir otağında məskunlaşmışdılar. Süsənin yarı erməni, yarı Azərbaycan kəlmələri ilə danışması Məhəbbətin ürəyincə deyildi. Xalası Səfa bir neçə dəfə qızını Azərbaycanlı kimi aparmağa sövq etsə də, anasına olan kobud cavabları Məhəbbəti cin atına mindirmişdi. Bir neçə vaxtdan sonra silahlanmış Doğanes kəndinin millətçiləri Doğanlıya hucum edərək silahsız əhalini doğma yurdlarından qovmuşdular. Doğanlı kəndinin əhalisi kəndlərini tərk edərək digər rayonlarda məskunlaşmışdılar. Məhəbbət ağır xəstə olan atasını, anasını və xalası ilə qızını əsgərlik dostu Biləcərili Vahidin evində cəmləşdirib, bir müddətdən sonra Bakıdakı yataqxanaların birində özlərinə xudmani bir otaq əldə etmişdilər. Məhəbbətin xalası qızının bir il əvvəl aldığı pasport qaçaqaçda itdiyindən ona Süsən Ərşad qızı olaraq pasport götürülmüşdü. Qarabağda müharibə alovlananda ailəsini yerbəyer edən Məhəbbət doğma torpaq uğrunda döyüşə yollanmışdı. Erməni yaraqlılarının tərkibində Azərbaycanlılara qarşı döyüşdə qaniçənliyi ilə ad çıxarmış Samvel Arşakoviçin cəlladlığından danı-

şan əsir düşərək, sonradan dəyişilmiş əsgərlərin söhbətləri Məhəbbətin marağına səbəb olmuşdu. Arşakoviç, - deyə Məhəbbət dodaqaltı pıçıltı edərək əsəbləirini cilovlaya bilmirdi. Ürəyinə dammışdı ki, bu cəllad Samvel Süsənin ögey qardaşı ola bilər. Odur ki, ermənilərlə vuruşmağa gedəndə çalışırdı ki, bu cəlladın peşini əldə edə bilsin. Döyüşlərin birində kəşfiyyata gəlmiş  və guya milli qardaşlarına kömək üçün buyurmuş Samvel Arşakoviç zərərsizləşdirilib əsir götürülmüşdü. Əsir Samvel zahiri görünüşü ilə xalası qızı Süsəndən heç bir halda fərqlənmirdi.  Əsirin sənədlərini nəzərdən keçirən Məhəbbətdə daha şübhə yeri qalmamışdı. Samvel Arşakoviç Qriqoryan! Məhəbbətin, -sən nə üçün bizlərə qarşı silah qaldırmısan sualı Samveli hərəkətə gətirdi. Mən bacım Susannanı qorumaq üçün gəlmişəm. İmkan axtarırdım ki, sizlərə tərəf keçib bacımı taparaq ona himayəçilik edim. Bildiyim qədər onu Azərbaycanlı qohumları özləri ilə aparmışlar. Mən atama söz vermişəm ki, bacımı tapıb gətirəcəm. Məhəbbətə Samvel hiyləsi gün kimi aydın idi. Samvel də atası Arşak kimi saxta cəlladın biri idi. O, əsir düşdüyündən qurtulmaq üçün hiyləgərlik edirdi. Odur ki, Məhəbbət Samveli imtahana çəkmək istədi. Yaxşı bacısını axtarıb qorumaq istəyən qardaş nədən cəllad olub Azərbaycanlı əsirlərinə işgəncə vermişdir? Yox bu ola bilməz!-deyə hürkük baxışlı Samvel duruxdu.Bir anlığa özünü ələ alan  Samvel erməni xislətinə rəğmən acizanə olaraq bildirdi ki, o əsir türklə-

rə hörmətlə yanaşıb. Əsir düşüb işgəncə almış Azərbaycanlıları görən Samvel qaçmağa cəhd edərkən ağır güllə yarası almış oldu. O, yalvarışlarla Məhəbbətdən imdad istəsə də, bu riyakar cəlladın yalançı göz yaşlarını nifrətlə süzən Məhəbbət bir güllə ilə onu cəhənnəmə vasil etdi.

Müharibənin bütün dəhşətlərini, ermənilərin torpaq nəfsində olan həyasızlığığını, Azərbaycan əhalisinin doğma yurdlarından didərgin düşməsini haqsızlıq kimi qəbul edən Məhəbbət uğursuzluqlarının əsas səbəbini ordunun parakəndiliyində, bir mərkəzdən idarə olunmamasında, döyüş sursatı ilə təmin olunmamasında görür və təəssüflənirdi. Nəhayət xalq tərəfindən tələb olunan Azərbaycan xalqının şanlı oğlu H. Əliyevin hakimiyyətə gəlişi, ordu quruculuğunda olan yenilik, ümumi səfərbərlik və ordunun silah təhcizatında olan xeyli irəliləyiş ona gətirib çıxartı ki, erməni işğalçılarının döyüşdəki məğlubiyyəti sülh müqaviləsi ilə nəticələnmiş oldu. Bu sülh müqaviləsi iqtisadiyyatı ağır vəziyyətdə olan ölkənin dirçəldilməsi üçün çox vacib idi. Ordudan tərxis olunan Məhəbbət geri qayıdıb bir müddət işsizliyin acı üzünü gördükdən sonra, Rusiyaya hərbi xidmət keçirdiyi şəhərə işləmək və ailəsinə kömək etmək üçün yola düşdü. Tikinti idarələrinin birində sürücü olaraq işə düzələn Məhəbbət subaylar yataqxanasında da yer alıb, qeydiyyata düşdü. Yataqxanada başqa millətin nümayəndələri, o cümlədən Azərbaycanlılar da yaşayır və

müəssisələrdə çalışırdılar. Bəziləri rus dilində ünsiyyət qura bilmədiklərindən bazarda meyvə alverinə rəvac verirdilər. Məhəbbətdən fərqli olaraq bazara üz tutanları ev-eşik sahibi olmaq, gələcəkdə ailəsinə köməklik etmək fikiri maraqlandırmırdı. Məqsədsiz olaraq bazarda alver edib rus qızları ilə ailə qurur, ya da yaşlı dul rus qadınlarının evinə "ər" olaraq daxil olub mənasız yaşam keçirirdilər. Məhəbbət belələrindən uzaq olub məqsədli həyatını davam etdirirdi. İşlədiyi tikinti idarəsində hörmətə malik olduğundan, həmkarlar ittifaqının sədri Vera İvanovna yeni tikilib istifadəyə veriləcək ailəli yataqxanada məskunlaşmaq üçün Məhəbbətə tezliklə evlənməyi məsləhət bildi. Vera İvanovna çox ciddi və təmkinli olan,milli heysiyyətə önəm verən Məhəbbətin digər millətin qızları ilə ailə qura bilməyəcəyini adət-ənənə ilə əlaqələndirirdi.Bununla bərabər Məhəbbət Doğanlı və Doğanes kəndlərinin qaynayıb-qarışmasına baxmayaraq milli ədavət səbəbindən ailələrin dağılmasını, hətta düşmən kəsilməsini gözləri ilə görmüşdü. Odur ki, Məhəbbət öz millətinin qızı ilə ailə quracağını qulağında sırğa etmişdi. Tezliklə məzuniyyət götürüb vətənə qayıdan Məhəbbət anası və xalası gilin yaxşı yaşam vəziyyətini görüb fərəhləndi. Anası və xalası Mənzil İstismar idarəsində süpürgəçi olaraq çalışır, atası xəstəliyinə görə təqaüdlə təmin olunur, xalası qızı Süsən isə yataqxananın birinci mərtəbəsində qadın bərbəri olaraq çalışırdı. Məhəbbət məzuniyyətə gəlməsinin əsas

səbəbini anasına izah edib ailə qurmaq işində köməkçi olmasını xahiş etdi. Anası və bu halətdən xəbərdar olan xalası bir ağızdan yekdil oldular ki, xalan qızı Süsən evlənməyin üçün əsas təklif ola bilər. Məhəbbət ana və xalasının ürəklərini "yox" kəlməsi ilə qırmasa da, dəqiq bilirdi ki, Süsəni sevmir və qanı Arşakdan olan xalası qızı ilə evlənməyi ağlına belə gərirmir. Vaxtı ilə qonşu qızı Gülzarı sevdiyi halda, erməni vəhşilərinin ucbatından pərən-pərən düşmüş kəndçiləri müxtəlif bölgələrdə məskunlaşdığından biçarə Gülzarı haradan tapa bilərdi ki? Yataqxanada da müxtəlif yerlərdən gəlmiş köçkünlərin qızları da az deyildi. Ancaq, Şəfa və Səfa bacıları Süsəndən başqa heç kimi ailə qurmaq üçün məsləhət bilmirdilər. Axır vaxtlar qulağı səs eşitmiş Süsən də xalası oğluna biganəlik göstərməyib ona nəvazişli qayğılar göstərməyi lazım bilmişdi. Süsən barədə ana və xalasının israrlı olmağı və məzuniyyət vaxtının darlığı, eyni zamanda Susənə qarşı sevgi hisslərinin olmaması onu bərk sıxırdı. Məhəbbət Süsənə xalası qızı kimi hörmət edirdi. Ancaq, Məhəbbət nə edə bilərdi? Aıilə qurmaq üçün yaşın vaxtı idi, həmdə ev onun üçün həlledici hesab olunurdu. Yataqxanada qalmaq ürəyincə deyildi. Yaş da buna imkan vermirdi. Məhəbbət qalmışdı iki daş arasında. Sanki, Süsəndən başqa digər evlənəsi qızlar yoxa çıxmışdı. Düzdür Süsənin qanında Arşakın qanı axırdı, ancaq o biçarə atasının heç üzünü görməmişdi. Süsəni isə xalası tərbiyə verib böyütmüşdü. Bir də xatır-

layırdı ki, tez-tez qonaq olduğu Səid ailə qurduğu Səadətlə vaqonda təsadüfən tanış olub ailə qurmuşdu. Onların mehribançılığını, bir-birlərinə olan hörmətini Məhəbbət çox görmüş və onların ailəçiliyinə qibtə ilə yanaşmışdı. Süsən də ki, maşallah dadlı yeməklər bişirməyi, hətta Məhəbbətə qulluq etməyi özünə fərəh görürdü. Süsənin bu qayğılı münasibəti Məhəbbətdə istər-istəməz sual yaradırdı. Axı, niyə xalamqızı ilə ailə qurmayım? Deyirlər ki, sevgi olmayan yerdə hörmət də əhəmiyyətini itirir. Əgər elədisə, vaqonda tanış olub ailə quran Səidin Səadətlə olan mehribançılığı nədən qaynaqlanır? Bir-birlərinə olan hörmətdən. Hörmət varsa, sevgi də yarana bilər. Çox götür-qoydan sonra anası və xalasının xeyir duası ilə Süsənlə ailə qurub Rusiyaya qayıtmış oldu. İki aya yaxın kirayədə qaldıqdan sonra yenicə istifadəyə verilmiş ailə yataqxanasında iki otaqlı mənzilə köçdülər. Məhəbbət evdə səliqəyə ciddi fikir verirdi. Kirayə qaldıqları iki ay ərzində dadlı xörəkləri bişirib Məhəbbəti feyziyab edən Süsənin digər qeyri münasib hərəkətləri Məhəbbətdə təəssüf doğururdu. Süsən qab-qacaqları yumaqdan iyrənər, pal-paltarını ütüləməz və paltarlarını hara gəldi atardı. Ən iyrəncli hərəkətləri isə evə daxil olarkən ayaqqabılarını ayağından səlbə kimi atmağı, corablarını stul-divan altına tullamağı olardı. Belə vaxtlarda Məhəbbət bayatı ilə arvadına təsir etmək üçün təblənərdi:

Əzizinəm bu arvad,
Otağı edir bərbad,
Paltar-corab tullayır,
Təmizliyi olub yad.

Xalası qızına bayatı təsir etməyəndə, Məhəbbət fikirləşərdi ki, müvəqqəti çətinlikdir. Gec-tez təzə evə köçəndən sonra yəqin ki, Süsən səliqə-səhmana diqqət yetirəcəkdir. Lakin belə olmadı. Gözəllik ondur doqquzu dondur məsəlini bayraq tutan Süsən paltar mağazalarından cürbəcür paltarlar alsa da, səliqəsizliyindən əl çəkmədi. Məhəbbət xalasının xatirəsinə Süsənlə hörmətlə dolanmağı üstün tuturdu. Ailəli yaraqxanada məhəbbət və Süsənin iki övladları dünyaya gəldikdən sonra, Məhəbbətə üç otaqlı mənzil verib onu mükafatlandırdılar. Yeni evdə şad xürrəm yaşasalar da Süsən getdikcə ədalı olmağa başlamışdı. Az-çox rusca bilən Süsən yeni qonşularla təmasda olmaqla dəyişilərək özündən razı bir höfkəli qadına çevrilirdi. Məhəbbət xalası qızının bütün ədalarına dözür və filirləşirdi ki, Süsən iki gözəl balamın anasıdır. Hər sözə, hərəkətə irad tutsam ailəçiliyimiz çat verə bilər. Beləcə bir neçə il Rusiya yaşamından sonra Məhəbbət Süsənlə qərarlaşdı ki, beş il keçməsinə baxmayaraq onlar qəribçilikdən yorulmuşlar və vətən, qohumlar üçün darıxmışlar. Yazın orta aylarında məzuniyyət götürən Məhəbbət ailəsi ilə birgə Bakıya getmiş oldu. Anası və xalasının yataqxana evinə

buyuran Məhəbbət və Süsən darısqal otaqlarda köçkün həyatı keçirən ana və xalanın ağır vəziyyətini görüb təəssüf hissi keçirdilər. Bu yataqxanada xəstə atasının dünyasının dəyişməsini eşidən Məhəbbət ikiqat kədərli oldu. Rusiyada gen-bol yaşayaraq ailəsinin çəkdiyi əzablardan xəbərsiz olan Məhəbbət qərara aldı ki, tezliklə evini Bakıya dəyişsin. Maklerlərin köməyi ilə Bakıdakı rus ailəsi ilə evini dəyişən Məhəbbət üç otaqlı mənzilin sahibi olub fərəhləndi. Tezliklə özəl tikinti idarəsində usta olaraq işə daxil olub, yoldaşı Süsəni qadın bərbəri olaraq işləməsinə şərait yaratdı. Anası və xalası süpürgəçiliyə əlvida deyib, məktəbə gedəcək nəvələrin qulluğuna başladılar. Nənələr yaşdaşır, nəvələr böyüyür, Süsən isə ədasının üstünə yeni ədalar gətirirdi. Beş-on manat çax-çuxu olan Süsən səliqəsizliyi o yana dursun, indi də özündən böyüklərə, hətta Məhəbbətə öyüd-nəsihət verməyə başlamışdı. Süsənin üzünü ağardan dadlı biş-düşüydü. Axşamların birində dadlı biş-düşü ilə hamının ağzını dada gətirən Süsən çay dəstgahı zamanı anasına elə nəsihətlər verdi ki, bu ədaya dözməyən Məhəbbət bir qurtum çayı içib boğazını arıtlayaraq Süsənlə bağlı bir bayatı dedi:

Əziziyəm bu arvad,
Arvadlıqda qoyub ad.
Hamıya öyüd verir,
Dilin qoymur farağat.

Məhəbbətin bu haqlı bayatısına nənələr və uşaqlar xeyli gülüb, özündən razı olan Süsəni pərişan etdilər.

İllər keçmişdi. Nənələr dünyasını dəyişmiş, nəvələr ailə quraraq övlad sahibi olmuşdular. Ailə qurmuş nəvələr ayrıca ev sahibi olaraq yaşayırdılar. Süsən qadın gözəllik salonunun ustası olaraq yaşlanmağa meydan oxuyur, cavanlıq eşqi ilə yaşayırdı. Məhəbbət isə çal saçları ilə müdriklik dövrünə qədəm qoyurdu. Məhəbbət Süsənlə qırx ildən çox mehriban ailəçilik sürsədə, Süsənin ədalarına və özündən razılığına göz yumaraq ailəçiliyin uzunömürlü olmasına çalışmışdı. Ara-sıra xəstəlik onu incitsə də, Süsənə agah etməyi lazım bilməmişdi. Günlərin birində tibbi müayinədən keçən Məhəbbətin mədəsində xərçəng olduğunu ona bildirəndə, yenə bu barədə heç kimə fikir söyləməmişdi. Onu fikir götürmüşdü ki, əgər bu ölüm tezliklə peyda olsa, Süsən evi öz adına keçirtmək üçün Mənzil-İstismar idarəsində olmazın əzabını çəkmiş olacaq. Yaxşısı budur ki, evi birdəfəlik onun adına keçirib bu dünyadan rahat köçə bilim. Məhəbbət düşündüyü kimi hərəkət edib evi Süsənin adına keçirmiş oldu. Bu minvalla xəstəliyini hamıdan gizlədib ölümünü gözləyən Məhəbbət sonrakı müayinədə sürprizlə üzləşdi. Həkim onu agah etdi ki, bəs möcüzə baş verib. Mədəndəki şiş daha müəyyən olunmur. Sevincdən yerə-göyə sığmayan Məhəbbət min dəfə allahına şükürlər edib, bu məsələni də sirr olaraq qəlbində gizlin saxladı. Məhəbbət əslində ölümdən qorx-

murdu. O. sadəcə olaraq öz xəstəliyi ilə nə Süsənə, nə də uşaqlarına əziyyət verməyi sevmirdi.

İllər keçirdi. Məhəbbət və Süsən yaşamı Süsənin od, Məhəbbətin su olması ilə davam edirdi. Günlərin birində Süsən Məhəbbətə əyan etdi ki, o anasının addısı nəvəsi Səfanı evə qeydiyyata salmaq niyyətindədir. Yaşlandıqlarını gündəmə gətirən Süsən mülkiyyətlərinin nəvə Səfaya qalmasına Məhəbbətdən razılıq aldı. Beş günlük iş növbəsindən imkan tapa bilməyən Süsən Məhəbbətlə bərabər şənbə günü "Asan"xidmətin qapısında bulundular. Gülərüz qarşılanma, yüksək mədəniyyətli xidmət Məhəbbəti elə karıxdırmışdı ki, vaxtilə ev dəyişərkən, yaxud müxtəlif səpgidə arayış alarkən Mənzil İstismar idarəsinin riyakarlığını, rüşvətini, süründürməçiliyini gördüyündən "Asan" xidmət ab-havası onda fərəh hissi yaratmışdı. Məhəbbət düşünürdü ki, "Asan"xidmət rüşvətin baş almadığı, süründürməçiliyə yol vermədiyi məkan olaraq əsil xalq xidmətçisidir. Məhəbbət mütaliəni sevən bir şəxs idi. Hələ həyatında belə bir xidmət növü haqqında eşitmədiyindən gördükləri onu bərk təsirləndirmişdi. Odur ki, sevinc hissindən təsirlənib dodaqaltı "Asan"xidmətin şəninə bayatı deməyi də unutmadı:

Əzizim dolaşasan,
Görməzsən belə "Asan",
Yaradana min alqış,
Xalqına yar olasan.

Məhəbbət "Asan"bayatısının son misrasını qurtarmamış Süsən onu dümsüklədi ki, bəs Səfanın doğum haqqında şəhadətnaməsini yaddan çıxarıb, özü ilə götürməyib. Heyfsiləndi ki, bir də gələn şənbə gəlməli olacaqlar. "Asan"xidmətin gülərüz işçisi onlara qanun yolu ilə kömək edə biləcəyini bildirdikdə Süsənin üzünü sevinc bürüdü. Gülərüz xidmət işçisi əyan etdi ki, həyat yoldaşınıza etibarnamə verməklə məsələni tezliklə çözmək mümkündür. Süsən razlıq vermiş oldu. Etibarnamə hazırlanarkən, mülkiyyətçi Süsəndən veriləcək etibarnamədə etibarnaməni alacaq şəxsin mülkiyyəti satmasına, dəyişməsinə, yaxud üçüncü bir şəxsə verməsinə razılığı soruşulduqda, Süsən Məhəbbətin gözləmədiyi bir halda kəskin olaraq bildirdi ki, o belə bir razılığı verə bilməz. Ancaq, mənim əvəzimdən nəvəmizi qeydiyyata salmaq hüququ verilsə ürəyimcə olar. Gülərüz xidmət işçisi Süsənin bu qətiliyini görüb, kömür tək qaralmış Məhəbbətə heç nə olmamış kimi təbəssümləndi. Süsənin qırx illik həyat yoldaşına etdiyi etinasızlıq Məhəbbəti vardan yox etmişdi. İndi məhəbbət qırx illik Süsənlə olan həyat yoluna ani olaraq nəzər yetirib anladı ki, Süsən xalası qızı kimi yox, damarında Arşak qanı axan erməni balası kimi hərəkət etmişdir. Məhəbbətin kömür kimi qapqara qaralmasını anlayan Süsən ərini ələ almaq üçün gülərək baş verənlərin səbəbini xidmətçi qızda görüb, özünü təmizə çıxartmaq istədi. Süsəni evə yola salan Məhəbbət birbaşa anasını dəfn etdiyi qəbiristanlığa

getməyi qərarlaşdırdı. Bütün yol boyu həyatını və ömrünü ailəsinə bəxş etdiyi, Süsənin ədalarına dözdüyü halda gördüyü etinasızlıq mükafatını həzm edə bilmirdi. Məhəbbət bu fikirlərdə ikən bir də gördü ki, anasının məzarı yanındadır. Yan-yanaşı dəfn olunmuş ana-ata məzarına kədərlə baxıb doluxsundu. Qəhərdən boğazı kilidlənmiş Məbbətin gözündən qopan yaş damcısı qəbir daşı olan mərmərdə mirvariləşib Məhəbbətin əksini göstərmiş oldu. Mirvaridə əksini görən Məhəbbət ruhu möcüzə də olsa dilə gəlib dedi:-mən sənin ruhunam. Sən isə daşlaşmış cisimsən. Bir daşlaşmış cisim olaraq "yaşadığın"həyatda səmimiliyinlə xeyli əzablar çəkmisən. Buraya nə üçün gəlmisən, yaxşı bilirəm. Mən sənin ruhun olaraq "Süsən mükafatından"xəbərdaram. Sən ruhsuz olaraq Süsənlə sevginlə yox, səmimiliyinlə ailə qurmusan. Qırx illik yaşamda aldığın"mükafat" sevgisiz yaşamın təzahürüdür. Yalnız bu qəbir evində, satılma, bağışlanma, üçüncü bir şəxsə verilmə söhbəti yoxdur. Bura əbədiyyətdir. Hər cür "mükafatdan"uzaq olan əbədi ruh yaşayışı. Bax mən sənin ruhun olaraq, səni tərk edirəm. Sən isə, öz sevgisiz yaşamında" hələ çox mükafatlar alacaqsan,- deyən ruh yoxluğa çevrildi. Daşlaşmış olan Məhəbbət ruhunun söylədiklərindən təsirlənib anladı ki, qırx iilik yaşamında o nə sevib, nə də sevilib.

**S O N**

# BİR NƏSLİN FACİƏSİ
## *( Sərdar kişinin hekayəsi)*

Onlar üç qardaş idilər. Deyilənə görə əslən Qarabağdan olan qardaşlar NKVD işçisi Sarıməmmədin işi ilə əlaqədar olaraq əvvəlcə Qaryagində, sonralar isə Zəngəzur bölgəsində yaşamalı olmuşdular. Zəngəzurun dağətəyi kəndlərinin birində məskunlaşan qardaşlar, min doqquz yüz otuzuncu ildə Pirçivan kimi tanınan və Zəngilan kimi formalaşan rayona təşrif gətirmişdilər. Ağsifət, sarısaç, ucaboy və enlikürək Sarıməmməd bütün Zəngəzur bölgəsində seçilirdi. Bütün bölgə əhli Sarıməmmədə hörmətlə yanaşırdılar. O, at belində, xəncərli, qoburalı olaraq cavan qızların da diqqətindən yayınmırdı. Müəyyən yaş sahibi olsa da, ailə qura bilməmişdi. Bunu gah işi ilə, gah da ki, könlünü oxşayacaq bir xanım qızın bəxtinə düşməməsi ilə əlaqələndirirdi. Cavan qızlar çəpərlərdən boylanaraq bu yaraşıqlı hökumət adamının gəlişinə-gedişinə diqqət yetirib qibtə hissi keçirirdilər. İşi ilə bağlı olaraq bölgənin bütün kəndlərini gəzər, Sovet qayda-qanunun yerlərdə hökm sürməsinə nəzarət edərdi. Günlərin birində kənd Sovetinin keçirdiyi yığıncaqda iştirak edən Sarıməmməd təkə yerişli, incə belli bir xanımın odlu-alovlu çıxışını dinləyib xeyli şad oldu. Çıxışına sonluq verən bu gözəl xanımı sürəkli alqışlayan kənd əhli, sağ olsun bizim Sünbülü

xanımımız, -deyə onu şöhrətləndirdilər. Çıxışa söz veriləndə Mirvari xanım kimi təqdim olunan xanımın Sünbülü adlandırılaraq kənd əhli tərəfindən sürəkli alqışlanması  Sarıməmədin marağına səbəb oldu. Kənd Sovetinin sədri Alqulu kişidən bu barədə soruşanda, cavab olaraq Sovet sədri Sarıməmmədi agah etdi ki, kəndimizin hörmətli tayfası olan İsmayılxanlıların gözü  sayılır Mirvari xanım.  Öz yerişi-duruşu, kişiyanə olaraq tüfəngi çarpaz edərək incə belində gəzdirib at belində şahə qalxan Sünbülümüz kənd arasında deyil, bütün bölgədə kişi qeyrətli xanım kimi hörmət sahibidir.  O, dövlətini sevən bir vətənpərvər xanım kimi kəndimizin ilk firqəçisidir. Sarıməmməd sol əlini başına tərəf aparıb uzun və arxaya daranmış saçlarına sığal verdi. Sağ əli ilə uzun buğunu düyünçək edəndən sonra dodaqaltı Sovet sədrindən soruşdu ki, bəs bu xanım ailə sahibidirmi? Sovet sədri Alqulu kişi arif adam idi və evli olmayan NKVD işçisinin hansı sarı simə işarə vurduğunu anladı. At belində, tüfəngi çiynində meşələrə təkbaşına nəzarət edən Sünbülü xanımın qəlbini bu günə kimi heç kim cürət edib ələ ala bilməyib. Alqulu kişinin deyimlərindən bığaltı gülümsənən və buğlarının ucunu titrəyən əlləri ilə düyünçək edən Sarıməmməd tərs baxışı ilə Sovet sədrinin ürəyinə xal salmış oldu. İclas sonluq verəndən sonra NKVD işçisinin Mirvari xanımla şirin söhbətini görən Alqulu öz-özünə donquldandı. Dilim-dilim olasan, dilim!  Əşi deyən gərək hulqumunu harada sal-

mısan ki, boşboğazlığa yol vermisən. Belə bir vaxtda, ölkədə zindana gedənlərin sayının artdığı bir məqamda.

Yığıncaqdan xeyli vaxt keçməsinə baxmayaraq Sarıməmmədin könlü hələ də Sünbülüsünü görmək eşqi ilə çırpınırdı. İşinin ciddiyəti onun səbirsiz könlünə sanki, sərhəd qoymuşdu. Dövlət işi ilə əlaqədar olaraq Bartaz kəndini nəzarətdən keçirən Sarıməmməd könlünün tələbi ilə yolunu Sobu kəndinə tərəf salmış oldu. Birdən sıx ağaclar arasında at kişnəməsini eşidib, əlini qoburundakı naqanına doğru aparıb hazır vəziyyətdə olaraq diqqətini sıx meşəlikdəki at kişnəməsi tərəfə yönəltdi. At belində şux dayanıb tüfəngini çiynindən düşürən Sünbülünü görüb, ürək tellərinin titrəyişini hiss etdi. Əsən xəfif külək Sünbülü ətrini onun burnuna doldurub elə qıcıqlandırdı ki, tək asqırtının exosu bütün meşəyə əks səda vermiş oldu. Göyə bir atəş açdı. Atını Sünbülü tərəfə yeyinləşdirərək harayladı ki, qorxmasın NKVD işçisi həməşə ayıqdır. Hündürboylu, şax duruşlu, Stalin baxışlı hökumət adamı olan NKVD kavaleristi Sarıməmmədi görən Mirvari xanım heyrətləndi. Tüfəngini atəş vəziyyətinə gətirən meşələr bəyi Sünbülü xanım şükr etdi ki, onu qabaqlayan Sarıməmmədin göyə atdığı yaylım atəşi onu atəş açmaqdan vaz keçməyə məcbur etmişdi. Daxilən sevinirdi ki, nə yaxşı bu yaraşıqlı, cəlbedici NKVD işçisini güllələbaran etməyib. Axı, o neçə illər idi ki, meşənin gözəlləri olan ceyran-cüyürləri ovlamaq istəyənlərə qarşı silah işlətməyi qorxma-

dan bacarmışdı. İndiki halda isə meşələr bəyi olan Sünbülü xanımla bölgədə tanınan NKVD kovaleristi, qoburalı, xəncərli və yaraşıqlı Sarıməmməd arasında könülləri titrədən sarı sim dayanmışdı. Bu sarı sim talelərin birləşməsinə və birgə ailə yaşayışına səbəb yaratmışdı. Bu ailənin təməli min doqquz yüz otuz ikinci ildə qoyulmuş oldu. O vaxtkı qanunlara görə dövlət adamlarının ailə quraraq izdivaca daxil olmaları təmtaraqlı olmazdı. Odur ki, Sarıməmmədlə Mirvari xanım sakitcə nigaha girib ailə qurmuşdular. Şad və xürrəm yaşayan ailənin min doqquz yüz otuz üçüncü ilində bir oğlu, iki il sonra isə qızı dünyaya göz açmışdı. Oğlan qaraqaş, qaragöz olaraq anasına çox oxşar olsa da, sarışın qız eyni ilə atasına çəkmişdi. Oğlan uşağının adını Rahib, qızı isə Sara deyə adlandırmışdılar. Sarıməmmədin təklifi ilə Mirvari xanım meşəbəyi işinə son verib uşaqlarının tərbiyəsi ilə məşğul olmağa başlamışdı. Ölkədə vəziyyət gərginləşmişdi. Bu da kolxoz və sovxozların yaranması ilə əlaqədar olmuşdu. Birgə təsərrüfata razılıq verməyən əhali öz ev heyvanlarını, yaxud əkinçilik təsərrüfatını kolxoz-sovxozlara vermək istəmirdilər. Kolxoz və Sovxoz birgəliyinə qarşı çıxanları Sovet hökumətinin düşmənləri kimi qəbul edən yerli hökumət adamları onları təqib edib zindanlara məhkum edirdilər. Zindana məhkum olanların cəzalandırılmasında hökumət adamı olan NKVD işçisi Sarıməmmədin də rolu az deyildi. Kənd adamları həməşə fəxrlə Sünbülü adlandırdıqları

Mirvari xanıma kömək üçün müraciət etsələr də, köməyini əsirgəmiyən Mirvari xanım bir çox səbəblərdən hamıya kömək əlini uzada bilmirdi. Hətta, iş o qədər dərinləşmişdi ki, hökumətin kolxoz-sovxoz yaradılışına qarşı çıxan yerli əhali silaha əl atmışdı. Tabeçilik göstərməyən əhaliyə qarşı hərbi güc tətbiq edilmiş, kənd yaraqlıları və hökumət silahlıları arasında silahlı münaqişə bir neçə vaxt davam etmişdi. Yalnız, Sovet-Alman müharibəsinin başlanması ilə silahlı münaqişəyə son qoyulmuş və kəndin bütün əli silah tutanları müharibəyə göndərilmişdi. Kəndin və bütövlükdə bölgənin heç nədən cəza alanları Sarıməmməd ailəsinə və onun qardaşları Əhmədlə-Tarıməmmədə düşmən kəsilmişdilər. Sarıməmmədin hökumət adamı olmasından əziyyət çəkən qardaşlar başqa bir bölgəyə getmək arzusunu bildirmişlər. Sarıməmməd qardaşlarına köməkçi olub onları hökumət adamı olan bir erməni NKVD işçisinin əli ilə Ermənistanın Mehri kəndində məskunlaşmalarına şərait yaratmışdı. Bütün bunlara baxmayaraq Sovet hökumətinin başçısı Stalinin şəxsiyyətə pərəstiş və bu pərəstişə olan sitayiş ona gətirib çıxartmışdı ki, ölkənin bir çox tanınmış ziyalıları, dövlət xadimləri bu şəxsiyyətə pərəstişin qurbanı olmuşdular. Sovet xalqının və millətlərin birliyi nəticəsində Böyük Vətən müharibəsində qələbə əldə edilsə də, Stalinin yaratdığı şəxsiyyətə pərəstiş ideologiyası min doqquz yüz əlli üçüncü ilə qədər, yəni Stalinin ölümünə kimi davam etmişdi. Stalini ölümün-

dən sonra hakimiyyətə gələn yeni hökumət Stalinin adı ilə bağlı olan şəxsiyyətə pərəstiş ideologiyasını ləğv etmiş və bu pərəstişin yaratdığı gərginliklər aradan qaldırılmışdı. Yeni hökumət Sarıməmmədin vəzifəsini kiçiltmiş və kəndlərin birinə xidmətə göndərmişdi. Deyilənə görə, Sarımımməd bu hala dözməmiş və min doqquz yüz əlli üşüncü ilin sonlarında ömrünü başa vurmuşdu.

Natamam orta məktəbi başa vuran Rahib baytar həkimlik məktəbinə daxil olub, baytar həkimi peşəsinə yiyələnməklə bərabər, tam orta təhsilini də başa vurmuşdu. Elə həmin il də hərbi xidmətə çağrılmış və bayılma xəstəliyi ilə əlaqədar ordudan tərxis olunmuşdu. Bir müddət Dəmiyol idarəsində motorçu olaraq işlədikdən sonra, öz arzusu ilə paravoz maşinisti köməkçisi olaraq əmək fəaliyyətini davam etdirmişdi. Rahib qəribə fitli, səsli küylü paravozda işləməkdən fəxarət duyurdu. Yol boyu qıl dəmirlər üstündə şütüyən paravozda vətən diyarının mənzərələrini seyr etmək onun üçün xoş bir hal idi. Köməkçi olaraq paravozun yanacaq məkanına kömür atıb paravozu sürətləndirməklə mənzil başına çatmaqdan Rahib zövq almağı sevərdi. Paravoza işə gedənlər qara və nimdaş paltarlar geydikləri halda, öz peşəsinin vurğunu olan Rahib ağ köynəkdə işə gedər və həmkarları arasında maraq doğurardı. Boylu-buxunlu Rahibə  həmkarları xüsusi hörmət bəsləyərdilər. Rəhbərlik onun işə can yandırmasını yüksək qiymətləndirərdi.  O, kəndə gedəndə paravoz işindən kəndçi tay-

tuşlarına böyük ruhla danışıb onlarda paravoza həvəs yaradardı. Elə bunun nəticəsi idi ki, kəndçi tay-tuşlarından bir neçəsi paravozda işləməyə həvəs yarandığından Rahibin yolu ilə gedərək paravoz işçisi olmuşdular. Lakin, öz peşəsinin vurğunu olan Rahibin bu məhəbbətinə düşmənlər son qoydular. Bütün qəsəbədə öz boyu-buxunu, insanlığı ilə seçilən Rahibi, atasının düşmənləri nəzərdən çıxartmamışdılar. Bu düşmənlər vaxtilə hökumət adamı olan Sarıməmməd tərəfindən qanunu pozduqlarına görə zindana məhkum olanlar idi. Atasının düşmənləri qisas almaq üçün Rahibi məhv etmək istəyirdilər. Və belə bir fürsət yaranmışdı deyən qisasçılar hərəkətə keçdilər.

Böyük həvəslə işinə gələn Rahib bilmirdi ki, onu hansı ağır tale gözləyir. Yenə ağ köynəyində işinə buyuran Rahib maşinist Sarvanla görüşüb öyrəndi ki, bu gün Culfa istiqamətində yük vaqonlarını mənzil başına çatdırmalı olacaqlar. Rahib paravozun yanacaq hissəsinə xeyli kömür atıb maşinist Sarvanın paravozu hərəkətə gətirməsinə nəzər yetirdi. Paravoz yerindən at kimi kişnəyib dəmir təkərlərini rels üzərində xeyli fırlatdıqdan sonra tüstü buraxıb özünü gözəgörünməz etməklə bərabər fitləyə-fitləyə yola düşdü. Paravozu sürətləndirmək istəyən maşinist Sarvanın işarəsi ilə yanacağa kömür atandan sonra, öz köməkçi kürsüsündə oturan Rahib qıl relslərə və yola baxmaqla bərabər, əsrarəngiz vətən torpağı mənzərələrini seyr etməyə başladı. Müəy-

yən qədər yolu qət etmişdilər ki, onlara qarşı sürətlə gələn yük qatarını görən Rahib dəhşətləndi. Rahib qarşıdan gələn təhlükə haqqında maşinist Sarvanı xəbərdar etdi. Sarvan yola diqqət etdikdə qarşı-qarşıya buraxılmış qatarı görüb anladı ki, az vaxt içərisində dispetçerlə əlaqə saxlamağın xeyiri olmayacaq. Tez bir zamanda təhlükəsizliyi təmin etmək üçün hayqırdı ki, Rahib oturacağından möhkəm yapışsın və toqquşma zamanı yıxılmasın. Rahib də eyni zamanda Sarvana da möhkəm olmağı xahiş etdi. Sarvan tez bir zamanda çalışdı ki, paravozun sürətini xeyli azaltsın. Ancaq, nə qədər iti çalışsa da, artıq gec idi. Toqquşma nəticəsində Rahib oturduğu kürsüdən möhkəm yapışsa belə toqquşaraq bir-birinə girmiş paravozun zərbəsindən özünü saxlaya bilməyib başı üstə relsə dəyərək huşunu itirmişdi.

Bu hadisədən bir ay keçməsinə baxmayaraq hərəkət qatarlarının toqquşması aydınlaşdırılmamışdı. Az bir müddətdə sağlamlığını bərpa edən Rahib yenidən vurğunu olduğu peşəsinə qayıtmaq istəsə də, həkimlərin qərarı ilə həmişəlik peşəsindən məhrum oldu. Bir neçə ay Sovetlikdə katib işləməyə məcbur qaldı.

Min doqquz yüz əlli dördüncü ildə kəndin sayılıb-seçilən qızlarından olan on dörd yaşlı Zərifə ilə ailə qurdu. Həddi-buluğa çatmayan qızla ailə qurduğuna görə həbs olunacağını anlayan Rahib on səkkiz yaşı tamam olmuş bacısı Saranın doğum haqqında şəhadətnaməsini istifadə edərək Zərifəni on səkkiz yaş adı altında

nigaha saldı. Min doqquz yüz əlli beşıncı ilin ilk yaz ayında ailənin ağappaq toppuş bir oğlu doğuldu ki, adını Sünbülü xanımın arzusu ilə Sarıməmməd qoydular. Hamıdan çox Sünbülü xanımı sevindirən balaca Sarış, getdikcə babasına çəkirdi. Nənə Sünbülü hər dəfə əri Sarıməmmədi xatırladan balaca Sarışı əzizləyəndə, onun da böyüyüb babası kimi hökumət adamı olmasını arzulayardı. Rahib və Zərifə ailəsində buğdayı bir uşaq da dünyaya gəlmişdi ki, yenə Sünbülü xanımın arzusu ilə uşağa Qaraməmməd adını qoymalı olmuşdular. Adqoymadan söz düşəndə Sünbülü nənə deyərdi ki, adlar uşağın görünüşünə uyğun olsa da, yaddaşlarda tez qalmış olur. Qarabuğdayı  körpə Qaraməmməd də çığırtı - bağırtısı ilə ailənin dincliyini ərşə çatdırardı. Artıq iki yaş yarımlıq olan Sarıməmməddən anası Zərifə tələb edirdi ki, azca kənd uşaqları ilə laqqırtı vursun. Sarıməmməd yalvarardı ki, o uzağa getmir evin damında kənd uşaqları ilə oynayır və tut ağacına bağlanmış yüyrükdə əl-qol atan qardaşına himayədarlıq edir. Ana Zərifə isə ondan tələb edirdi ki, yaxşısı budur ki, qardaşını yellən-küflan edib o yuxulayandan sonra uşaqlarla damda sakit oynamağa getsın. Zərifə anaya barama planı verildiyindən bir an belə dinclik tapa bilmirdi ki, uşaqlara nəzarət edə bilsin. Kəndin cavan qızları kənd uşaqlarından ağappaqlığı, toppuşluğu ilə seçilən Sarışı oynatmaqdan yorulmazdılar. Bəzən özləri ilə götürüb

gəzməyə aparardılar. Balaca Qaraş car çəkib ağlayanda Zərifə ananın çətinliyi elə bu zaman yaranardı.

Kənd yolunun altında ailəsi üçün bir otaqlı ev ərsəyə gətirən Rahib, boş vaxtlarında kəndin ayağındakı çaydan çay daşları yığaraq evi böyüdüb iki otaq ərsəyə gətirəcəyini düşünürdü. Evin damı sarı gil qumla örtüldüyündən şıdırğı yağış zamanı  Rahib saplı kürəklə dama çıxıb döyəcləyərdi ki,  qamışlı-gilli dam bərkimiş olsun ki, evi yağış suları basmasın. Belə vaxtlarda atasına kömək etmək istəyən Sarış kürəklə damı döyəcləməyə çalışsa da gücü çatmaz və bu zaman atası onu yerdən hop götürüb damdan düşürər və evə gələrdilər. Bəli, Rahib ikinci otağı ərsəyə gətirmək düşüncələrində, Zərifə isə körpə uşaqları böyütmək əzmində olsun sizə kimlərdən deyim? ! Rahibin ata düşmənlərinin ailəyə yeni faciə yaratmaq qisaslarından. Hökumət adamı Sarıməmmədin oğlu Rahibi qisas zəminində yarımcan edən düşmənlər yeni qisasçılıq məqsədlərindən əl çəkməmişdilər. Bu qisasçılıq hələ də düşmənçilik eşqi ilə yaşayanların beyinlərində cövlan etməkdə idi.  Qisasçılıq eşqi ilə yananlar indi də düşmənləri Sarıməmmədin hayfını onun oxşarı olan toppuş Sarışdan almaq istəyirdilər. Fürsəti fövtə verməyən qisasçılar hər an Sarışı izləyib, hayıflarını çıxmağa çalışırdılar.

Balaca Qaraşın  yatmasına köməkçi olan Sarış anasının icazəsi ilə evin damında oynamağa qalxmışdı. Lakin, bu oynamaq həvəsi Sarışın talehinə ağır zərbə

vurmuş oldu. Anasının baş qarışığından istifadə edən baba düşmənləri tərəfindən Sarış uşaqlarla oynayarkən itələnib daş toplusuna arxası üstə düşmüş oldu. Uşaq bir az özünə gəldikdən sonra heç nə olmamış kimi daş toplusundan bir təhər düşüb oynamaq həvəsi ilə dama qalxanda heç kimi görməyib kefsizləndi. Beləcə bir necə gündən sonra baş verən kürək ağrısından Sarış şikayətlənib, ayaq üstə durmayaraq iməkləməyə meyilli oldu. Tez-tez ağrıdan zarıldayan Sarışın soyuqdan xəstəlik tapdığını düşünən Zərifə onun kürəyinə banka qoymaq istəyərkən, belindəki qoz boyda şişi görüb ürpəndi. O vaxtları kənddə xəstəxanalar və həkimlər olmadığından hər bir kənddə "kənd həkimləri" xəstələrə əlac edərdilər. Zərifə uşağı "kənd həkiminə" göstərdikdən sonra müalicəyə başlayan "el həkimi" qan almaq üçün xəstə uşağın onurğasında əmələ gəlmiş qoz boyda şişi ülgüclə çərtərək qan almağı vacib saydı. Beləliklə də, "kənd həkimi"uşağın belindəki banka əməliyyatı ilə onun böyüməsinə naşılıqdan zərbə vurmuş oldu. İki yaş balaca olan Qaraş artıq boyda, Sarışı ötmüşdü. Balaca Sarışın dərdi çarəsiz olduğundan ailəni, ən çox Sünbülünü bədbinlik ruhu bürümüşdü. Oğlunun dərdini çəkməkdən ata günü-gündən zəmanəyə qarşı çıxaraq əsəblərini cilovlaya bilmirdi. Nəsil düşmənləri ailəni tamamən məhv etməkdə qərarlı idilər. Ana-nənənin çarəsiz dərdə məhkum olan körpə dərdindən, atanın zəmanə şikayətindən həzz alan düşmənlər ailəyə nifaq salmaq üçün

şaiyəyə əl ataraq kənddəki bəzi boşboğazların dili ilə, atanın əsəb durumunu ruhi xəstə kimi dilə gətirib onun uşağa zərər yetirməsini ortalığa atdılar. Beləliklə də, şər qüvvələr atanı ruhi xəstə kimi qələmə verərək, uzun müddət xəstəxanalarda ruhi xəstə olaraq yatmasına müvəffəq oldular. Başı bəlalı Zərifə oğlunun dərdindən bəri-biyaban olmuş Sünbülünün az da olsa köməyi ilə uşaqları böyütməkdə idi. Lakin, qisasçı düşmənlər bununla da kifayətlənməyib oğlunun dərdinə əlac tapmaq istəyən ana Sünbülünü də, ruhi xəstə adı altında vərəm dispanserinə yerləşdirib həqiqi ruhi xəstə etdilər. Bəli, bir vaxtlar barmaqla göstərilən bu möhtəşəm ailə məhv olmaqda idi. Qisasçı düşmənlər buna nail oldular. Uzun müddət xəstəxanada "müalicə alan"Rahib qırx yaşının tamam olmasına aylar qalmış dünyasını dəyişmiş oldu. Oğlunun ölüm xəbərini eşidən bir vaxtların at belində gəzən Sünbülüsü dərdə tab gətirməyib, ürək partlamasından dünyasını dəyişdi. Bu da bir möhtəşəm nəslin faciəli sonluğu, -deyə Sərdar kişi dərindən bir ah çəkdi.

**S O N**

# FELYOTON

## BİR GÜNLÜK GƏZİNTİ

İyul ayının əvvəlləri idi. Göydən od tökülürdü. Hava soyuducusu nə qədər sərinlik püləsə də isti otağın havası sərinləşmək bilmirdi. Əl-üz məhrəbaları tərdən tez-tez dəyişilib yuyulmalı olan paltar dolabına atılsa da, tər qoxusu adamın burnunu qıcıqlandırırdı. Otağın sərinlənmək bilməyən isti havasından yazı-pozu ilə məşğul olmaq qeyri mümkün idi. Hündür mərtəbədə yerləşən evimin istisinə dözməyib xarici turistlərin səyahət məkanı olaraq qəbul etdiyi ürəklərə oxşayan gözəl Bakımızı gəzməyə qərar verdim.  Yüngülvari geyinib evimi tərk etdim.  Bayırda da, günəş şüasının başıma vurmasından ehtiyyat edib, bir-birinə yanaşı olan və kölgəlik yaradan hündür binaların arası ilə yoluma davam etdim. Elə ilk addımlarda tut ağaclarının asvalt örtüyünə tökülmüş meyvəsindən günəş şüasının “hazırladığı”doşab iyisini duyub heyfsiləndim. Kəndimiz yadıma düşdü.  Biz uşaqlar doşab bişirmək eşqi ilə yaşayan nənələrimizin təhriki ilə tut ağacına dırmaşar ya təpiklə, ya da səlbi ilə tutu çırpardıq. Nənələrimizin ağacaltı sərdiyi süfrələr tutla dolu olardı. Ağacdan düşər nənələri-

mizlə bahəm tutları yığıb ağappaq şəkər tozu ilə bəzənmiş ləyənə tökərdik. Ocaq qalanar və ləyənə bulağın gözündən götürülmüş göz yaşından şəffaf olan su töküb pıqqapıq bişən və getdikcə köpüklənən ləyənə ağzı sulu baxardıq. Nənələrimiz ağzımızın suyunu görüb, bişməkdə olan döşabın kəfindən bizə verərdi. Ağzımız elə dada gələrdi ki, şirinlikdən qurumuş ağız- boğazımızı buz tək bulağın suyu ilə islatmış olardıq. İndi mən ayaq altında məhv olan tut meyvəsinə baxıb dərindən köksümü ötürürdüm. Ay gidi dünya, harda qaldı o uşaqlıq illəri. Xülasə. Məni fikir götürdü ki, bazarlarda tutun nimçə boyda yığımına dəhşətli qiymət qoyduqları halda, bu tut töküntüsünə niyə belə biganəlik var?! Kaş keçmiş və dünyasını dəyişmiş nənələrimiz tut meyvələrinin indiki biganələyini görəydilər! Hələ bu harasıdır? Bir də görürdün ki, dəymiş qara tut meyvəsi ağappaq köynəyini qara boyaya salıb və qaragünə döndərib. Yaxud, asfalt örtüyünə tökülmüş tut meyvəsini tapdalayanın mərmər örtükdə iz buraxması. Dəhşət! Yadıma Sovet dövründə Rusiyada yaşayərkən Qroznı şəhərinə iş məzuniyyətinə getdiyim vaxtlar düşdü. Ə kişi şəhərdəki səkilərdə gilas, gilənar ağaclarının meyvələri adamın ağzının şirəsini dodağından yerə tökürdü. Mədənin tələbinə dözmək olmur axı?! Odur ki, özümü saxlaya bilməyib gilənar meyvəsindən doyunca yeyib dəndiklərini hara gəldi üfürdüm. Bir də gördüm ki, qolumu dimsəkləyən xanım rus dilində çeçen ləhcəsi ilə məndən xahiş

etdi ki, üfürdüyüm dəndikləri yığıb zibil qabına atım. Utandığımdan abır suyum süzülə-süzülə üfürdüyüm dəndikləri yerdən yığıb zibil qabına ataraq mənə tərbiyə dərsi keçmiş qadına üzrxahlıq edib geri baxmadan uzaqlaşdım. Ancaq, bizim Bakımızda şəhəri ələk-vələk edən qardaş-bacılarımız tozu duman edən maşınların hərəkərt səkisində tozlanmış tut meyvəsini ağacı qarışıq sındırıb yeyəndə, hələ üstəlik cəciyini tüpürcək qarışıq yerə üfürənldə gördüm deyən olmur. Nə isə, yolçu yolunda gərək. Kiosklarım birindən bir qəzet alıb günvurmadan qorunmaq üçün əsgəri bir papaq düzəldərək başıma qoydum. Yadıma gəlir ki, tələbə vaxtı bizlər acgözlüklə qəzetləri mütaliə edərdik. İndi məgər qəzet oxuyan var? Gözünə döndüyüm intenet qəzetlərin evini çoxdan yıxıb. Qəzetlər də açıq havada vitrinə qoyulduğundan günəşvurmadan saralıb sement kağızı meşoğuna bənzəyiblər. Nə alan var, nə də mütaliə edən. Qardaş qəzet papağım da istidən başımın tərini özünə hopdurub yararsız oldu. Bir təhər qırov istinin əlindən qurtulub özümü metroya saldım. Qatar gəldi. Qapılar açılar-açılmaz içərisi qadınlar qarışıq bir basa-bas düşdü ki, elə bil körpələrini bağlı qapı içərisində qoymuşdular. Yaşlı adamam deyə, oturacağın birində yerimi rahatlamaq istəyirdim ki, yetgin bir qızcığaz özünü oturacağa atıb sağ və sol əllərini yanındakı boş oturacağa qoyub cavan papa-mamasını oturmağa çağırdı. Papa-mama heç nə olmamış kimi yanlarını yerə verib sıxlaşdılar.

Danışıq tərzlərindən anladım ki, bunlar yəqin Rusiyadan gəlmiş turistlərdir. Oturmaq imkanım baş tutmadığından ayaq üstə dayanmalı oldum. Qızcığazın bu hərəkətini müşahidə edən orta yaşlı kişi və qadınlar ayağa qalxaraq böyüyə hörmət əlaməti olaraq yerlərini oturmaq üçün dəvət etsələr də, mən təşəkkürümü bildirib oturmaqdan vaz keçdim. Uşaqlıqdan xasiyyətim belədir. Məğrurluq və böyüyə, qadına hörmət əqidəmdir. Hələ cavan ikən Rusiyada yaşayərkən on səkkiz kilometrlik yolu avtobusla qət edəndə heç vaxt oturmazdım. Yerli məni tanıyanlar bu hərəkətimə təəccüb qalardılar və mənə haqq dərsi keçərdilər ki, oturacağın say nömrəsi sənin biletində göstərildiyi halda, niyə öz yerində oturmayıb kiməsə yer verirsən?! Mən onlara Qafqaz tərbiyəsindən danışardım. Daha iş elə gətirmişdi ki, sıxlaşmış avtobusa minənlər mənə elə xahişanə baxardılar ki, mən istər-istəməz yerimi onlara təhvil verib heç təşəkkür də eşitməzdim. Bəli turist qızcığaz əməlli başlı məni keçmişimlə elə xəyallandırmışdı ki, diktorun Nizami metrosu dayanacağını deməsi məni keçmiş xəyalımdan ayıltdı. Nizami dayanacağında düşüb Dram teatrının qarşısındakı yeraltı keçiddən bir ucuzvarı ağ papaq almaqla günvurmadan qorunmaq arzusuna düşdüm. Nədənsə, dimdikli ördək papağından başqa bir papaq tapmadım. İndi bu dimdikli ördək papağı moda minsə də, mən bu papağa hörmətlə yanaşmazdım. Böyük dövlət rəhbərləri rəsmi kostyum və qalstukda ola-

raq bu dimdikli papağı başlarına qoyanda elə bilərdim ki, rəsmiyyətlərini itirirlər. Elə bizim düşmən dövlətin başçısı Paşinyanı götürək. Düzdür onsuz da Paşinyan zatən rəsmiyyət adamı deyil. Axır vaxtlar dimdikli papağı əvəzləyib rus papağını başına qoyaraq Rus-Fransa başçılarını çətirləri altında yağışdan qorunsa da, xeyiri yoxdur. Rəsmiyyəti olmayan Paşinyan, hətta Hindistan tumanı geysə belə başa düşməlidir ki, zatən rəsmiyyətsiz cənabdır. Nə isə bu papaq məsələsi çox qəliz məsələdir. İndi durub desəm ki, heç görmüsünüz ki, hər hansı bir Avropalı başına Buxara papaq qoyur. Təəccüblənəcəksiniz. Bəlkə də, ayıq-sayıq olanlar anlayacaqlar ki, Avropa başı hara, Buxara papaq hara?! İstinin cırhacırında Avropalının başı Buxara papaqda qaynanmış qazana və tükənmiş təfəkkürə bənzəmiş olacaq ki, bu da Avropada qara kabus yaradacaq.  Necə ki, Buxara papaqsız olan Avropa onsuzda qara kabus bataqlığındadır. Əşi bu papaq məsələsi az qala məni siyasətə sürükləmişdi. Nə isə, papaq məsələsi alınmadı. Yeraltı keçidi tərk edib pilləkənlərlə H. Hacıyev küçəsinə qalxırdım ki, uzun boylu, nərmə nazik, şişirdilmiş dodağı sifətinə kobud olaraq pərçim edilmiş,  uzun kirpikləri az  qala zəhləm getmiş ördək dimdikli papağın dimdiyinə dəyən cavan qara bir qız qarşımı kəsdirdi.Çox eşidilməyəcək bir tərzdə rus dilində məndən kömək üçün bir manat istədi ki,bu da mənim heyrətimə səbəb oldu.Düzü gözlənilməz qarşılaşmadan az qala özümü itirmişdim.

Cavan qız məndən cavab gözləyirdi. Özümü elə apardım ki, guya onu anlaya bilmədim. Cavan xanım Bakı ləhcəsində şirin bir səslə buyurdu ki, mən ona kömək etmək məqsədi ilə bir manat verə bilərəmmi? Düzü heç özümdən asılı olmayacaq bir tərzdə ona, yox deyib uzaqlaşdım. Binaların kölgə hissəsi ilə gəzə-gəzə özümü Nizami bağına çatdırıb, oturacaqda yorğunluğumu almaq istəyirdim ki, qucağında balaca bir it gəzdirən xanım yanımdakı oturacaqda peyda olub itini əlindən buraxaraq çantasından siqaret götürüb damağına qoydu. Yenə çantasını eşələyib təəssüflənmiş kimi mənə müraciət edərək alışqanımın olub-olmasını soruşdu. Mən xanıma bildirdim ki, siqaret çəkmədiyimdən özümlə alışqan gəzdirmirəm. Xanım alışqan axtarırmış kimi ətrafına boylananda balaca it bir qıçasını qaldıraraq oturacağa bitişik olan ağacı sulayıb, qulaqlarını şəkləyərək sahibinin qucağına atıldı. Elə bil indicə görürdüm. Balaca itlə xanımın oxşar qiyafəsi ana-bala görkəmini yaradırdı. Bu görkəmə olan münasibətimin qeyri qənaətbaxış tərzindən mənə həyasız bir təbəssüm göstərən xanımın hərəkətini xoşlanmayıb oturacağı tərk etdim. Bir az aralanıb qara hasarlarla əhatə olunmuş erməni kilsəsinin qarşısındakı oturacaqda rahatlandım. Erməni kilsəsi beynimi elə qarışdırdı ki, bu qarışıq məni otuz ildə məscidlərimizə təhqir gözü ilə baxıb donuzxanaya döndərən və bir çox məscidlərimizi viran edən erməni daşnaklarının qeyri insani hərəkətlərini göz önümə gətirdi. Vallah,

məndən olsaydı bu daşnak kilsəsini bir anda yox edərdim. Ancaq, vallahi-billahi mənlik deyil. Bu erməni haray-həşirçilərinin yan-yörəsində fırlanan Avropa bacılarının əlindən qurtarmaq müşgül məsələ olacaqdı. Fikir məni götürmüşdü. Axı mən niyə kilsənin önündə oturub əsəblərimi korlayıram. Üz tutdum Sahil bağına. Fəvvarələrin gətirdiyi sərinlik könlümə oxşadığından oturub dincəlmək qərarına gəldim. Oturacaqda oturan gül üzlü balaların göyərçinləri tum və bulka qırıntıları ilə yemləmələri ruhuma oxşadı. Birdən tələbə vaxtlarımı xatırladım. Mən dərslərimi Milli kitabxanamızda hazırlayar və dincliyimi o vaxtkı "26"-lar adlanan bu bağda alardım. Ailə quran gənclərin "26"-lar memorialına gəlib gül qoyaraq şənlənmələri mənə ləzzət edərdi. O memoriyalda iki əli ilə yanan qazı tutan erməni Şaumyanın heykəli qoyulmuşdu. Bağın bir hissəsində isə "26"ların adları və büstləri lövhəyə həkk olunmuşdu. İndi bu heykəl memorialla bahəm, adları həkk olunmuş lövhə müstəqilliyimizin ilk anlarında sökülərək əbədi yox olmuşdu. Qəribəsi o olmuşdu ki, əlində yanan qaz alovunu tutan Şaumyanın "26"-lar arasında heç sümüyü də tapılmamışdı. Demə bir vaxtlar Bakıya rəhbərlik etmiş bu cani hiyləgərcəsinə sivişib aradan çıxaraq əcdadlarının vaxtilə yaşadığı məkana üz tutmuşumuş. Vallahi-billahi sivişib aradan çıxmaq bu ermənilərin gen kodudur desəm inanın mənə. Məgər, otuz ildə Qarabağ bizimdir! - deyib at çapan erməni hiyləgərləri

son anda sivişib aradan çıxmadılarmı? Babayanlar, Ohanyanlar, Balasanyanlar və adını çəkib qanımı qaraltmaq istəmədiyim qeyri ermənilər sivişib aradan çıxmadılarmı?! Nə isə, keçənə güzəşt desələr də, mən deməzdim. İlanın ağına da lənət, qarasına da. Yolumu saldım sərin mehi ilə qəlbə oxşayan bulvarımıza. Millət əlindən oturacaqda yer belə tapmaq müşgül idi. Bir təhər yer tapıb otura bildim. Tələbə vaxtı ən çox sevdiyim istirahət məkanlarından biri Dağüstü park və indi Xəzərini seyr etdiyim bulvar idi. Dağüstü parkdan gözəl Bakımızın mənzərəsini seyr edərdim, bulvarda isə Xəzər ləpələrinə baş vurub yem axtaran ördək və qağayıları izləməklə zövq alardım. Dərindən bir ah çəkdim, hayıf səndən keçmişim! İndi bulvarı gəzintiləri ilə zəbt etmiş ağlı, qaralı, çəhrayılı turistləri görmək bizə qismət olmuşdu. Bir tərəfdən də, balaca küçükləri qucaqlarında gəzdirənlər, yaxud üz-gözü tökülən Buldoqdan tutmuş digər nəhəng itləri ilə bulvarı səyahət edənləri daha demirəm. Mənim diqqətimi daha çox turistlər özlərinə cəlb etmişdi. Müxtəlif milli geyimli bu turistlər vətənimizin azadlıq və sərbəstlik imkanlarından istifadə edərək hərəkətlərində sərbəstliyə yol verirdilər. Turistlər içərisində ən çox diqqəti cəlb edən ərəblərin milli mentalitetimizə uyğun olmayan sayğısızlığı idi. Mən hələ Sovetlər dönəmində ömrümün on altı ilinə qədərini Rusiyada yaşamışam. Yerli millətin adət-ənənələrinə, dinlərinə hörmətlə yanaşmışam. Heç yadımdan çıxmaz. Ailəliyimin ilk

dönəmində yaşadığım binanın həyətində bazar günü palaz çırpırdım. Pəncərələr tez-tez açılıb sərtliklə bağlanırdı. Qonşularımdan biri mənə bildirdi ki, sən bazar günündə nədən palaz çırpıb günah qazanırsan? Gözünü döymüşlər kimi ona baxanda məni agah etdi ki, bizlərdə(xristiyanlarda) bazar günü iş görməzlər. Çünki, bazar günü bizim İususumuz çarmıxa çəkilib. Dini adətimizə görə, biz xristiyanlar bazar gününü işləyib günah qazanmırıq. Mən üzr istəyib, palazı götürüb evə getdim və bir daha bazar günü işləməyimizə son qoydum. İndi bu ərəb turistlərin xanımlara olan qeyri-etik münasibətini görüb, təsirdən təblənərək bir bayatı dedim:

Əzizim bu ərəblər,
Gətiriblər səbəblər,
Turist kimi gəliblər,
Göstərirlər "ədəblər".

Fikir məni götürmüşdü.Ruhumda bir peşmançılıq hiss edirdim. Qızıl vaxtımı bir günlük gəzinti ilə heçə vurmuşdum. Axı evimdə rahatca oturub yazı-pozumla məşğul olsaydım, zənnimcə ruhum da şad olardı. Oturacaqdan dik qalxıb evimə yollandım.

***S O N***

# YENİ BAYATILAR

## SİYASI BAYATILAR

Əzizim zamanında,
"Hay"dı Rus amanında,
İndi zaman dəyişib,
"Hay"lar Qərb gümanında.
xxx
Əzizim bu Paşinyan,
Deyir, mənimdir hər yan,
Gündə bir qərar verir,
Gəl başa düş, daşın-yan.
xxx
Əzizim Qarabağdan,
Haylar qaçdı yad bağdan,
Mişa qaçan hayları,
Suçladı Qarabağdan.
xxx
Eləmi haylı Tiqran,
Nədən, fars sənə heyran?
Ay bixəbər! Zəngəzura,
Verib marağın Tehran.
xxx

Eləmi Fars İsfahan,
Heç verdinmi İmtahan?
Urusa boyun əydin,
Bölündü Azərbaycan.

xxx

Əzizim İranlısan,
Niyə Türklə qanlısan?
Müsəlman haqqın varsa,
Nədən Haya bağlısan?

xxx

Əzizim bu İrandı,
Milli hissi qırandı.
Nədən Türkü sevməyib,
Hayka dost yarandı?

xxx

Əzizim"qul"hindistan,
Qurtuldun milli yasdan,
Haya havadar olub,
Sonuna yazma dastan.

xxx

Əzizim başdan-başa,
Dünya olub tamaşa,
Nikola qucaq açır,
Makron adlı mamaşa.

xxx

Əzizim ay Jak Şirak,
Makrona sönüb maraq,

Parisdə, həm xaricdə,
Hörmətdən yoxdu soraq.

xxx

Əzizim bu Avropa,
Siyasəti hop-hopa,
Haqqa gözlərin yumur,
Güc verir hərbi şopa.

xxx

Əzizinəm ay ABıŞ,
Ştatlardan möhkəm yapış,
Bayden ştatları görmür,
Dünyaya tikir papış.

xxx

Əzizinəm bu qala,
Keçilməz sədli qala,
Azərbaycan böyüyür,
Hayastan qalıb dala.

xxx

Əzizim bu Suriya,
Sonda Türkə yarıya,
Türkmanelli ellərim,
Vətənində qarıya.

xxx

Əzizim Çin ölkəsi,
İnkişafın öncəsi,
İnkişafda sürəti,
Düşündürür hər kəsi.

Əzizim bu özbəklər,
Xeyli pambıq əkərlər,
Xankəndiyə pul qoyub,
Yəqin fabrik tikərlər.

xxx

Əzizinəm Türkiyə,
Azərbaycan-Türkiyə,
Bir yumruq olmaqla,
Bir hədəfdə bərkiyə.

xxx

Əzizim bu uruslar,
Yeni oyun qurdular,
Təyyarəni vuraraq,
Quşu günah tutdular.

xxx

Əzizim bu Hökümə,
Bildi gedir ölümə,
"Hər şey yaxşı olacaq",
Ümid verdi elinə.

## TAPMACA VƏ HİKMƏTLƏRİ ƏKS ETDİRƏN BAYATILAR

Əzizinəm başa bax,
Bu papaqsız başa bax,
Arxası düz, burun zor,
Üzdəki təlaşa bax.

xxx

Əziziyəm bu iynə,
Sapından incə iynə,
Paltarları bəzəyir,
Özü düşməz düyünə.

xxx

Əzizim iki alma,
Yoxlasan köhnə alma,
Suda qalxır, gah batır,
Birisə üzən alma.

xxx

Əzizinəm Mirkişi,
Doqquzu say, dur kişi,
Hövsələn son olmasa,
Başına şiş vur kişi.

xxx

Əzizinəm bu divar,
Bünövrəlidir divar,
Ədəb çox yaxşı nemət,
Tapın, kimdə bu da var?

xxx
Əzizinəm masaya,
Sovqatı qoy masaya,
Bəzi başlar "sovqatsız",
Bənzəyir boş kasaya.

xxx
Əzizinəm bu dillər,
Haqqı söyləyən dillər,
Zəhərli olur bəzən,
Bəzənsə ballı dillər.

xxx
Əzizinəm yeyənin,
Olmaz dostu "deyənin",
Olsun yüz yeyənin,
Olmasın bir deyənin.

xxx
Əzizinəm bu tellər,
Keçirib neçə illər,
Vaxtında qara olub,
İndi ağaran tellər.

xxx
Əzizinəm bu qarda,
Qar qoymaz bizi darda,
Elə namərdlər var ki,
Vurarlar olsan darda.

Əzizinəm bu nəvəm,
Deyir:- baba mən devəm,
Mən qoca, boy bir altmış,
Ağacı quruyan mevəm.

xxx

Əzizim qızıl güllər,
Çox görüb şümşad əllər,
İynəli olsa belə,
Qadını qucar güllər.

xxx

Əzizim geriyə bax,
Bir dönüb geriyə bax,
Keçmişinin aynası,
Üzündəki dəriyə bax.

xxx

Əzizinəm daşa bax,
Alnında qırışa bax,
Dünya əksər əzablı,
Qırışdakı yaşa bax.

xxx

Əzizim ay Dolama,
Nahaqdan od qalama,
Bir az mərdliyin varsa,
Tüpürdün ha, yalama.

Əzizim ay Niyazi,
Qışdır gözləmə yazı,
Ağlını başına yığ,
Olma ağıl dayazı.

xxx

Əzizim var bu kəslər,
Görərlər yüz məclislər,
Yeyər, içər keflənər,
Olarlar kəm iblislər.

xxx

Əzizim hamar-hamar,
Həyata baxma xumar,
Talehin bəd gətirər,
Gözündə yaş quruyar.

xxx

Əzizim sən nağdısan,
Borclulardan yaxşısan,
Məğrurluqla yaşayan,
Oğulların naxşısan.

xxx

Əzizinəm bu dağlar,
Qəribə baxıb ağlar,
Vətəni sevən oğul,
Dağlarda salar bağlar.

Əzizinəm düzünə,
Sözünü de üzümə,
Arxamca qeybət etsən,
Güllə dəysin gözünə.

xxx

Əziziyəm bu külək,
Güclü olmasın gərək,
Külək güclü olarsa,
Bizə səmt göstərəcək.

xxx

Əzizinəm barama,
Özündən söz qurama,
Böhtan demək asandır,
Arxasında dur ama.

xxx

Əzizinəm ay İydə,
Qızı öyrət beşikdə,
Qıza baxmayan ana,
Dizin döyər eşikdə.

xxx

Əzizim bu Mustafa,
İşlədir yaman qafa,
Ağ çörək yox, önəmi
Verir çovdar-yulafa.

Əzizim kiri-kiri,
Önə bax yeri-yeri,
Keçmişi yada salıb,
Ölmə sən diri-diri.

xxx

Əzizim çay nanəli,
Ver içim çay nanəli,
Bəzi həccə gedənin,
Əzəldən yox "nan" əli.

xxx

Əzizim bax halına,
Uyma dünya malına,
Çox xaqanlar görmüşük,
Ağlayıb son halına.

xxx

Əzizinəm qızılı,
Sevərlər göz yumulu,
Nəfsin evlər yıxmağın,
Bilir Surxay Subulu.

xxx

Əzizim köküm Şamlı,
Divarı daş, gil damlı,
Vən bulaqdan su içdim,
Axar çayam, ilhamlı.

## Ailə-məişət və cəmiyyət təzahürlərini özündə əks etdirən

## BAYATILAR

Əzizinəm ay Həsən,
Qəssabsan, inək kəsən,
Nəfsin xalqı aldadır,
Çünki, ata keçmisən.

xxx

Eləmi axmaq oğru,
Dilinə gəlməz doğru,
Elə çalanlayırsan,
İt yalandı, sən doğru.

xxx

Əzizim yana-yana,
Möhtacam bu qadına,
Nədən zəhər yedirdir,
Məqsədli, qana-qana?!

xxx

Əzizinəm qənd oğul,
Arvadına bənd oğul,
Qırxında ağıl yoxsa,
Bir də olmaz, "zənd" oğul.

Əzizinəm daş üstə,
Daş olsun bu baş üstə,
Yerim iki-bir olsun,
Ağı desin Növrəstə.

Əzizim anam Dursun,
Baladan yanan Dursun,
Balaya qıyanların,
Başından Allah vursun.

xxx

Əzizim Balabacı,
Üç qardaşın sən tacı,
Üçündə insanlıq yox,
Nədən olublar Hacı?

xxx

Əzizinəm ay Murad,
Nə durmusan, qur-yarat.
Xalqına olsan həyan,
Vicdanın olar rahat.

xxx

Əziziyəm bu xala,
Qoymaz bircə iş qala,
Kişisə xoruldayar,
Ölər, vurmaz mıx nala.

Əzizim bu kürəkən,
Olub ayaqdan çəkən,
Biri irəli getsə,
Olacaq papış tikən.

xxx

Əzizinəm Həzini,
İncidir qan təzyiqi,
Deyir, -gizli qatildir,
Qəflət vurur bəzini

xxx

Əzizinəm bu bahar,
Dolanarıq bir təhər,
Qida qiyməti qalxmaz,
Şükr olar səhər-nahar.

xxx

Əzizim qonşu Damla,
Arası yox haramla,
Düzgünlüyü sevəndir,
Malları çəkər qramla.

xxx

Əzizinəm ay baldız,
Gəlini qoyma yalqız,
Dili sakit olmasa,
Dilinə qoy sal duz.

Əzizim Qəşəm kişi,
Gülürsən hey kişmişi,
Hərdən çərənləyirsən,
Yandırırsan "bişmişi"

xxx

Əzizinəm ay Qulam,
Harda qaldı haq-salam?
Salam Allahdan qalıb,
Bəndənə versən salam.

xxx

Əzizim bu İsmayıl,
Sədəfə olub mayıl,
Bir deyən yox İsmayıl,
Sədəf sevmir, sən ayıl.

Əzizim bu Məşədi,
Ələmdən çox, nəşədi.
Deyir ki, hacı olmaq,
Dinçilik yox, peşədi.

xxx

Əzizim dəstə-dəstə,
Almaz oxur şikəstə,
Yorğan-döşək dərdlisi,
Oyanar, olsa xəstə.

xxx

Əzizim bu Manana,
Oxuyur yana-yana,
Gürcü qızı dərs verir,
Bayağı oxuyana.

xxx

Əzizim bu Çinarə,
Oxuyur gizli yarə,
Gedək üzü küləyə,
Marş oxuyaq dildarə.

xxx

Əzizinəm ay Fazil,
Bəmin hanı? Etmə zil,
Bəmin-zilin yoxdursa,
Olarsan eldə rəzil.

xxx

Əzizim bu Qarabağ,
Bir səkkizə qalxdı bax,
İlk hissədə qol vurdu,
İkincidə "toya"bax.

Əzizim "Qarabağ"dır,
Futbolda uca dağdır,
Qurban məşqçilik edir,
Tahirin keyfi çağdır.

xxx

Əzizim məşqçi Qurban,
Möcüzədir ki, vardan,
Futbolçu yetişdirir,
Biri də olmaz "çurban".

xxx

Əzizinəm ay Fuad,
Deyiləm ki, sənə yad,
Elə divan təklif et,
Canımız olsun rahat.

xxx

Eləmi sən ay Azad,
Nəfsin, işin bir təzad,
Vicdanını itirmə,
Haqda qazan bir az ad.

Əziziyəm bu arvad,
Qoyur hərəyə bir ad,
Məhlədə hamı bezib,
Söyləyir əri İbad.

xxx

Əzizim bu kişi-ər,
Arvad görcək tökür tər,
Arvadım böhüdədir,
Söyləyir o müxtəsər.

Əzizinəm ay Əhməd,
Ağlayır kiçik Nəhməd,
Qardaşına qulluq et,
Anan çəkməsin zəhmət.

xxx

Əzizim Televizor,
Sərhədi aşdın, çox zor!
“Bizimlə”, ″Axtar”, ″İzlə”,
Xalqı edibdir kar-kor.

xxx

Əzizim çoxdu maşın,
Tıxacda itir başın,
Maşınlar yolun azır,
İşıqforsa yaddaşın.

xxx

Əzizinəm ay Nəbi,
İnsanlığın yox həbi,
O bir Allah neməti,
Nədən olmasın dəbi?

## Kitabın içindəkilər:

Ulduzlaşan qəhrəman (roman) ................................ 6

**Hekayələr:**

Nə sevib, nə də sevilib ................................................ 96

Bir nəslin faciəsi ....................................................... 111

**Felyeton:**

Bir günlük gəzinti ................................................... 123

**Yeni Bayatılar:**

Siyasi Bayatılar ......................................................... 132

Tapmaca və hikmətləri əks etdirən bayatılar.......... 136

Ailə-məişət və cəmiyyəttəzahürlərini əks etdirən bayatılar ........................................................................ 142

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 22.01.2025
Şərti çap vərəqi 9,5. Sifariş № 04
Kağız formatı 60x84 1/16. Tiraj 300

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4